Azərbaycan Universitetinin nəşri

# ÇAĞLAYAN

2024/13

www.au.edu.az






## International Conference on Social Work & Social Research
## "Sosial iş və sosial tədqiqat" beynəlxalq konfransı

səh.6-15

# International Conference














# Social Work & Social Research



24-25 November 2023









# ÇAĞLAYAN

**Təsisçi və baş redaktor**
Azərbaycan Universitetinin rektoru
Səadət Əliyeva

**Redaksiya heyəti**
Yusif Qasımov
Nüşabə Quliyeva
Lalə Dilənova
Qabil Əliyev
Səfər Məmmədov
Elvin Talışınski
Asif Paşayev
Hüseyn Hüseynli

**Dizayner və fotoqraf**
Elxan Fərzəliyev

**Assistentlər**
Elvira Bayramova
Toğrul Quliyev

**İcraçı redaktor**
Lalə Dilənova

"Çağlayan" jurnalı
Azərbaycan Universiteti tərəfindən nəşr olunur.
(Ədliyyə Nazirliyinin reyestr nömrəsi 4138; 13.10.2017)

AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu
Ceyhun Hacıbəyli küçəsi, 71
Tel: (+994 12) 431 41 12 /13/16
www.au.edu.az

# İçindəkilər

6 — **Əsas mövzu**
"Social Work & Social Research" beynəlxalq konfransı

16 — Universitet xəbərləri

28 — 30-cu buraxılış Məzun Günü

30 — Beynəlxalq əlaqələr

32 — Elmi fəaliyyət

46 — **Azərbaycan xalqının mədəni irs nümunələri**
Şahbulaq qalası

67 — Tələbə həyatı

90 — **Məzunların izi ilə**
DOST Agentliyində işləyən Sosial iş məzunlarımız

92 — **Aktual**
COP29 (BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası)




# Redaksiyadan

Hörmətli oxucular,

"Çağlayan" jurnalının 13-cü sayında xoş gördük hər birinizi. Məqsədimiz sizləri Azərbaycan Universitetinin fəaliyyəti ilə tanış etmək, yenilik və uğurlarımız haqqında məlumat çatdırmaqdır. Məqsədimizə nə dərəcədə nail ola bilmişik, bunu siz dəyərli oxucularımızın verəcəyi qiymət müəyyənləşdirəcək.

Bu dəfə görüşünüzə "Yaşıl dünya naminə həmrəylik ili"ndə gəlmişik. Məlumdur ki, 2024-cü il cənab Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası ya da COP29 kimi tanınan mötəbər tədbir noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək. COP tədbirləri dünyanın ən aktual bəşəri problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformadır. Azərbaycanın ev sahibliyi və sədrliyində keçiriləcək COP29 və bir sıra yan tədbirlərdə də dünyada gedən proseslərə, o cümlədən iqlim, yaşıl ideyalar, yaşıl proqramlarla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaq.

Bu tədbirin Bakıda keçirilməsi BMT Təhlükəsizlik Şurasına üzvlük və Qoşulmama Hərəkatına sədrlikdən sonra Azərbaycan xarici siyasətinin ən böyük uğuru hesab edilir. Ona görə də siyasi əhəmiyyəti kifayət qədər böyükdür. Azərbaycana yüksək etimadın göstəricisi olmaqla birlikdə, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir.

İqlim dəyişmələri və qlobal istiləşmə dünyada bir sıra fəsadlar,  problemlər, o cümlədən təhlükələr yaradır. Ekoloji problemlər ölkəmizdən də yan keçmir, iqlim dəyişmələri fonunda quraqlıq, su ehtiyatlarının azalması, daşqınlar, şoranlaşma, səhralaşma, güclü küləklər kimi ekstremal təsirlərə məruz qalırıq, təhlükəli atmosfer hadisələri artır. Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı 21-ci əsrdə qlobal sağlamlıq üçün ən böyük təhlükə kimi iqlim dəyişmələrini göstərərək həyəcan təbili çalır. İqlim dəyişmələri ilə əlaqədar olaraq həm regional, həm də qlobal səviyyədə insanların təmiz suya əlçatanlığı və qida təhlükəsizliyi məhdudlaşır, aclıq, yoxsulluq kimi ağır sosial-iqtisadi məsələlər ön plana keçir, yoluxucu  və xroniki xəstəliklər artır, miqrasiya güclənir.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub və Konvensiya qarşısında götürdüyü öhdəlikləri sistemli şəkildə yerinə yetirir. Bundan əlavə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi əsas istiqamətlərdən biridir.

Həm Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamını rəhbər tutaraq, həm də mötəbər COP29 tədbirinin Bakıda keçirilməsi ilə əlaqədar olaraq Azərbaycan Universitetində tədbirlər planı icra olunur, simulyasiya layihələri həyata keçirilir, elmi seminar və mühazirələr, dəyirmi masa müzakirələri, ustad dərsləri, tələbələr arasında müxtəlif istiqamətli bilik yarışları keçirilir. Bu tədbirlərin hər biri jurnalımızın artıq vərəqləməyə başladığınız bu nömrəsində ətraflı şəkildə işıqlandırılıb.

Professor-müəllim heyətinin elmi fəaliyyəti, universitetin beynəlxalq əlaqələri, əməkdaşlarımızın yeni tədqiqatları, o cümlədən beynəlxalq və yerli elmi tədbirlərdə iştirakı, tələbə həyatına dair  məlumatlar, qısaca bütün yeniliklər bu buraxılışda da öz əksini tapıb.

Yeni sayımızı da böyük zövqlə oxuyacağınıza, növbəti gəlişimizi səbirsizliklə gözləyəcəyinizə ümid bəsləyirik...



# "SOCIAL WORK & SOCIAL RESEARCH"

(Sosial iş və sosial tədqiqat)

# BEYNƏLXALQ ELMİ KONFRANSI

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SAKARYA ÜNİVERSİTESİ

24-25 NOYABR, 2023-CÜ İL

Azərbaycan Universitetinin təşkilatçılığı, Türkiyənin Sakarya Universiteti, ABŞ-nin Sent Louis Vaşinqton Universiteti və Sosial Tədqiqatlar Mərkəzinin həmtəşkilatçılığı ilə "Social Work & Social Research" (Sosial İş və Sosial Tədqiqat) beynəlxalq elmi konfransı keçirilib. Azərbaycan Universitetinin ev sahibliyində təşkil olunan ikigünlük konfransda böhran dövründə sosial iş təcrübəsi, sosial iş təhsilinin inkişafı, bu sahədə beynəlxalq standartların yaradılması, həssas qrupların sosial müdafiəsi və bu kimi digər məsələlər diqqət mərkəzində olub. Tədbirin məqsədi bu sahədə çalışan tədqiqatçıların sosial iş və sosial siyasət sahəsindəki aktual məsələlərin müzakirəsinə qoşulması, əhalinin müxtəlif kateqoriyalarının sosial və psixoloji səviyyəsinin yüksəldilməsinə yönəlmiş müasir texnologiyaların, sosial təcrübələrin hazırlanması və tətbiqi sahəsində təcrübə mübadiləsidir.

Konfransın açılış mərasimində Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva, ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru Michael Sherraden, Sosial Tədqiqatlar Mərkəzinin sədri, millət vəkili Zahid Oruc, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyev, Qazaxıstan Senatının deputatı Akmaral Alnazarova, bu ölkənin Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Nazgul Sagindykova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudovun çıxışları dinlənilib.

Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva çıxışında qeyd edib ki, konfransın mövzusu təsadüfi seçilməyib. Sosial işin təşkili sahəsində kadr hazırlığı və elmi tədqiqatın təşviqi rəhbərlik etdiyi ali təhsil müəssisəsi üçün prioritet istiqamətlərdən biridir. Digər tərəfdən isə son zamanlar mövcud münaqişə ocaqlarına yenilərinin əlavə olunması, o cümlədən ekoloji və təbii fəlakətlər dünyada ciddi sosial problemlərin mövcudluğunu və onların elmi nöqteyi-nəzərdən araşdırılmasının zəruriliyini ortaya qoyur.

Rektor konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, yeni sosial-iqtisadi və siyasi şəraitdə əhali ilə sosial iş xüsusi əhəmiyyət kəsb edir. Getdikcə daha çox ölkə özünü əsas fəaliyyət parametrləri ilə sosial yönümlü olaraq qəbul edir. Azərbaycanda dayanıqlı və uğurlu dünya təcrübəsinə əsaslanan sosial siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Cənab prezident İlham Əliyev tərəfindən dövlət səviyyəsində sosial siyasət sahəsinə xüsusi diqqət dəfələrlə elan edilib. Ölkədə həyata keçirilən böyük sosial layihələr, ölkə büdcəsinin əhəmiyyətli hissəsinin sosial sahəyə yönəldilməsi də bunu sübut edir. Bu istiqamətdə Azərbaycanın Birinci vitse - prezidenti Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməlidir. Səadət Əliyeva qeyd edib ki, son zamanlar dünyada və eləcə də Azərbaycanda sosial iş, onun təşkili, sosial siyasət kimi mövzulara marağın artması bu məsələlərin elmi cəhətdən araşdırılmasını da aktuallaşdırıb. Bunu nəzərə alaraq Azərbaycan Universitetinin Elmi şurasının qərarı ilə "Social Issues" elmi jurnalı təsis edilib. Jurnalın indiyə qədər 2 sayı çap olunub.

Rektor əlavə edib ki, konfransın təşkili prosesində beynəlxalq elmi mühitin göstərdiyi diqqət onun mövzusunun doğru seçildiyini göstərir. Göstərilən marağı nəzərə alaraq universitetin Elmi şurasının qərarı ilə növbəti il konfransın ikincisinin təşkil olunması nəzərdə tutulur. Səadət Əliyeva əldə edilmiş nəticələrin bütün iştirakçılar üçün faydalı olacağına və təklif olunan tövsiyələrin praktiki fəaliyyətdə öz tətbiqini tapacaqlarına ümid etdiyini bildirib, konfrans iştirakçılarını növbəti görüşə dəvət edib.

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru Michael Sherraden çıxışında dünyanın daha yaxşı məkana çevrilməsi üçün birgə fəaliyyətin əhəmiyyətini vurğulayıb. Michael Sherraden diqqətə çatdırıb ki, insanlar bir-birinə hər zaman ailə, icma və cəmiyyət olaraq dəstək olmalıdır. Sosial iş sahəsindəki problemlərdən çıxış yolu onlara hədəflənmək yerinə, həllərini tapmağa çalışmaq və buna nail olmaqdır.

Sosial Tədqiqatlar Mərkəzinin sədri, millət vəkili Zahid Oruc bildirib ki, Azərbaycanda sosial iş üzrə mütəxəssislərin hazırlanmasına 2005-ci ildə təhsilin magistratura, 2008-ci ildə isə bakalavriat səviyyəsində başlanılıb. Hazırda müvafiq hüquqi bazada "Sosial xidmət haqqında" qanunda mütəxəssis hazırlığı 4 illik ali təhsillə aparılır, respublikamızın 10-dan çox ali təhsil müəssisəsində sosial işçi proqramı yerinə yetirilir. Hər il Azərbaycan Universitetinə bakalavriat səviyyəsi üzrə sosial iş ixtisasına 120, Bakı Dövlət Universitetinə 100, magistraturaya hər ali təhsil müəssisəsinə 10-dan çox tələbə qəbul edilir. Sosial iş ixtisasının tədrisini aparan bir çox universitet Sosial İş Məktəblərinin Beynəlxalq Assosiasiyasınının (SİMBA- IASSW) üzvüdür.

Millət vəkili qeyd edib ki, günümüzdə Vətən müharibəsi iştirakçıları, qazilər, şəhid ailələri, eləcə də aztəminatlı ailələrə qulluğa qədər geniş spektrdə fəaliyyət göstərən sosial işçilərə böyük ehtiyac var. Hərbi sosial işçilərin hazırlanması dövlət və özəl sektorun qarşısında duran ən mühüm vəzifədir. 30 ildə iki müharibədən keçən Azərbaycan xalqına xidmət üçün on minlərlə peşəkar mütəxəssis lazımdır: "İndi Böyük Qayıdış qarşısındayıq. 30 ildən sonra doğma torpaqlarına dönən hər bir ailə ilə

yaxından çalışmaq, onların dayanıqlı məskunluğunu təmin etmək və dağıdılmış ərazilərdə həyatı canlandırmaq ordumuzun işi qədər müqəddəsdir".
Zahid Oruc əlavə edib ki, Azərbaycan postmüharibə sindromunu – amansız savaşdan sabit həyata dönüşün çətinliyini yaşayır: "İndi ata-baba yurduna qayıdan insanları müxtəlif mənəvi-psixoloji, o cümlədən mədəni və sosial qayğı ilə əhatə etməsək, düşmən hər gün mina, məmur diqqətsiziyi, kommunikasiya boşluğunu ələ alıb, Qayıdışa qarşı təxribatlarını gücləndirəcək".
Zahi Oruc məruzəsində Heydər Əliyev Fondunun fəaliyyətinə də toxunub. Qeyd edib ki, Fond təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də ən böyük sosial işçi olduğunu sübuta yetirib.
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili Musa Quliyev çıxışında sosial iş və sosial xidmət sahəsi ilə bağlı standartların, bu iki fəaliyyət sahəsi arasındakı fərqlərin müəyyənləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Komitə sədri qeyd edib ki, Azərbaycanda sosial iş və sosial xidmətin çərçivələri müəyyənləşməyib. Elm adamları bu məsələ ilə bağlı öz təkliflərini verməli və bu istiqamətdə layihələr həyata keçirilməlidir.
Qazaxıstan Senatının deputatı Akmaral Alnazarova, bu ölkənin Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Nazgul Sagindykova Azərbaycanın sosial iş təhsili sahəsində təcrübəsinin təqdirəlayiq olduğunu bildirib, konfransın işinə uğular arzulayıblar. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov sosial iş ixtisası üzrə təhsil alan tələbələrin istehsalat təcrübəsinin təşkili haqqında məlumat verib, tədbiri sosial siyasət və sosial iş sahəsindəki aktual məsələlərin müzakirəsində mühüm addım və platforma kimi qiymətləndirib. Vüqar Behbudov konfransda aparılan müzakirələrin sosial dövlət quruculuğu strategiyasına töhfə verəcəyinə əminliyini ifadə edib.
Açılışın ardından konfransın işi plenar iclas ilə davam edib. Konfransın birinci iş gününün plenar iclası maliyyə bacarıqları mövzusuna həsr olunub və üç plenar məruzə dinlənilib. ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru Jin Huang "Maliyyə bacarıqları və aktivlərin inkişafı: sosial işçilər üçün təhsil və təcrübə", Çinin Mərkəzi Maliyyə və İqtisadiyyat Universitetinin professoru Shu Fang "Çində maliyyə bacarıqları və sosial iş" və ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin müəllimi, Sosial İnkişaf Mərkəzinin həmdirektoru Lissa Johnson "ABŞ-də maliyyə bacarıqları və sosial iş" mövzularında məruzə ediblər. Konfrans işini bölmə iclaslarında davam etdirib.
Konfransın ikinci iş gününün plenar iclası isə uşaq inkişaf hesablarına həsr olunub. İştirakçılar və qonaqlar növbəti plenar iclasda ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru, Sosial İnkişaf Mərkəzinin təsisçisi və direktoru Michael Sherradenin "Sosial siyasət və sosial iş tədrisində maliyyə bacarıqları və aktivlərin inkişafı", mərkəzin aparıcı  tədqiqatçısı Aytəkin Hüseynlinin "Neft-qazla zəngin ölkələrdə uşaq inkişaf hesabları: Azərbaycan və Qazaxıstan nümunəsi", Qazaxıstanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Nazgul Sagindykovanın "Qazaxıstanda uşaq inkişaf hesabları: Milli Uşaq Fondu", İsrailin Maks Stern Yezreel Valley Kollecinin professoru Aviad Tur-Sinainin "İsraildə  uşaq inkişaf hesabları - unikallıq, uğurlar və problemlər" və ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin Sosial İnkişaf Mərkəzinin beynəlxalq proqramlar direktoru Li Zounun "Hər kəs üçün uşaq hesabları: qlobal baxış və potensial" mövzularında məruzələrini dinləyiblər.
Konfransın bölmə iclaslarında isə Sosial iş təhsili sahəsində səriştələrin, yeni bacarıqların və qlobal standartların yaradılması; Davamlı inkişaf və sosial iş təhsili; Sosial iş təhsilində rəqəmsallaşma və İKT; İctimai səhiyyə böhranı; Müharibədən zərərçəkənlər və hərbçilərlə sosial iş; Həssas qruplar və sosial müdafiə kimi mövzular müzakirə olunub.
"Social Work & Social Research" beynəlxalq konfransı bağlanış mərasimi ilə başa çatıb. Bağlanış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, riyaziyyat elmləri doktoru Yusif Qasımov çıxış edərək konfransın elmi və praktik əhəmiyyətinə toxunub, konfransın işi haqqında statistikanı təqdim edib.
Qeyd edək ki, konfransa dünyanın 32 ölkəsindən 156 məruzə qəbul edilib. Hibrid formada təşkil olunan konfransın işçi dili ingilis dilidir. Tədbirdə konfransın mövzusu üzrə dünyanın 10-dan çox ölkəsindən ən tanınmış 40-a qədər alim "in person" iştirak edib. Zoom platforması vasitəsilə isə 40-a yaxın ölkədən iştirakçı konfransın işinə qoşulub.
Konfrans materialları Web of Science və Scopus bazalarında indekslənmək üçün təqdim edilib. İkinci "Social Work & Social Research" konfransının 23-24 may 2025-ci il tarixlərində keçirilməsi nəzərdə tutulur.

**"SOCIAL WORK & SOCIAL RESEARCH"**
(Sosial iş və sosial tədqiqat)
**BEYNƏLXALQ ELMİ KONFRANSININ AÇILIŞ MƏRASİMİ**



**Səadət Əliyeva**
Azərbaycan Universitetinin rektoru



**Michael Sherraden**
ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru



**Zahid Oruc**
Sosial Tədqiqatlar Mərkəzinin sədri millət vəkili



**Musa Quliyev**
Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, millət vəkili



**Akmaral Alnazarova**
Qazaxıstan Senatının deputatı



**Nazgul Sagindykova**
Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini



**Vüqar Behbudov**
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri

## PLENAR İCLAS



### Jin Huang

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru
"Maliyyə bacarıqları və aktivlərin inkişafı: sosial işçilər üçün təhsil və təcrübə"



### Shu Fang

Çinin Mərkəzi Maliyyə və İqtisadiyyat Universitetinin professoru
"Çində maliyyə bacarıqları və sosial iş"



### Lissa Johnson

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin müəllimi, Sosial İnkişaf Mərkəzinin həmdirektoru
"ABŞ-də maliyyə bacarıqları və sosial iş"



### Michael Sherraden

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin professoru
Sosial İnkişaf Mərkəzinin təsisçisi və direktoru
"Sosial siyasət və sosial iş tədrisində maliyyə bacarıqları və aktivlərin inkişafı"

## PLENAR İCLAS

### Aytəkin Hüseynli

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin Sosial İnkişaf Mərkəzinin aparıcı tədqiqatçısı
"Neft-qazla zəngin ölkələrdə uşaq inkişaf hesabları: Azərbaycan və Qazaxıstan nümunəsi"



### Nazgul Sagindykova

Qazaxıstan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini
"Qazaxıstanda uşaq inkişaf hesabları: Milli Uşaq Fondu"



### Aviad Tur-Sinai

İsrailin Maks Stern Yezreel Valley Kollecinin professoru
"İsraildə uşaq inkişaf hesabları - unikallıq, uğurlar və problemlər"



### Li Zou

ABŞ-nin Sent Louis Vaşinqton Universitetinin Sosial İnkişaf Mərkəzinin beynəlxalq proqramlar direktoru
"Hər kəs üçün uşaq hesabları: qlobal baxış və potensial"















## KONFRANSIN BÖLMƏ İCLASLARI

Financial Capability and Asset Building
Vulnerable and Marginalized Groups
Refugees, Asylum Seekers, Migrants and Internally Displaced
Social Policy, Health Care and Education
Substance Abuse, Addiction and Mental Health
Social Work Education and Research
Inequality, Gender and Social Inclusion





**Shahid Nadeem - Pakistan, Punjab Universiteti**

"... And it's not only that we have had a lot of networking here, that we have learnt a lot from each other. So I'm again once again I'm very grateful to the rector of the university and the all staff that putting on such an excellent show in which we have not only learnt a lot that we have enjoyed totall".



**Serdar Aykut - Türkiyə, Çankırı Karatekin Universiteti**

"... Burada dünyanın bir çok farklı bölgesinden alanımızla ilgili hocalarımızla bir araya gelme fırsatını sunduğu için Azerbaycan Üniversitesine teşekkürlerimi iletmek istiyorum. Çok verimli, çok etkili sunumlar yapılıyor, alanımda uzman olan hocalarımızın paylaşımları bizi karıyer olarak zenginleştiriyor. Çok güzel izlenimler elde etdim. Teşekkür ediyorum herşey için, kardeş ülkeyiz, bu aynı zamanda benim için özel bir kongre. Bakü'ye ilk ziyaretim. Çok güzel izlenimler elde etdim. Bu anlamda kongreyi düzenleyen bütün komite üyelerine sonsuz teşekkürlerimi iletmek isterim ...".



**Tolkyn Adilbekova - Qazaxıstan**
**Qazaxıstan Respublikasının Parlamentinin Deputatı**

"... I want to thank for the people who organize this conference, and I think it is well organized. Today, for all society, it is important to have good work of social workers ...".



**Kateryna İhnatenko - Gürcüstan, İlia Dövlət Universiteti**

"... Очень потрясающая возможность познакомиться с коллегами. Посмотреть новые тренды которые происходят социальные работы, собственно и обусловлены глобальными изменениями в стране. Очень мне нравятся пленарные выступления, по поводу как у клиентов социальных работников развивать устойчивость, стабильность и возможность справляться с трудностями жизни, в том числе через финансовое обучение, и что как управлять своей жизнью ...".



**Jędrzej Siciński - Polşa, Gdansk Universiteti**

"... Everything is well organized. I can admit that I have students from Azerbaijan in my university. They are always well- prepared, super organized. So, they did just prepare bucket list what to see, where to go. So, I think super familiar here. I have and I had wonderful time here and I open for more. So, I'm looking forward to have more cooperation with Azerbaijan University, with Azerbaijan. I'm really sad that tomorrow will be my last day. I think I'll make maybe for some kind of vocation to just maybe go outside of Baku look around. Thank you, that was really very nice experience, I met a lot of people, from all around of world. Thank you very much ...".



**Ozan Selçuk - Türkiyə, Recep Tayyip Erdoğan Universiteti**

"... Konferansta çok güzel konular ele alındı, bizler de deprem zamanı yaptığımız araştırmayı burda sunmaya geldik ve bu vesileyle bütün araştırmacılarla birlikte vakit geçirme şansı bulduk. Çok güzel bir ortam, çok güzel ağırlandık ve inanılmaz bir organizasyon oldu, her şey profesyonel oldu. Katılımcıların çok farklı ülkelerden gelmesi, konferansın sadece lokalde kalmaması bizim açımızdan bu konferans için önemli bir ayrıcalık oldu. Bu açıdan ben Azerbaycan Üniversitesi yetkililerine başda rektör Saadat Aliyeva hanım olmak üzere bütün herkese çok teşekkür ediyorum ...".















## BAĞLANIŞ MƏRASİMİ

Konfransın bağlanış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, riyaziyyat elmləri doktoru Yusif Qasımov çıxış edərək konfransın mühüm elmi və praktiki əhəmiyyətə malik olduğunu vurğulayıb, təşkilatçılara və iştirakçılara təşəkkür edib.



II International Conference on
# SOCIAL WORK & SOCIAL RESEARCH
23-24 May, 2025

AZƏRBAYCAN 1991 UNİVERSİTETİ

FIRAT ÜNİVERSİTESİ 1975

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

RECEP TAYYİP ERDOĞAN ÜNİVERSİTESİ

# SOSİAL İŞ VƏ SOSİAL TƏDQİQAT
II beynəlxalq elmi konfransı
23-24 may 2025-ci il

## ADU-nun yubiley kitabına rektor Səadət Əliyeva haqqında məlumat daxil edilib



Azərbaycan Dillər Universitetinin yaranmasının 75 illiyinə həsr olunan yubiley kitabında bu ali məktəbin məzunu və 2017-ci ildən Azərbaycan Universitetinin rektoru vəzifəsini icra edən Səadət Əliyeva haqqında da məlumat daxil edilib. Məlumat nəşrin "ADU-nun məzunları: Yüksək dövlət mənsubları, ictimai-siyasi xadimlər, Milli Məclisin üzvləri, akademiklər" bölməsində yerləşdirilib.
Yazıda Azərbaycan Universitetinin rektoru, filologiya üzrə fəlsəfə doktoru Səadət Əliyeva haqqında yığcam bioqrafik məlumat verilib, elmi-təşkilati fəaliyyətinə nəzər salınıb, həmçinin rektorluq fəaliyyəti dövründə Azərbaycan Universitetinin əldə etdiyi uğurlar və təltifləri diqqətə çatdırılıb. Qeyd olunub ki, Səadət Əliyeva məzunu olduğu Azərbaycan Dillər Universiteti ilə münasibətlərini qoruyub saxlayır, professor-müəllim heyəti ilə elmi yaradıcılıq əlaqələri qurur.
Qeyd edək ki, daha çox Azərbaycan Dillər Universitetinin tanınmış məzunları haqqında oxuculara məlumat vermək məqsədilə hazırlanan kitaba bu təhsil ocağının yetirmələri olmasalar da, qazandığı uğurlarda böyük əməyi olan rektorlar və fəxri doktorlar haqqında da məlumat daxil edilib.
Daha böyük uğurlar arzusu ilə Azərbaycan Dillər Universitetinin yaranmasının 75 illik yubileyi münasibətilə bu ali təhsil ocağının kollektivini bir daha təbrik edirik!




## Rektor Səadət Əliyeva "ADPU-nun 100 illiyi" yubiley medalı ilə təltif olunub



Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva elm və təhsil naziri Emin Əmrullayevin 26 oktyabr 2023-cü il tarixli əmrinə əsasən "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921 –2021)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub.
Qeyd edək ki, yubiley medalı ilə elm, təhsil və pedaqoji kadr hazırlığı sahələrində yüksək nailiyyətlər əldə etmiş, bu sahələrin inkişafına xüsusi töhfə vermiş, sosial-mədəni inkişafda fəal iştirak etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşları, o cümlədən keçmiş əməkdaşları, məzunları, həmçinin elm, təhsil və beynəlxalq əməkdaşlıq sahəsində dövlət siyasətinin həyata keçirilməsində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) tərəqqisində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

## Rektor Səadət Əliyeva Fəxri Fərmanla təltif olunub




Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva Yeni Azərbaycan Partiyası Nəsimi Rayon Təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə Fəxri Fərman ilə təltif edilib.
YAP Nəsimi Rayon Təşkilatına təşəkkür edir, Bakı şəhərinin ictimai-siyasi həyatında xüsusi çəkiyə malik olan rayon təşkilatında qeydiyyatda olan bütün üzvlərə, o cümlədən ümummilli lider Heydər Əliyevin ideyaları ətrafında sıx birləşən bütün partiya üzvlərinə cənab Prezident İlham Əliyevin siyasi kursununun bundan sonra da uğurla həyata keçirilməsi istiqamətində yeni uğurlar arzu edirik!

## Azərbaycan Universiteti və Fırat Universitetinin rektorları arasında görüş olub



Azərbaycan Universitetinin rektoru Səadət Əliyeva ilə Türkiyənin Fırat Universitetinin rektoru Fahrettin Göktaş arasında onlayn görüş keçirilib. Görüşdə Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov və rektorun müşaviri Nüşabə Quliyeva da iştirak edib.

Görüşdə ali təhsil müəssisələri arasında əməkdaşlığa dair anlaşma memorandumunun imzalanması barədə razılıq əldə olunub, həmçinin qarşılıqlı maraq doğuran məsələlər haqqında fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycan Universitetinin evsahibliyində keçiriləcək "Social Work & Social Research" (Sosial iş və sosial tədqiqat) beynəlxalq konfransının ikincisinin Fırat Universitetinin həmtəşkilatçılığı ilə birgə keçirilməsi də razılaşdırılıb.

## Azərbaycan Universitetində yeni mərkəz fəaliyyətə başlayıb




Sosial-Psixoloji Tədqiqat və Məsləhət Mərkəzi heyət üzvlərinin və tələbələrin sosial-psixoloji rifahının artırılması məqsədilə yaradılıb. Tələbələrin və təhsil işçilərinin sosial-psixoloji problemlərinin həllinə yönəlmiş geniş spektrli xidmətlər təqdim edən mərkəz, təhsilalanların və təhsilverənlərin sosial-psixoloji dəstək almasını təmin etməklə onların akademik və şəxsi inkişafını dəstəkləyəcək. Mərkəzin əsas məqsədi, universitetdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına və qorunmasına töhfə vermək, tələbələrin təlim nailiyyətlərini artırmaq, onların maraq və meyillərini müəyyənləşdirmək, həmçinin sosial-psixoloji tədqiqatlar aparmaqdır.

Mərkəzə Sosial işin təşkili kafedrasının müəllimi, sosial işçi Aygün Muradlı rəhbərlik edəcək, kafedranın müəllimləri Lalə Babayeva, Aynur Bünyatova və Mariya Davidova psixoloq kimi fəaliyyət göstərəcəklər.

## Türkiyəli dosent payız semestrində Azərbaycan Universitetində dərs deyib



Türkiyənin Necmeddin Erbakan Universitetinin dosenti Süleyman Barbaros Yalçın 2023/2024-cü tədris ilinin payız semestrində Azərbaycan Universitetinin professor-müəllim heyətinə qoşulub və Sosial işin təşkili kafedrasının müəllimi kimi pedaqoji fəaliyyət göstərib. Qonaq dosent semestr müddətində bakalavriat pilləsində "Ailə və gender" psixologiyası, magistratura pilləsində isə "Gənclərlə iş metodikası" fənlərini tədris edib. Universitet rəhbərliyi tərəfindən Azərbaycana dəvət olunan Süleyman Barbaros Yalçının rəhbərliyində semestr ərzində elmi seminarlar da təşkil olunub. Dosent Yalçın müəllimlər üçün "Öyrənmə və öyrətmə strategiyaları", tələbələr üçün isə "Şüur və özünüdərk" mövzusunda seminar keçib.

## Bir qrup heyət üzvü, məzun və tələbəmiz beynəlxalq PTE sertifikatını əldə edib



2 əməkdaşımız, 1 məzunumuz və 13 tələbəmiz PTE (Pearson Test of English) imtahanlarında müvəffəqiyyət əldə edərək B1 (level 2) və B2 (level 3) səviyyələrində beynəlxalq dil sertifikatını əldə edib. Əldə olunan göstəricilər beynəlxalq imtahanların ekvivalentliyi üzrə B1= IELTS 4-5 və ya TOEFL 57-86-ya, B2= IELTS 5-6.5 və ya TOEFL 87-109-a bərabərdir. İmtahan iştirakçılarından 7 nəfər - Natəvan Pirili (Marketinq, II kurs), Xədicə Abdullayeva (Marketinq, II kurs), Gülmirə Allahverdiyeva (Marketinq, II kurs), Lamiyə Məmmədzadə (Marketinq, II kurs), Fatimə Xəlilova (Biznesin idarə edilməsi, II kurs), Könül Məmmədova və Şəbnəm Ağaməmmədova daha üstün sertifikatla (Pass with merit) təltif olunub.

## Azərbaycan Universiteti AKTA-nın hesabat tədbirində təmsil olunub



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev və Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası (AKTA) tərəfindən icra edilən "İnformasiya təhlükəsizliyi ixtisası üzrə elmi-metodiki tədris vəsaitlərinin hazırlanması" layihəsinin hesabat tədbirində iştirak ediblər. Tədbirdə informasiya təhlükəsizliyi ixtisasını tədris edən aparıcı ali təhsil müəssisələrinin professor-müəllim heyəti, AKTA-nın üzvü olan şirkətlərin nümayəndələri və müstəqil ekspertlər iştirak edib.

Tədbirdə layihə çərçivəsində hazırlanmış tədris vəsaitləri iştirakçılara təqdim edilib. Qeyd edilib ki, ali təhsil müəssisələrinin "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə həm tədris-metodiki vəsaitlər, həm də pedaqoji heyət baxımından tələbləri ictimai ehtiyaca çevrilib. İcra edilən layihə məhz bu ictimai ehtiyacdan irəli gəlib.

## Azərbaycan Universiteti turizm üzrə ixtisaslamış təhsil müəssisələrinin I görüşündə təmsil olunub




Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv dövlətlərin turizm üzrə ixtisaslaşmış ali təhsil müəssisələrinin Bakıda keçirilən I görüşündə Azərbaycan Universitetini Maliyyə və mühasibat kafedrasının müdiri Nəriman Böyükkişi, kafedranın müəllimləri Qəhrəman Yusupov və Ziynət Mehdiyeva təmsil edib.

İkigünlük tədbir  Dövlət Turizm Agentliyi və QDİƏT-in birgə təşəbbüsü ilə turizm təhsili üzrə əməkdaşlıq, perspektiv və problemlərin müzakirəsi məqsədilə keçirilib.

## Azərbaycan Universiteti Milli Kibertəhlükəsizlik Forumunda təmsil olunub




Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov və Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə keçirilən III Milli Kibertəhlükəsizlik Forumunda iştirak edib. Forum çərçivəsində ölkənin kibertəhlükəsizlik ekosistemi, kritik informasiya infrastrukturunun təhlükəsizliyi, kibertəhlükəsizlik sahəsində təhsil və insan resursları, eləcə də kiberdiasporanın formalaşdırılması mövzuları ətrafında yerli və xarici ekspertlərin iştirakı ilə müzakirələr aparılb. Forumda 15 ölkədən 300-dən çox nümayəndə iştirak edib, 5 panel müzakirə təşkil olunub, 30-dan çox çıxış dinlənilib, 15 şirkət öz stendi ilə təmsil olunub.

## Azərbaycan Universiteti EATDA-nın şəbəkələşmə görüşündə təmsil olunub



Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin (EATDA) təşkilatçılığı ilə ali təhsil müəssisələrinin beynəlxalq reytinqlər üzrə məsul şəxsləri arasında növbəti şəbəkələşmə görüşü keçirilib. Azərbaycan Universitetini görüşdə Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev təmsil edib. Tədbirdə EATDA-nın direktoru Ülkər Səttarova və agentliyin Beynəlxalq layihələrin idarə olunması sektorunun müdiri Zülfiyyə Şəfiyevanın çıxışları dinlənilib, universitetlərin qabaqcıl beynəlxalq reytinqlərdə iştirakı ilə bağlı müzakirələr aparılıb.

Ali təhsil müəssisələrinin reytinq komandaları arasında əməkdaşlığın gücləndirilməsi məqsədilə təşkil olunan görüşdə 30-a yaxın universitetin nümayəndəsi iştirak edib.

## İKT fakültəsinin dekanı Asif Paşayev ICPC-nin xüsusi mükafatı ilə təltif olunub



İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin təşkilatçılığı ilə keçirilən "Tələbələrin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin (ICPC) 20 illiyinə həsr olunmuş simpoziumda 5 ildən çox aktiv fəaliyyət göstərən komanda məşqçiləri, o cümlədən Azərbaycan Universitetinin İKT fakültəsinin dekanı Asif Paşayevə xüsusi mükafat təqdim olunub.
Simpozium çərçivəsində ICPC hərəkatı, proqramlaşdırma olimpiadalarının İT sənayesinə təsiri və ölkənin rəqəmsallaşmasında rolu mövzularında panel sessiyaları təşkil olunub. Tələbələrin, ümumilikdə isə gənclərin proqramlaşdırma və İT sahəsinə marağının artırılması istiqamətində müzakirələr aparılıb.

## Siyasi və ictimai elmlər kafedrasının əməkdaşları ASAN xidmət mərkəzinin könüllülərinə təlim keçib



Siyasi və ictimai elmlər kafedrasının müdiri Elvin Talışınski və kafedranın müəllimi Rafiq İbrahimov 1 saylı ASAN xidmət mərkəzinin könüllüləri üçün "Tarixdə Heydər Əliyev - dahi şəxsiyyətin siyasi görüşləri" mövzusunda təlim keçiblər.
Elvin Talışınskinin məruzəsi ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ kimi böyük bir imperiyanın dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması prosesi, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsində ümummilli liderin rolu mövzularını əhatə edib. Rafiq İbrahimov isə iştirakçılara ulu öndərin xarici siyasət strategiyası və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında gördüyü işlər haqqında məlumat verib.

## İKT fakültəsinin dekanı Asif Paşayev AKTA-nın tədbirində iştirak edib



Asif Paşayev Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) təşkilatçılığı ilə keçirilən "Kibertəhlükəsizlik təhsili və əməkdaşlıq" adlı dəyirmi masa müzakirəsində "İnformasiya təhlükəsizliyi ixtisasında tələbəyönümlü tədrisin təşkili: kiber klublar" mövzusunda məruzə ilə çıxış edib.
Məruzədə tələbəyönümlü təhsil sisteminin ali təhsil müəssisələri və tələbələr üçün faydaları haqqında məlumat verilib. Dekan məruzədə tələbəyönümlü ali təhsil mühitinin təmin edilməsi istiqamətində praktiki təkliflərlə çıxış edib.
16 ali təhsil müəssisəsinin təmsil olunduğu tədbirin məqsədi ali təhsil müəssisələrində yaradılmış kiber klubların fəaliyyəti, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində təhsil kimi məsələlərin müzakirəsinin keçirilməsidir.

## 281 nömrəli məktəbin şagirdləri Azərbaycan Universiteti ilə tanış olublar



Bakı şəhəri Suraxanı rayonu Vaqif Mirzəliyev adına 281 nömrəli tam orta məktəbin şagirdləri Azərbaycan Universitetində olublar. "Sabahın tələbəsi" layihəsi çərçivəsində təşkil edilən görüşdə məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini və metodiki şura rəhbəri Aqşin Kazımov da iştirak edib.
Universitetin tədris binası və infrastrukturu ilə tanış olan məktəblilərə Azərbaycan Universitetinin fəaliyyəti, tədris olunan ixtisaslar, universitetin beynəlxalq əlaqələri və qoşulduğu mübadilə proqramları, təqaüdlər, tələbələr üçün yaradılan imkanlar, universitetin uğurları haqqında məlumat verilib, Abituriyent Məsləhət Mərkəzinin rəhbəri Asif Paşayev ixtisas seçimi mövzusunda geniş təqdimatla çıxış edib.

## Keyfiyyət təminatı şöbəsi akademik heyət üçün təlim təşkil edib



2023/2024-cü tədris ilinin yaz semestrinin hazırlıqları çərçivəsində Keyfiyyət təminatı şöbəsi tərəfindən akademik heyət üçün "Sillabusların tərtibi qaydaları" mövzusunda təlimlər təşkil olunub.
Daxili keyfiyyət təminatının səmərəli təşkilinə dəstək məqsədilə keçirilən təlimlərdə sillabusun (tədris proqramı) strukturu, tərtibi, tədris prosesində sillabusdan istifadə qaydaları haqqında professor-müəllim heyətinə məlumat verilib.
Təlimlərdə həmçinin sillabusların təhlilinin nəticələri diqqətə çatdırılıb, yenilənməsi və təkmilləşdirilməsinə dair tövsiyələr verilib.

## Pedaqoji heyət üçün "Müasir tədris metodları" mövzusunda təlim keçirilib



Təlimi Elm Tədris Akademiyasının təsisçisi və rəhbəri Samir Salayev aparıb. Samir Salayev təlimin birinci hissəsində kurikulum, strategiya və məqsəd, tədris metodları, uğurlu təlimin qurulmasının yolları, iş formaları kimi mövzuları əhatə edən təqdimatla çıxış edib. Təlimin ikinci hissəsində isə fəal dərsin təşkil olunmasının beynəlxalq səviyyədə metodikasından danışılıb, fəal təlimin mexanizmləri, fasilitasiya qaydaları, effektiv təlim modelinin seçimi üçün "Edqar Deyl piramidası"nın rolu, fəal dərsin mərhələləri kimi mövzular haqqında məlumat verilib.

## İnternetin karbon emissiyasının azaldılmasına dair təlim keçirilib



"Greenie Web" startapı tərəfindən universitetin professor-müəllim, texniki və inzibati heyəti üçün keçirilən və "Rəqəmsal davamlılıq: internetin karbon emissiyasını necə azaltmaq olar" (Digital Sustainability 101 - how to reduce carbon emissions of the internet) mövzusuna həsr olunan təlim hibrid formada təşkil olunub.
"Greenie Web" startapının təsisçisi Ian Chewin keçdiyi ödənişsiz təlimdə $CO_2$ tullantılarının və karbon emissiyalarının azaldılmasının əhəmiyyəti, karbon ayaq izi anlayışı və ölçülməsi, karbon ayaq izini azaltmağa imkan verən fəaliyyətlər haqqında məlumat verilib, iştirakçıların sualları cavablandırılıb.
Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən təlimdə iştirak edən bütün pedaqoji, inzibati və texniki heyət üzvləri sertifikatla təmin olunublar.

## "İqtisadi Resursların Öyrənilməsi" İctimai Birliyi heyət üçün mühazirə təşkil edib



İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyi tərəfindən professor-müəllim, inzibati - texniki heyət üzvləri və tələbələr üçün 2 mühazirə təşkil edilib. Mühazirələri birliyin İdarə Heyətinin sədri Ruslan Atakişiyev oxuyub.
Birinci mühazirə "Azərbaycanda İslam bankçılığının tətbiqi imkanları" mövzusunda olub. Mühazirə İslam maliyyəsinin və bankçılığının mahiyyəti və şərtləri, İslam və ənənəvi bankçılığın ümumi və fərqli cəhətləri, Azərbaycanda İslam bankçılığının tətbiqi imkanları kimi mövzuları əhatə edib.
İkinci mühazirə isə "Ailə büdcəsinin düzgün planlaşdırılması və idarə edilməsi" mövzusunda olub. Mühazirədə iştirakçılara ehtiyacların təyini, ailə büdcəsinin hazırlanması, xərclərin siyahısı, qənaət yolu, borclara nəzarət kimi mövzularda məlumat verilib.

## 27 sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib



Tədbirdə Siyasi və ictimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışinski, kafedranın müəllimi, tarix üzrə fəlsəfə doktoru Abbas Qurbanov və Tələbə Gənclər Təşkilatının sədri Rəsul Dadaşovun çıxışları dinlənilib.
Çıxışlarda qeyd olunub ki, 3 il bundan əvvəl Ali Baş Komandan İlham Əliyevin Ermənistanın növbəti təxribatına cavab olaraq bütün cəbhəboyu əks-hücum əməliyyatına başlanmasına dair əmri ilə Azərbaycan xalqı Vətən müharibəsinə başlayıb. Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə canlarından keçmiş minlərlə şəhidimiz var. Azərbaycan xalqı və Azərbaycan dövləti qaziləri ilə qürur duyur, şəhidlərin xatirəsini daim uca tutur və ehtiramla yad edir.

## 8 Noyabr-Zəfər Gününə həsr olunmuş tədbir keçirilib



8 Noyabr- Zəfər Gününə həsr olunmuş tədbirdə universitetin Vətən müharibəsi iştirakçısı olan tələbə və məzunları – Cavad İbrahimov (Tərcümə, 2020-ci il məzunu), Rəvan İsmayılov (Mühasibat uçotu, IV kurs), Nəcməddin Nəzərov (Mühasibat uçotu, IV kurs), Elvin Mədinov (Kompüter mühəndisliyi, III kurs) və Hüseyn Hacıyev (Kompüter mühəndisliyi, II kurs) də iştirak edib.
Tədbirdə Siyasi və ictimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışinski, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri, Qarabağ müharibəsi veteranı, yazıçı, publisist Səriyyə Cəfərova, Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə təhsil alan magistratura II kurs tələbəsi Səkinə Nadirovanın çıxışları dinlənilib, "Ordum varsa, yurdum var" sənədli filmi nümayiş olunub.

## Müstəqilliyinin Bərpası Gününə həsr olunmuş tədbir keçirilib



Xarici dillər kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan xalqının milli azadlıq və müstəqillik uğrunda mübarizə əzmi, dövlət müstəqilliyinin bərpasını şərtləndirən amillər haqqında məlumat verilib, ümummilli lider Heydər Əliyevin müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi sahəsindəki xidmətləri diqqətə çatdırılıb. Qeyd olunub ki, 44 günlük Vətən müharibəsində qazanılan zəfər Azərbaycanın müstəqilliyinin əbədi və dönməz olduğunu bir daha sübut edib.
Çıxışların ardından tələbələr Fatimə Əhmədli, Natella Saadova, Aytac Məmmədova, Cəmilə Abbasova, Hülya Əhmədovanın ifasında ədəbi-bədii kompozisiya təqdim olunub.

## Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş tədbir keçirilib



Tədbirdə əməkdar elm xadimi, ədəbiyyatşünas, folklorşünas, yazıçı, filologiya üzrə elmlər doktoru, professor Qəzənfər Paşayev "Ümumilli lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimizin qorunması" mövzusunda məruzə ilə çıxış edib.
Qəzənfər Paşayev çıxışında qeyd edib ki, ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının tarixi, ədəbiyyatı, mədəniyyəti və incəsənəti ilə sıx bağlı olub, yaratdığı bədii irsi yüksək qiymətləndirib. Milli-mənəvi dəyərlərin, mədəniyyət və incəsənətin qorunması və inkişafında böyük xidmətləri olan ümummilli lider ədəbiyyat və incəsənət xadimlərinə hər zaman xüsusi diqqət və qayğı göstərib, həmçinin bu sahələrin mükəmməl bilicisi və təbliğatçısı olub.

## 20 Yanvar faciəsinin 34-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



Azərbaycan Universitetinin kollektivi 20 Yanvar faciəsinin 34-cü ildönümü ilə əlaqədar olaraq Şəhidlər Xiyabanını ziyarət edib. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, şəhid məzarlarının üzərinə qərənfillər qoyublar.
Universitetin tədris binasında keçirilən anım tədbirində dövrün ictimai-siyasi vəziyyəti, 20 Yanvar faciəsinin səbəb və nəticələri, tarixdəki yeri və rolu haqqında məlumat verilib. Qeyd olunub ki, 20 Yanvar faciəsi - Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının keçmiş imperiya rəhbərliyi tərəfindən dəstəklənməsinə və Azərbaycanın o zamankı rəhbərliyinin xəyanətkar siyasətinə etiraz əlaməti olaraq ayağa qalxmış dinc əhaliyə qarşı törədilən terror aktı tarixin yaddaşında əbədiləşib. Xalqımız indi tarixinin ən şərəfli dövrünü, ən sevincli günlərini yaşayır və şəhidlərini hər zaman böyük minnətdarlıqla yad edir.

## Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib



Tədbirdə qeyd olunub ki, Azərbaycan dövləti və xalqı müstəqilliyinin ilk addımlarından başlayaraq bir sıra ciddi sınaqlarla üzləşib. Bu sınaqlardan ən ağırı və ən dəhşətlisi 32 il əvvəl fevralın 25-dən 26-na keçən gecə Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Ermənistan Silahlı Qüvvələri tərəfindən xüsusi qəddarlıqla həyata keçirilən Xocalı soyqırımıdır. Uzun illər informasiya blokadasında qalan Azərbaycan öz həqiqətlərinin dünyaya ardıcıl və sistemli şəkildə çatdırılmasına 2000-ci ildə başlaya bilib.
Diqqətə çatdırılıb ki, Xocalı soyqırımının günahsız qurbanlarının qisası döyüş meydanında alınıb. Artıq Xocalıda üçrəngli Azərbaycan bayrağı dalğalanır.

## Xocalı soyqırımının şahidi Səlim Musayev tələbələr ilə görüşüb



Xocalı soyqırımının 32-ci ildönümünə həsr olunmuş anım tədbirində faciənin canlı şahidi, Xocalı sakini Səlim Musayev tələbələr qarşısında çıxış edib. Səlim Musayev 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda dinc əhaliyə qarşı törədilən erməni vəhşiliyi haqqında faktlarla məlumat verib.
Tədbirdə qeyd olunub ki, Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Cənab Prezident İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb. Xocalıda Azərbaycan Bayrağının dalğalanması soyqırımı qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

## Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş anım tədbiri keçirilib



Azərbaycan Universiteti və Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən birgə təşkil olunan anım tədbirində erməni millətçilərinin XX əsr boyunca öz havadarlarının himayəsi altında azərbaycanlılara qarşı deportasiya, etnik təmizlik və soyqırımı siyasəti həyata keçirdiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan xalqı başına gətirilən faciələrdən güclənərək çıxıb.
Tədbirdə 1918-ci ilin mart-aprel aylarında erməni-bolşevik dəstələri tərəfindən törədilən qanlı hadisələr, Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən Fövqəladə Təhqiqat Komissiyasının gördüyü işlər haqqında məlumat verilib. Ümummilli lider Heydər Əliyevin 1998-ci il tarixli fərmanından sonra soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında məqsədyönlü iş aparıldığı qeyd olunub.

# Azərbaycan Universiteti və Quba Soyqırımı Memorial Kompleksi birgə elmi seminar keçirib

Azərbaycan Universitetinin bir qrup müəllim və tələbə heyəti Quba şəhərində yerləşən "Soyqırımı Memorial Kompleksi"ni ziyarət edib. "31 Mart – Dünya Azərbaycanlılarının Soyqırımı Günü" ilə əlaqədar olaraq təşkil olunan səfər çərçivəsində kompleksin informasiya mərkəzində elmi seminar da keçirilib.



Əvvəlcə kompleksin ərazisində, soyqırımı qurbanlarının dəfn olunduğu yerdə ucaldılan abidənin önünə gül səbəti qoyulub, xatirələri yad edilib. Ardınca müəllim və tələbə heyəti simvolik məzarlıq və soyqırımı muzeyində olub.
Elmi seminarda memorial kompleksin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova, Azərbaycan Universitetinin Siyasi və ictimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışınski, kompleksin əməkdaşları və kafedra müəllimlərinin məruzə və çıxışları dinlənilib.



Məruzə və çıxışlarda Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Göyçay, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan, İrəvan və digər ərazilərdə erməni-bolşevik silahlı dəstələrinin yerli dinc əhaliyə qarşı törətdiyi kütləvi qətl, vəhşilik və cinayətlər, o cümlədən yerli xalqın müqaviməti müxtəlif aspektlərdə ələ alınıb, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu cinayətlərin tədqiqi üçün qurulan Fövqəladə Təhqiqat Komissiyasının gördüyü işlər, topladığı materiallar və sənədlər haqqında məlumat verilib.











## Qərbi Azərbaycana qayıdışla bağlı təqdimat keçirilib




"İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və Qərbi Azərbaycan İcmasının tərəfdaşlığı ilə "Bütöv-Qərbi Azərbaycana qayıdış prosesində gənclərin rolunun artırılması" proqramı çərçivəsində təşkil olunan təqdimatda diqqətə çatdırılıb ki, 1988-ci ildən başlanan sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri ermənilər tərəfindən qarət edilərək mənimsənilib. Bildirilib ki, proqramın fəaliyyət planına əsasən Qərbi Azərbaycanın tarixini, mədəniyyətini, coğrafiyasını gənclərə aşılamaq, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə düzgün və ətraflı şəkildə çatdırmaq məqsədilə təşəbbüs qruplarının yaradılması, Qərbi Azərbaycanla bağlı multimedia, elektron resursların bolluğuna nail olunması nəzərdə tutulur.

## Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi qeyd olunub



Siyasi və ictimai elmlər kafedrasının təşkilatçılığı ilə keçirilən, görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr edilmiş "Məhəmməd Əmin Rəsulzadənin şəxsiyyəti və fəlsəfi-siyasi görüşləri" mövzusunda elmi seminarda Məhəmməd Əmin Rəsulzadə haqqında qısa bioqrafik məlumat verilib, həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib. Qeyd olunub ki, Məhəmməd Əmin Rəsulzadənin irsi Azərbaycanın ictimai fikir tarixində böyük rol oynayır. Bu irsin dərindən öyrənilməsi və təbliği davam etdirilməlidir. Elmi seminar Prezident İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamını rəhbər tutaraq təşkil olunub.

## "Görkəmli Qərbi Azərbaycanlılar" layihəsinin təqdimat mərasimi keçirilib



"İpək yolu – qloballaşmaya dəstək" İctimai Birliyi tərəfindən təşkil olunan tədbirdə "Görkəmli Qərbi Azərbaycanlılar: elm, təhsil və mədəniyyət məbədi - İrəvan" adlı layihə çərçivəsində hazırlanmış eyni adlı video-çarx nümayiş etdirilib. www.westaz.az vebsaytı və Qərbi Azərbaycan həqiqətlərindən bəhs edən kitabın təqdimatı olub.
İctimai Birliyin sədri, dosent Ədalət Əsədov layihə çərçivəsində görülən işlər haqqında məlumat verib. Sədr qeyd edib ki, layihənin məqsədi Qərbi Azərbaycanın tarixi həqiqətlərini ictimaiyyətə çatdırmaq və görkəmli şəxsiyyətlərini tanıtmaqdır.

## Yeni qəbul olan doktorantlarla ənənəvi tanışlıq görüşü keçirilib



Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva və mərkəzin əməkdaşlarının iştirakı ilə keçirilən görüşdə doktorant və dissertantlara dissertasiya işinin yerinə yetirilməsi ilə bağlı məsləhətlər verilib, onları maraqlandıran suallar cavablandırılıb. Mərkəzin direktoru Nüşabə Quliyeva doktorant və dissertantları təbrik edib, doktorantura təhsilində və qəbul prosesində son illərdə baş verən yenilikləri diqqətə çatdırıb. Onlara vəzifə, hüquq və öhdəlikləri, dissertasiya mövzularının seçilməsi, dissertasiyaların əsas elmi nəticələrinin nəşri, onlara qoyulan tələblər, təqdim olunması, müzakirəsi və müdafiəsi ilə bağlı məlumat verib.

## BP şirkəti elmi kitabxanaya 250 nüsxə kitab hədiyyə edib




BP şirkəti Azərbaycan Universitetinin elmi kitabxanasına beynəlxalq universitetlərdə geniş istifadə edilən beş dərsliyin Azərbaycan dilinə tərcümə olunmuş nəşrlərini hədiyyə edib. Kitabxanaya ümumilikdə 5 adda 250 nüsxə dərslik daxil olub. Kitablar yerli universitet və ekspertlərdən əldə edilmiş tövsiyələr əsasında seçilib.
Dərsliklər bir çox aparıcı beynəlxalq universitetin icbari tədris vəsaitlərinin siyahısına salınıb. Ali təhsil müəssisələrinin qabaqcıl beynəlxalq təhsil resurslarına, bilik və təcrübələrə çıxış imkanının təmin edilməsinə yönəlmiş sosial layihə çərçivəsində hazırlanan və BP-nin maliyyələşdirdiyi nəşrlər dünyada geniş istifadə olunur.

## "For Azerbaijan" təşkilatı elmi kitabxanaya kitab hədiyyə edib



"For Azerbaijan" Xeyriyyə Təşkilatı tərəfindən nəşr olunmuş və Azərbaycan Respublikası Təhsil İnstitutu tərəfindən psixologiya fənninin tədris edildiyi ali məktəblər üçün metodik vəsait kimi tövsiyə edilmiş "Post Travmatik Stress Pozuntusu Hallarında Yazılı Ekspozisiya" kitabı Azərbaycan Universitetinin elmi kitabxanasına təqdim edilib. Təşkilatın layihələr üzrə koordinatoru Fəridə Alışova, proqramlar üzrə direktoru Elnur Kələntərov, Azərbaycan Universitetinin Humanitar fənlər fakültəsinin dekanı Səfər Məmmədov və Elmi kitabxananın müdiri Nailə Nağıyevanın iştirak etdiyi görüşdə kitab aidiyyatı üzrə təhvil alınıb.
Kitab "Azərbaycanda Psixoloji Reabilitasiya İmkanlarının Artırılması" (APRİA) layihəsi çərçivəsində nəşr edilib. Kitabın müəllifləri Denise M.Sloan və Brian P.Marxdır.

## Dünya Sosial İş Günü bu il "Transformativ dəyişiklik üçün ortaq gələcək" şüarı altında keçirilib



Ənənəvi olaraq hər il təşkil olunan peşə həmrəylik tədbirini  Sosial işin təşkili  kafedrasının müdiri Nigar Şahhüseynbəyova açaraq günün tarixi və mahiyyəti haqqında məlumat verib. Kafedra müdiri qeyd edib ki, hər il qlobal gündəliyin mövzularından birinə həsr olunan Dünya Sosial İş Günü bu il "Buen Vivir: transformativ dəyişiklik üçün ortaq gələcək" şüarı altında qeyd olunur.
Ardınca Sosial iş ixtisası üzrə III kurs tələbəsi, kafedranın nəzdində fəaliyyət göstərən "Empatiya" klubunun sədri Samirə Baxşəliyeva və Sosial iş ixtisası üzrə 2023-cü il məzunu Məhəmməd Ələkbərovun mövzuya dair çıxışları dinlənilib.
Qeyd edək ki, Dünya Sosial İş Gününün məqsədi sosial işçilərin cəmiyyətin inkişafına verdiyi töhfələri vurğulamaq, xüsusi qayğıya ehtiyacı olan insanların problemlərinin vacibliyini yada salmaqdır.

## 2 Aprel - Dünya Autizm Maarifləndirmə Günü qeyd olunub



Tədbirdə iştirakçılara autizm spektr pozuntusu və əlamətləri, autizm diaqnozunun qoyulması, müalicəsi, inklüziv təhsil sisteminin qurulması haqqında məlumat verilib.
Tədbirdə qeyd olunub ki, dünyada və həmçinin Azərbaycanda autizmli uşaqların sayı sürətlə artır. Problemin tez aşkarlanmasında maarifləndirmə tədbirləri böyük əhəmiyyət kəsb edir və bu sahədə dövlət proqramının hazırlanmasına ehtiyac var.
Tədbir Dövlət və ictimai münasibətlər ixtisasının tələbələri Fərid Abbasov, Pəri Hüseynzadə, Bəsti Ağalıyeva və Politologiya ixtisasının tələbəsi Şövkət Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə keçirilib.

## Xarici dillər kafedrasında dərslərin məzmununun yenilənməsi ilə bağlı təlimlər keçirilib



Dərslərin məzmununun yenilənməsi və təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlərdə dərslərin daha maraqlı, səmərəli və keyfiyyətli olmasını təmin edən faydalı və əyləncəli metod və üsullar nümayiş etdirilib. Yaz semestri ərzində davam edən və kafedranın müəllimlərinin apardığı təlimlərdə nümayiş etdirilən metod və üsullar fərqli dil səviyyələri üçün (elemetary, pre-intermediate, intermediate ) nəzərdə tutulub.
Təlimlərdə Danışıq (speaking), Dinləmə (listening), Oxu (reading) və Yazı (writing) dərslərində istifadə olunan yeni və səmərəli metodlar, fərqli dil səviyyələri üçün nəzərdə tutulan maraqlı və əyləncəli tapşırıq nümunələri nümayiş etdirilib.

## Abbas Qurbanov Gürcüstanda keçirilən konfransda məruzə ilə çıxış edib



Siyasi və ictimai elmlər kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Abbas Qurbanov Gürcüstan dövlətinin və Müftülüyünün birgə təşkilatçılığı ilə keçirilən "Müasir dünyada din: perspektivlər, problemlər və Ramazan" beynəlxalq konfransında məruzə ilə çıxış edib.
"İctimai birliyin təminatçısı kimi din və Ramazan" adlı məruzədə dünyada baş verən siyasi, iqtisadi və ictimai bərabərsizliyin, o cümlədən ədalətsizliyin aradan qaldırılması üçün dostluğun, əməkdaşlığın, mədəni və dini əlaqələrin əhəmiyyəti vurğulanıb. Həmçinin Azərbaycanda son illərdə yaradılan multikultural həyat və cəmiyyətin bütün fərqlilikləri arasında qurulan, dünyaya örnək ola biləcək tolerant mühitin varlığından bəhs edilib.

## Ruhəngiz Əliyeva "Peşəkar 100 il" idarəçilik marafonunda iştirak edib



İqtisadiyyat və idarəetmə kafedrasının baş müəllimi Ruhəngiz Əliyeva ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Peşəkar 100 il" idarəçilik marafonu çərçivəsində keçirilən idarəçilik təlimləri və ustad dərslərində iştirak edib. 2 ay davam edən marafon Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ASAN İnnovativ İnkişaf Mərkəzinin təşkilatçılığı ilə baş tutub.
100 nəfərdən artıq işgüzar şəxsin iştirak etdiyi marafonun yekunlaşması münasibətilə sertifikasiya mərasimi keçirilib və iştirakçılara sertifikat təqdim olunub.

## Afiq Nadirov Bakı Multikulturalizm Mərkəzinin təlimində iştirak edib



Siyasi və ictimai elmlər kafedrasının müəllimi Afiq Nadirov "Multikulturalizmə giriş" fənnini tədris edən müəllimlər üçün təşkil olunan təlimlərdə iştirak edib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil olunan təlimlərə ümumilikdə 11 ali təhsil müəssisəsi və kollecdən 32 müəllim qatılıb.
Təlimin iştirakçılarına "Multikulturalizmə giriş" fənninin predmeti və əhəmiyyəti, multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları, zərdüştilik, yəhudilik, buddizm, konfutsiçilik, daosizm, sintoizm, hinduizm, çaynizm, xristianlıq, İslam, qədim türk inancları, multikulturalizm və media, etnik müxtəliflik və milli ideya, müasir dövrdə Qərb ölkələrində etnik-mədəni müxtəliflik və onun tənzimlənməsi, multikulturalizm etnik-mədəni müxtəlifliklərin tənzimlənməsinin siyasi modeli kimi mövzularda mühazirələr təqdim edilib.

## Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd olunub



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə Azərbaycan Universitetində anım tədbiri keçirilib. Tədbirdən əvvəl universitet kollektivi Fəxri Xiyabanda olub, ümummilli liderin abidəsi önünə gül dəstələri qoyularaq, xatirəsi yad edilib.
Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.
Fəxri Xiyaban ziyarətinin ardından universitetin tədris binasında dəyirmi masa təşkil olunub. Siyasi və ictimai elmlər kafedrası tərəfindən təşkil olunan tədbirdə Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz tarixi xidmətlərinə nəzər salınıb, zəngin siyasi irsindən bəhs edilib.

## Milli Qurtuluş Gününə həsr olunmuş elmi seminar keçirilib




Azərbaycan Universiteti və Gəncliyə Yardım Fondunun birgə  təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev və müasir tariximizin şanlı səhifəsi" elmi seminarı 15 iyun - Milli Qurtuluş Gününə həsr olunub. Tədbirdə qeyd edilib ki, müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etməyə başlaması ilə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyulub, ölkə tarixinin yeni və önəmli bir mərhələsi başlayıb.
Bildirilib ki, Azərbaycan ərazisinin 20 faizinin işğal altında olduğu çətin tarixi dövrdə ölkə böyük bir yol qət etməli idi. Bu tarixi missiyanı məhz ulu öndər Heydər Əliyev öz üzərinə götürüb. Onun Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətləri hər zaman minnətdarlıqla xatırlanacaq.

## 28 May-Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib



Siyasi və ictimai elmlər kafedrası tərəfindən təşkil olunan tədbirdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranması,  fəaliyyəti, mövcud olduğu 23 ay müddətində dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlərə nəzər salınıb. Qeyd olunub ki, AXC-nin yaradılması Azərbaycanın dövlətçilik tarixinin mühüm səhifələrindən biridir.
Tədbirdə diqqətə çatdırılıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövləti artıq 33 ildir ki, müstəqillik yolunda inamla irəliləyir, onun ideallarını və yaratdığı zəngin dövlətçilik ənənələrini uğurla davam etdirir.
Həmçinin vurğulanıb ki, Cümhuriyyət qurucularının xidmətləri Azərbaycan dövləti və xalqı  tərəfindən yüksək qiymətləndirilir.

## Silahlı Qüvvələr Gününə həsr olunmuş  tədbir keçirilib



"İlham Əliyev və müasir Azərbaycanda ordu quruculuğu siyasəti" mövzusuna həsr olunan tədbirdə qeyd olunub ki, güclü maddi-texniki bazaya və yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Silahlı Qüvvələri cənab prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl, rasional və məqsədyönlü siyasi strategiya nəticəsində formalaşıb. Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən qüdrətli ordusuna çevrilib. Xüsusilə 44 günlük Vətən müharibəsində 30 ilə yaxın müddət ərzində erməni işğalı altında olan torpaqların azad edilməsi, Azərbaycan xalqının və əsgərinin Ali Baş Komandanın ətrafında yumruq kimi birləşərək dünya hərb tarixində yeni və parlaq səhifə açması ordu quruculuğunun yüksək səviyyədə həyata keçirildiyini sübut edir.
















# 30-CU BURAXILIŞ MƏZUN GÜNÜ
## 30 iyun 2024-cü il

2023/2024-cü tədris ili məzunlarına həsr olunmuş 30-cu buraxılış Məzun Günü "Badamdar Hotel and Residence"də keçirilib. Tədbirin rəsmi hissəsində rektor Səadət Əliyeva, rektorun müşaviri Nüşabə Quliyeva, fakültə dekanları və müəllimlər təbrik nitqi ilə çıxış edib, məzunlara uğurlar arzulayıblar.
Fakültələr üzrə birinci, ikinci və üçüncülüklə məzun olanlara, eyni zamanda magistratura və MBA proqramının birincilərinə, universitet birincisinə, həmçinin ictimai fəallığı ilə seçilən məzunlara Azərbaycan Universitetinin rektoru Səadət Əliyevanın fəxri fərmanları təqdim olunub.
İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin tələbəsi Arzu Nüsrətova 98,13 orta müvəffəqiyyət göstəricisi ilə universitetdən birinciliklə məzun olub. Arzu Nüsrətova şəklini "Azərbaycan Universitetinin fəxrləri" lövhəsində yerləşdirib və məzunlar adından çıxış edib.
Tədbirdə Azərbaycan Universitetinin bir qrup ilk məzunu da iştirak edib. İlk məzunlar - 1995-ci il məzunları adından İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi Ruhəngiz Əliyeva çıxış edib, 30 il sonra məzun dostları ilə birlikdə olmağın həyəcanını və sevincini tədbir iştirakçıları ilə bölüşüb.
Tədbirin rəsmi hissəsi ənənəvi papaqatma mərasimi ilə başa çatıb.
Bədii hissədə isə DJ Qafqaz və müğənni Şakir Mərdanov səhnə alıb.
Qeyd edək ki, Azərbaycan Universitetini bu il 455-i bakalavriat, 90-ı magistratura pilləsində olmaqla 545 məzun bitirib.




















## Rektorun Fəxri Fərmanı ilə təltif olunan məzunlar

**Universitet birincisi**
Nüsrətova Arzu Zaur qızı

**Fakültələr üzrə birincilər**
Qaracayeva Turanə İmran qızı
*(Biznes və iqtisadiyyat fakültəsi)*
Nüsrətova Arzu Zaur qızı
*(İnformasiya – kommunikasiya texnologiyaları fakültəsi)*
Mahmudova Emilya Ramil qızı
*(Humanitar fənlər fakültəsi)*

**Magistratura səviyyəsi üzrə birincilər**
Heydərova Leyla Süleyman qızı
Qədirli Qədir Bahadur oğlu (MBA)

**Fakültələr üzrə ikincilər**
Mustafayeva Cövhər Azad qızı
*(Biznes və iqtisadiyyat fakültəsi)*
Mədətova Şirinxanım Zahir qızı
*(İnformasiya – kommunikasiya texnologiyaları fakültəsi)*
Gülməmmədli Nigar İlkin qızı
*(Humanitar fənlər fakültəsi)*

**Fakültələr üzrə üçüncülər**
Mustafayeva Sevinc Azad qızı
*(Biznes və iqtisadiyyat fakültəsi)*
Ələsgərli Mirvari Mahir qızı
*(İnformasiya-kommunikasiya texnologiyaları fakültəsi)*
Nəzərli Ləman Vüqar qızı
*(Humanitar fənlər fakültəsi)*

**İctimai fəal tələbələr**
Sadıqova Səbinə Mənsur qızı | Məmmədov Eldar İntiqam oğlu

## ECAR layihəsinin yekun hesabat konfransı keçirilib




Azərbaycan Universitetinin tərəfdaş olduğu, Bakı Biznes Universitetinin koordinatorluğunda həyata keçirilən "Azərbaycanda Rektorlar Konfransının Yaradılması" (Establishment of Rectors Conference in Azerbaijan / ECAR) Erasmus+ layihəsinin yekun hesabat konfransı keçirilib. Tədbirdə Azərbaycan Universitetini rektor Səadət Əliyeva, rektorun müşaviri Nüşabə Quliyeva, elmi işlər üzrə prorektor Yusif Qasımov və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elmira İsmayılova təmsil edib.
Layihənin yerli və xarici tərəfdaşlarının, Elm və Təhsil Nazirliyinin, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin rəsmilərinin də iştirak etdiyi hesabat konfransında ECAR layihəsinin uğurla yekunlaşdığı diqqətə çatdırılıb. Konsorsiumun üzvü olan 21 universitet tərəfindən imzalanmış tərəfdaşlıq sazişi universitet rəhbrlərinə təqdim edilib.

## İstanbul Arel Universiteti ilə əməkdaşlıq imkanları müzakirə olunub



Görüşdə Azərbaycan Universitetini rektorun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva, Biznes və iqtisadiyyat fakültəsinin dekanı Xanım Quliyeva, Beynəxalq əlaqələr şöbəsinin müdiri Elmira İsmayılova və şöbənin əməkdaşı Sevlan Qurbanova, İstanbul Arel Universitetini isə bu ali məktəbin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Omid Salimi Lak, Öykü Bozanta, Devrim Arap və Erasmus proqram koordinatorluğundan Neslihan Kayış təmsil edib.
Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Polşanın WSB Universiteti ilə əməkdaşlıq imkanları müzakirə olunub



Görüşdə Azərbaycan Universitetini elmi işlər üzrə prorektor Yusif Qasımov, Biznes və iqtisadiyyat fakültəsinin dekanı Xanım Quliyeva, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elmira İsmayılova və şöbənin mütəxəssisi Sevlan Qurbanova, Polşanın WSB Universitetini (Wyžsza Szkola Bankowa) isə Beynəlxalq əlaqələr üzrə prorektor Rafal Rebilas və Beynəlxalq əlaqələr üzrə dekan müavini Pavel Urgacz təmsil edib.
Görüşdə Azərbaycan və WSB universitetləri arasında əməkdaşlıq perspektivləri və istiqamətləri müzakirə olunub, qarşılıqlı maraq kəsb edən məsələlər haqqında fikir mübadiləsi aparılıb.

## Pakistanın Grand Asiya Universiteti ilə memorandum imzalanıb



Pakistanın Grand Asiya Universitetinin Rəhbərlər Şurasının üzvü Cehanzaib İslam Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov ilə görüşüb.
Görüşdə tərəflər qarşılıqlı olaraq təmsil etdikləri ali təhsil müəssisəsinin fəaliyyəti, fakültələr və tədris olunan ixtisaslar, beynəlxalq əlaqələr, ikili diplom, beynəlxalq layihələr və tələbə mübadilə proqramlarında iştirak, elmi fəaliyyət və aktivlik, tələbələrə yaradılan imkanlar haqqında məlumat verib, qarşılıqlı maraq kəsb edən məsələlər, o cümlədən əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparıblar.
Sonda tərəflər arasında əməkdaşlıq memorandumu imzalanıb.

## Azərbaycan Universiteti ilə Tbilisi Dövlət Universiteti arasında onlayn görüş olub



Əməkdaşlıq imkanlarının müzakirə olunduğu onlayn görüşdə Azərbaycan Universitetini rektorun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru Nüşabə Quliyeva, Beynəlxalq əlaqələr şöbəsi və Təlim və tədris mərkəzinin rəhbəri Elmira İsmayılova və şöbənin mütəxəssisi Sevlan Qurbanova, Gürcüstanın Tbilisi Dövlət Universitetini isə dekan Giorgi Gaganidze təmsil edib.
Görüşdə tərəflər qarşılıqlı olaraq təmsil etdikləri ali təhsil müəssisəsinin fəaliyyəti, fakültələr və tədris olunan ixtisaslar, beynəlxalq əlaqələr, ikili diplom, beynəlxalq layihələr və tələbə mübadilə proqramlarında iştirak, elmi fəaliyyət və aktivlik, tələbələrə yaradılan imkanlar haqqında məlumat verib, qarşılıqlı maraq kəsb edən məsələlər, o cümlədən əməkdaşlıq perspektivləri haqqında fikir mübadiləsi aparıblar.

## Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları TRUST təlimində iştirak ediblər




"Erasmus Student Network Azerbaijan" təşkilatının “Training and Resources for Universities to Strengthen Transnational Partnerships” (TRUST) layihəsi çərçivəsində yerli ali təhsil müəssisələrinin beynəlxalq əlaqələrə məsul struktur vahidlərinin əməkdaşları üçün keçirilən təlimdə Gürcüstanın Tbilisi Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Tea Gergedava “Ali təhsildə potensialın gücləndirilməsi layihələri”, Türkiyənin Marmara Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Gülden Bulut “Mübadilə layihələri”, Ukraynanın Mariupol Dövlət Universitetinin Beynəlxalq təhsil mərkəzinin direktoru İrina Sikorska isə “Jean Monnet layihələrinin tərtib olunması” haqqında məlumat verib.
Təlimin sonunda bütün iştirakçılara sertifikat təqdim olunub.

## Azərbaycan Universiteti “Azərbaycanda beynəlxalq təhsil imkanları” forumunda təmsil olunub




Tədbirdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri Elmira İsmayılova, şöbənin mütəxəssisi Sevlan Qurbanova və universitetin bir qrup əcnəbi tələbəsi iştirak edib.
Forumda təhsilin beynəlmiləlləşməsi və ali təhsilə əlçatanlılığın artırılması istiqamətində ölkədə görülən işlər, Azərbaycanda təhsil alan əcnəbi tələbələrin statistikası, ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə yer alması və mübadilə proqramlarında iştirakı ilə bağlı məlumatlar iştirakçıların diqqətinə çatdırılıb.

## Azərbaycan Universiteti NCURA Cənubi Qafqaz və Ukrayna təşəbbüsünə qoşulub




Azərbaycan Universiteti Universitet Tədqiqat İnzibatçılarının Milli Şurası (NCURA) Cənubi Qafqaz və Ukrayna təşəbbüsünə qoşulub. NCURA Cənubi Qafqaz və Ukrayna təşəbbüsü Gürcüstanın Biznes və Texnologiya Universiteti ilə şura arasında əməkdaşlıq çərçivəsində yaradılıb.
1959-cu ildə əsası qoyulmuş NCURA təhsil və peşəkar inkişaf proqramları vasitəsilə tədqiqat idarəçiliyi peşəsini inkişaf etdirmək, bilik və təcrübələrin mübadiləsi və müxtəlif tədqiqatların təşviq olunması məqsədilə fəaliyyət göstərir.




# Azərbaycan Universiteti ilk dəfə RUR reytinqinə daxil olub

*RUR beynəlxalq reytinq agentliyinin (Round University Ranking) 2024-cü il üzrə nəticələri elan edilib. Nəticələrə əsasən Azərbaycan Universiteti ilk dəfə bu reytinqə daxil olaraq, dünya universitetləri reytinqinə görə 1055-ci (ölkə üzrə 4-cü), tədrisə görə 895-ci (ölkə üzrə 3-cü), tədqiqata görə 1093-cü (ölkə üzrə 6-cı), beynəlmiləlləşməyə görə 1004-cü (ölkə üzrə 4-cü) pillədə yer alıb.*
*2024-cü il RUR reytinqində Azərbaycanı 8 universitet təmsil edib.*
*Qiymətləndirmə 2023-cü ilin avqust ayına kimi daxil edilmiş məlumatlar əsasında müəyyən edilib.*
*RUR reytinqində universitetlər tədrisin keyfiyyəti (40 faiz), tədqiqatın keyfiyyəti (40 faiz), beynəlmilləşmə (10 faiz) və maliyyə dayanıqlılığı (10 faiz) istiqamətlərində qruplaşdırılan 20 parametrə görə qiymətləndirilir.*











## Gənc tədqiqatçıların VII respublika elmi konfransı

15 mart 2024-cü il

Konfransda  gün ərzində informasiya-kommunikasiya texnologiyaları, humanitar elmlər, iqtisadiyyat, sosial elmlər və təbiət elmləri istiqamətlərində 36 ali təhsil müəssisəsi, elmi mərkəz, təşkilat və elmi-tədqiqat institutunu təmsil edən 201 tezis dinlənilib və müzakirə olunub.

Konfransın açılış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov çıxış edərək Azərbaycan elmini gələcəkdə ən yaxşı şəkildə təmsil edəcək gənc tədqiqatçıların tədbirin işində iştirak etdiyini bildirib, konfransa təqdim olunan tədqiqat işləri haqqında məlumat verib. Daha sonra Elm və Təhsil Nazirliyi Radiasiya Problemləri İnstitutunun əməkdaşı, fizika elmləri doktoru, professor Elçin Hüseynov, Azərbaycan Universitetinin İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Oruc Qasımlının çıxışları dinlənilib.

Plenar iclasın ardından konfrans bölmə iclasları ilə davam edib. Tədbirin işi "Tarix və hüquq", "Filologiya-1", "Filologiya-2", "İqtisadiyyat-1", "İqtisadiyyat-2", "Sosiologiya", "Təbiət elmləri-1" və "Təbiət elmləri-2" olmaqla 8 bölmədə təşkil olunub.

Konfransın yekununda bölmə sədrlərinin hesabatı dinlənilib.













## **"Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində" beynəlxalq konfransı**

3 may 2024-cü il

Konfransın məqsədi Cənubi Qafqazdakı ictimai, siyasi, hərbi, ekoloji, logistika ilə bağlı baxışların regional və beynəlxalq prizmadan araşdırılması, bu istiqamətlərdə aparılan tədqiqatların nəticələrinin təqdim edilməsi üçün platforma olmaqdır.

Hibrid formada təşkil olunan konfransın açılış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov, Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutunun direktoru, professor Nadim Macit, Gürcüstanın İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin professoru Vasil Gonaşvili və Azərbaycan Universitetinin Siyasi və ictimai elmlər kafedrasının müdiri Elvin Talışınskinin çıxışları dinlənilib. Plenar iclasda isə Gürcüstanın İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru Joni Kvitsiani "Qara dəniz – Xəzər regionunda müasir təhlükələrə qarşı mübarizədə Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlıq" mövzusunda çıxış edib.

Açılış mərasimi və plenar iclasın ardından konfransın işi üç bölmə iclasında davam edib. Bölmə iclaslarında konfransa 5 ölkədən qəbul edilən 100-dən artıq tezis ənənəvi və onlayn formatda təqdim edilib.

## "Siemens Energy" şirkətinin nümayəndəsi Yaşar Musayev Azərbaycan Universitetində olub



Almaniyanın "Siemens Energy" şirkətinin Elm və texnika bölməsinin rəhbəri, professor Yaşar Musayev Elm şöbəsinin təşkilatçılığı ilə keçirilən "Yaşıl enerji texnologiyası: yaşıl hidrogen" mövzusunda elmi seminarda məruzə ilə çıxış edib.
Məruzədə yaşıl enerji, yaşıl hidrogen texnologiyaları sahəsində həyata keçirilən yeniliklər, yaşıl hidrogen istehsalının perspektivləri, Azərbaycanda bu istiqamətində görülən işlər haqqında məlumat verilib.
Yaşar Musayev "Siemens Energy" şirkətinin yaşıl enerji sahəsindəki fəaliyyəti, istiqamətləri və bu kimi məsələlər haqqında da danışıb.

## Professor Ömer Beyhanın pedaqoji heyət üçün seminarı təşkil olunub



Türkiyənin Necmeddin Erbakan Universitetinin professoru Ömer Beyhan pedaqoji heyət üçün təşkil olunan elmi seminarda məruzə ilə çıxış edib. Ömer Beyhanın məruzəsi "Öyrənmə və öyrətmə strategiyaları" mövzusuna həsr olunub. Qonaq professorun məruzəsi öyrətmə strategiyaları, tam öyrənmə modeli və nəzəriyyəsi, tədris xidmətinin keyfiyyəti, tamamlayıcı təhsil tədqiqatları kimi mövzuları əhatə edib.
Türkiyəli professor seminarda öz təcrübələrini də bölüşüb, həmçinin mövzu üzrə həmkarları ilə müzakirələr aparıb.

## Türkiyəli professor Hasan Bulut elmi seminarda məruzə ilə çıxış edib



Türkiyənin Fırat Universiteti rektorunun beynəlxalq əlaqələr üzrə məsləhətçisi, professor Hasan Bulut Riyaziyyat və informatika kafedrasının elmi seminarında məruzə ilə çıxış edib. "Xətti olmayan diferensial tənliklərin analitik və ədədi həll üsulları" mövzusunda məruzə adi və xüsusi törəməli, o cümlədən kəsr tərtib diferensial tənliklərin təkmilləşdirilmiş həll üsullarının verilməsinə həsr olunub.
Professor Hasan Bulut seminar iştirakçılarına bu istiqamətdə aldığı nəticələr, o cümlədən bu nəticələrin həm nəzəri həm də praktik əhəmiyyəti haqqında məlumat verib. Bildirib ki, alınmış nəticələr yüksək impakt faktorlu beynəlxalq jurnallarda çap olunub.

## "Social Issues" jurnalının ilk sayı çapdan çıxıb




Son zamanlar dünyada, o cümlədən Azərbaycanda sosial iş, onun təşkili, sosial siyasət kimi mövzulara marağın artması bu məsələlərin elmi cəhətdən araşdırılmasını aktuallaşdırıb. Bunu nəzərə alaraq Azərbaycan Universitetinin Elmi şurasının qərarı ilə "Social Issues" elmi jurnalı təsis edilib. Jurnalın beynəlxalq redaksiya heyəti formalaşdırılıb və buraya dünyanın müxtəlif ölkələrini təmsil edən tanınmış alimlər cəlb edilib. Jurnalın baş redaktoru kimi sosial elmlər sahəsində tanınmış alim, Alexandru Ioan Cuza Universitetinin (İasi, Rumıniya) professoru Stefan Cojocaru təsdiq edilib.
Jurnalın ilk sayında müxtəlif ölkələrdən olan müəlliflərin sosial işin təşkili, uşaq hüquqlarının idarə edilməsi sistemləri, maliyyə savadlılığı, yoxsulluğun azaldılması kimi mövzularda məqalələri yer alıb.

## Azərbaycan Universitetinin həmtəşkilatçılığı ilə Türkiyədə beynəlxalq konqres keçirilib



Türkiyənin İzmir Dokuz Eylül Universitetinin evsahibliyində, Azərbaycan Universiteti, Qırğız - Türk Manas Universiteti, Moskva Pedaqoji Dövlət Universiteti və Türkiyədə Rus Evinin təşkilatçılığı ilə "Rus ədəbiyyatında və mədəniyyətində İslam və müsəlmanlar" adlı beynəlxalq konqres keçirilib. Azərbaycan Universitetinin rektoru Səadət Əliyevanın ali komitənin və elmi işlər üzrə prorektoru Yusif Qasımovun təşkilat komitəsinin üzvü olduğu konqres hibrid formatda təşkil olunub.
Konqresin elmi komitəsinin və təşkilat komitəsinin üzvü və bölmə sədri, Azərbaycan Univesitetinin professoru Asif Hacıyev konqresdə "Avrasiyaçılıqda türklər və slavyanlar" mövzusunda, Xarici dillər kafedrasının müəllimi Züleyxa Bağırzadə isə "The neo-rhetorical features of the Quran" və "Assessment of Islam in the 21st century and linguistic approach to the universal impact of its style" mövzularında məruzə ilə çıxış ediblər.

## Prorektor Yusif Qasımov Türkiyədə beynəlxalq simpoziumda iştirak edib




Azərbaycan Universitetinin həmtəşkilatçılığı ilə Türkiyənin Harran Universitetində "VIII Beynəlxalq Riyaziyyat və Mühəndislik Elmləri" (CMES-2024) simpoziumu keçirilib. Dünyanın 20 ölkəsindən 350-yə yaxın alim və tədqiqatçının iştirak etdiyi beynəlxalq elmi tədbirdə 30 bölmədə 162 məruzə dinlənilib. Azərbaycan Universitetini simpoziumda elmi işlər üzrə prorektor Yusif Qasımov təmsil edib.

## Multikulturalizmə həsr olunmuş beynəlxalq elmi seminar keçirilib



Seminar Azərbaycan Universitetinin və Gürcüstanın Akaki Tsereteli Dövlət Universitetinin professor-müəllim heyətinin iştirakı ilə keçirilib. Hibrid formatda təşkil olunan seminarda Azərbaycan Universitetinin professoru, filologiya elmləri doktoru Asif Hacıyevin "Tarixi coğrafiya və Azərbaycan multikulturalizmi", Gürcüstanın Akaki Tsereteli Dövlət Universitetinin nümayəndələri - filologiya elmləri doktoru, professor İrine Çaçanidze və filologiya üzrə fəlsəfə doktoru Tamar Quçuanın "Bakının gürcü diasporunda dil və mədəniyyət məsələləri" (XX əsrin birinci yarısının gürcü mühacir mətbuatına görə) mövzusunda məruzələri, o cümlədən Azərbaycan Universitetinin Siyasi və ictimai elmlər kafedrasının müəllimlərinin çıxışları dinlənilib.

## İqtisadiyyat və idarəetmə kafedrasının "Elmi tədqiqatın məntiqi" mövzusunda elmi seminarı keçirilib



İqtisadiyyat və idarəetmə kafedrasının "Elmi tədqiqatın məntiqi: metodoloji problemlər" mövzusuna həsr olunan elmi seminarında iştirakçılar kafedranın müəllimi Həsən Rəhimlinin məruzəsini dinləyib, mövzu ətrafında fikir mübadiləsi aparıblar.
Həsən Rəhimlinin məruzəsi tədqiqat növləri, tədqiqat layihəsinin tərtib edilməsi, tərtibat zamanı yol verilən xətalar, hipotezlərin müəyyən edilməsi, arqumentləşdirmə, tədqiqatın texnikası və texnologiyası, tədqiqatın metodologiyası, elmi və qeyri-elmi metodologiya və bu kimi mövzuları əhatə edib.

## Azərbaycan Universitetinin "Hirş" indeksi 29-a yüksəlib



2023-cü il üzrə elmi fəaliyyətin yekunlarına dair hesabat iclasında Elm şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru Lətifə Ağamalıyeva geniş məruzə ilə çıxış edib. Məruzə universitetin elmmetrik göstəriciləri, il ərzində universitetdə keçirilmiş elmi tədbirlər, beynəlxalq və respublika səviyyəli konfranslar, tələbə elmi cəmiyyətlərinin, "İpək yolu" və "Social Issues" elmi jurnallarının fəaliyyəti, beynəlxalq elmi əməkdaşlıq kimi mövzuları əhatə edib. Məruzədə dərc edilmiş elmi işlər, çap olunmuş monoqrafiya, dərslik, dərs vəsaitləri haqqında da məlumat verilib. Qeyd olunub ki, universitetin Clavirate Analytics Agentliyinin Web of Science bazası əsasında müəyyən edilən "Hirş indeksi" 2023-cü ildə 29-a yüksəlib. Keçən il bu rəqəm 24 olub.

## Yaşıl iqtisadiyyat mövzusuna həsr olunmuş elmi seminar keçirilib



Seminarda Maliyyə və mühasibat kafedrasının müdiri Nəriman Böyükkişi "Yaşıl iqtisadiyyata keçidin iqtisadi mexanizmi və şərtləri", İqtisadiyyat və idarəetmə kafedrasının müdiri Tural Qocayev "Dayanıqlı inkişaf konsepsiyası və onun milli sərvət səviyyəsində dəyərləndirilməsinin zərurəti", kafedranın dosenti Əliağa İsmayılzadə "Yaşıl iqtisadiyyatın iqtisadi problemləri və inkişaf perspektivləri" mövzusunda məruzə ilə çıxış ediblər.
Məruzələrdə "yaşıl iqtisadiyyat" termininin yaranması və elmi dövriyyəyə daxil olması, "yaşıl iqtisadiyyat" konsepsiyası, yaşıl iqtisadiyyata keçidin zəruri səbəbləri, yaşıl iqtisadiyyatın prinsipləri, problemləri və perspektivləri haqqında məlumat verilib, yaşıl iqtisadiyyatın formalaşması ilə bağlı Azərbaycandakı vəziyyət təhlil olunub.

## İqtisadiyyat və idarəetmə kafedrası "Yaşıl marketinq" mövzusunda elmi seminar keçirib



Seminarda kafedranın müəllimlərinin məruzələri dinlənilib. Dosent Turanə Əhmədova "Dayanıqlı inkişaf və yaşıl marketinq", kafedranın baş müəllimi Ruhəngiz Əliyeva "Yaşıl marketinq strategiyasının əsas istiqamətləri", kafedranın müəllimləri Həsən Rəhimli "Davamlı inkişafın iqtisadi fəlsəfəsi: iqtisadi kiçilmə", Elvin Kərimov isə "Yaşıl həllərin mənimsənilməsindəki əsas əngəllər" mövzusunda çıxış ediblər.
Seminarda qeyd edilib ki, ekoloji savadlılığın artması son illərdə "yaşıl marketinq"in tətbiqini aktuallaşdırır və bu da öz növbəsində şirkətlərin marka dəyərinin artmasına gətirib çıxarır.

## Azərbaycan Universiteti "Sahibkarlıq üzrə təhsilin inkişafı" beynəlxalq konfransında təmsil olunub



Rusiya Federasiyasının Tümen Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən onlayn konfransda Maliyyə və mühasibat kafedrasının müdiri Nəriman Böyükkişi, kafedranın müəllimləri Əliağa İsmayılzadə, Sahib Məmmədov, Vəfa Əzizova və Rəfael Mərdiyev iştirak edib. Azərbaycan, Rusiya, Hindistan, Çin, Qazaxıstan, Tacikistanın ali təhsil müəssisələrinin nümayəndələrinin iştirak etdiyi tədbirdə iştirakçı ölkələrin ali təhsil müəssisələrinin biznes və sahibkarlıq sahələri üzrə kadr hazırlığı istiqamətində mövcud təcrübələri müzakirə edilib, birgə inkişaf üzrə həyata keçiriləcək praktiki işlər müəyyən edilib. Tədbirdə, Rusiya Federasiyasının Elm və Təhsil Nazirliyinin və Avrasiya İqtisadi Komissiyasının rəsmiləri də iştirak edib.

## Lətifə Ağamalıyeva beynəlxalq sertifikat əldə edib




Elm şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru Lətifə Ağamalıyeva Təhsildə Keyfiyyət Təminatı Agentliyinin "Scopus Certification Program for Librarians" təlimini yüksək göstərici ilə başa vurub. "Scopus" elmi bazası ilə birgə təşkil edilən təlimdə əməkdaşımız 98 bal toplayaraq beynəlxalq sertifikat əldə edib.
Altı həftəlik təlimin məqsədi iştirakçılarda "Scopus" tərəfindən təmin edilən məlumat ehtiyacları haqqında məlumatlılıq, "Scopus" bazasından təcrübəli şəkildə istifadə etmək və bunu başqalarına öyrətmək üçün lazım olan bacarıqlar, "Scopus" bazasında əlavə məlumat axtarışı strategiyaları kimi bacarıqları inkişaf etdirməkdən ibarət olub.

## Lətifə Ağamalıyevanın "Elmi fəaliyyətin qiymətləndirilməsi" adlı dərs vəsaiti çap olunub



Azərbaycan Universitetinin Elm şöbəsinin müdiri, riyaziyyat üzrə fəlsəfə doktoru, elmi jurnalların yaradılması, inkişafı və elmmetrik bazarlar üzrə mütəxəssis Lətifə Ağamalıyevanın müəllifi olduğu dərs vəsaiti doktorantlara və elmi tədqiqatçılara elmi nəticələrini müasir səviyyədə tərtib etmək, elmmetrik bazalardan istifadə etməklə yüksək reytinqli jurnallarda çap olunmaq, elmi profillər yaratmaq və inkişaf etdirmək, son nəticədə öz elmi göstəricilərini yaxşılaşdırmaq istiqamətində qarşılaşdıqları çətinlikləri aradan qaldırmağa kömək edəcək.
"Elmi fəaliyyətin qiymətləndirilməsi" adlı dərs vəsaiti 5 fəsildən ibarətdir.

## Nüşabə Quliyevanın məqaləsi "Web of Science" bazasında indekslənən jurnalda çap olunub




Azərbaycan Universiteti rektorunun müşaviri, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin direktoru, tarix üzrə fəlsəfə doktoru Nüşabə Quliyevanın müəllifi olduğu "Rusiya və Azərbaycan: təhsil sahəsində əməkdaşlığın aspektləri" (Russia and Azerbaijan: Aspects of Cooperation in the Field of Education) adlı məqalə "Web of Science" bazasında indekslənən "Revista Conrado" jurnalında çap olunub. Məqalədə təhsil sahəsində Rusiya-Azərbaycan münasibətlərinin inkişafı təhlil edilərək, Rusiya-Azərbaycan təhsil əməkdaşlığının əsasını təşkil edən çoxşaxəli motivasiya, stimul və məqsədlər müxtəlif prizmalardan araşdırılıb. Məqalədə qeyd olunur ki, humanitar əməkdaşlıq proqramları ilk növbədə Azərbaycan və Rusiya arasında mədəni əlaqələri tənzimləyir və ümumilikdə çoxsaylı ikitərəfli sazişlər və müqavilələr ölkələr arasında humanitar məsələlərin demək olar ki, bütün sahələrini əhatə edir.

## "EBSCOHost platformasında axtarış" mövzusunda seminar keçirilib



"Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun yaranmasının 20 illiyi çərçivəsində təşkil olunan EBSCOHost platformasında interaktiv axtarış və EIFL. net konsorsiumunun xidmətləri" mövzusunda təlim-seminarda EIFL.net-in xidmətləri haqqında məlumat verilib, müxtəlif elm və tədris sahələrini əhatə edən platformada interaktiv axtarış qaydaları iştirakçılara əyani şəkildə təqdim edilib.
Tədbir Elmi kitabxananın təşkilatçılığı ilə keçirilib.

## Azad Məmmədov beynəlxalq konfransda məruzə ilə çıxış edib



Azərbaycan Universitetinin Tərcümə və filologiya kafedrasının professoru, filologiya elmləri doktoru Azad Məmmədov Polşa Adam Mitskeviç adına Poznan Universitetinin İngilis dili fakültəsinin təşkilatçılığı ilə keçirilən "52-ci Linqvistik Görüş" adlı beynəlxalq konfransda (52nd Poznan Linguistic Meeting) məruzə ilə çıxış edib. Professor Azad Məmmədovun məruzəsi "Tərcümə diskursunda konseptual ekvivalentlik məsələsi"nə həsr olunub.
1970-ci ildən ənənəvi olaraq keçirilən konfransın əsas məqsədi elmi tədqiqat müəssisələri, universitetlər, dövlət və özəl sektordan olan nümayəndələri bir araya gətirərək dilçilik sahəsində mövcud elmi və praktiki problemləri müzakirə etməkdir.

## Rəşad Məstəliyev beynəlxalq konfransda çıxış edib




Riyaziyyat və informatika kafedrasının müdiri, dosent Rəşad Məstəliyev Rusiya Federasiyasının Kabardin-Balkar Respublikasının Nalçik şəhərində keçirilən VII beynəlxalq "Lokal olmayan sərhəd məsələləri və riyazi-biologiya, informatika və fizikanın əlaqəli problemləri" adlı konfransda iştirak edib. Kafedra müdiri diferensial tənliklər, xüsusən də kəsr tərtib diferensial tənliklər sahəsində tanınmış alim, professor A. M. Naxuşovun 85 illiyinə həsr olunan beynəlxalq konfransın "Lokal olmayan fiziki, bioloji və sosial-iqtisadi proseslərin riyazi modelləşdirilməsi" bölmə iclasında "Stoxastik diskret idarəolunan sistemlərdə məxsusi idarələrin optimallığı haqqında" mövzusunda məruzə ilə çıxış edib.

## Aysu Mirzəyevanın məqaləsi nüfuzlu elmi jurnalda dərc olunub




Azərbaycan Universitetinin Tərcümə və filologiya kafedrasının müəllimi Aysu Mirzəyevanın "Phraseological units with two or more specific names of components" adlı elmi məqaləsi Clarivate Analytics elmi bazasında indekslənən "Universidad y Sociedad" elmi jurnalında çap olunub.
Kafedra əməkdaşının məqaləsində ingilis dilinin bir, iki və ya üç antroponimik birləşmənin olduğu onomastik frazeoloji vahidlər, antroponimik komponentli frazeoloji vahidlərdəki şəxs adları ümumiləşdirilmiş obrazı və ya konkret şəxsləri ifadə etməsi, həmçinin ingilis dilinin frazeoloji sistemində antroponimləri ehtiva edən bir çox vahidlər olsa da, onların bəzilərinin frazeologiyada daha məhsuldar olduğu təhlil olunub.

## Elvin Talışinski "Rus Evi"ndə keçirilən konfransda çıxış edib



Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının iştirakçısı olan dövlətlərdə demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (MDB PA DİMBİ) Bakı filialı "Dövlət gənclər siyasəti vətəndaş cəmiyyətinin inkişaf amili kimi" mövzusunda konfrans keçirib. Bakıdakı "Rus Evi"ndə təşkil olunan konfransda Azərbaycan Universitetinin Siyasi və ictimai elmlər kafedrasının müdiri Elvin Talışınski məruzə ilə çıxış edib. Məruzədə qeyd olunub ki, dövlətin yaratdığı geniş imkanlar nəticəsində gənclər cəmiyyətin aparıcı qüvvəsinə çevrilib, ölkəmizin uğurlu gələcəyi naminə inamlı addımlar atırlar.




# "İpək yolu" elmi jurnalı

1997-ci ildə təsis olunan "İpək yolu" elmi jurnalı iqtisad və filologiya elmlərinə aid Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı"na daxildir.

Bundan əlavə jurnal
Index Copernicus, Erih PLUS, E-library - РИНЦ (Rusiya)
beynəlxalq indeksləmə bazalarına da daxil edilib.

İldə 4 dəfə nəşr olunan jurnalın hər il bir nömrəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileyi və ya əlamətdar hadisələrin ildönümünə həsr olunur.




"Social Issues" jurnalı sosial elmlər üzrə nəzəriyyələr, metodlar və onların tətbiqlərinə həsr olunmuş, rəyləşdirilən açıq elmi jurnaldır.
"Social Issues" jurnalının məqsədi sosial elmlərin müxtəlif sahələri arasında maneələri aradan qaldırmaq və müasir ümumi tədqiqat metodlarını inkişaf etdirməkdir. Jurnal sosiologiya, mədəni antropologiya, etnoqrafiya, sosial coğrafiya, mədəniyyətşünaslıq, sosial siyasət, sosiolinqvistika və sosial tarix, gender tədqiqatları və s. daxil olmaqla sosial elmlərin müxtəlif istiqamətləri üzrə məqalələri qəbul edir.
Jurnalda Sosial iş və Sosial iş təhsili məsələlərinə həsr edilmiş məqalələr də çap olunur.

# 2024
## KONFRANSLAR

**15 mart** — **Gənc tədqiqatçıların VII respublika elmi konfransı**

**12 aprel** — **Yaşıl turizm: yeni imkanlar, yeni trendlər**

**3 may** — **Cənubi Qafqaz yeni qlobal çağırışlar kontekstində**

## *Əməkdaşlarımızı, akademik heyət üzvlərini, doktorant və dissertantlarımızı təbrik edirik!*



Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Siyasi və ictimai elmlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Bəhruz oğlu Talışınskiyə elmi-pedaqoji fəaliyyətinə görə siyasi elmlər elm sahəsinin Beynəlxalq münasibətlər ixtisası üzrə dosent elmi adı verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə əməkdaşımıza dosent diplomu təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Sosial işin təşkili kafedrasının müəllimi, psixologiya üzrə fəlsəfə doktoru Aynur Rəşid qızı Bünyatovaya elmi-pedaqoji fəaliyyətinə görə psixologiya elm sahəsinin Sosial psixologiya ixtisası üzrə dosent elmi adı verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə əməkdaşımıza dosent diplomu təqdim olunub.





Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru Turanə Vahid qızı Əhmədovaya dosent elmi adı verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə əməkdaşımıza dosent diplomu təqdim olunub.

Azərbaycan Universitetinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Lalə Tofiq qızı Dilənovaya Türkiyənin Ankara Hacı Bayram Veli Universiteti tərəfindən doktorantura diplomu təqdim olunub. Şöbə rəhbəri fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işini bu universitetdə müdafiə edib.





Tərcümə və filologiya kafedrasının iclasında doktorant Hüseyn Rafayıl oğlu Hüseynlinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Hüseyn Cavidin mənsur dramaturgiyası" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Doktorantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Qorxmaz Quliyevdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Azərbaycan Universitetinin doktorantı Tamara Rövşən qızı Atakişiyevaya "Azərbaycan ədəbiyyatı" ixtisasında "filologiya elmləri" elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə dissertantımıza diplomu təqdim olunub.






Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə Azərbaycan Universitetinin doktorantı Leyla Fərhad qızı Məmmədəliyevaya "Azərbaycan ədəbiyyatı" ixtisasında "filologiya elmləri" elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə doktorantımıza diplomu təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi İntizar Mirzəli qızı Qurbanovaya "Sahə iqtisadiyyatı" ixtisasında "iqtisad elmləri" elm sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilib. Ali Attestasiya Komissiyasında keçirilən tədbirdə əməkdaşımıza diplomu təqdim olunub.





Tərcümə və filologiya kafedrasının iclasında dissertant Fəridə Arif qızı Əmrahovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Azərbaycan dilində alqış və qarğışların linqvistik xüsusiyyətləri" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Dissertantın elmi rəhbəri filologiya elmləri doktoru, professor İsmayıl Məmmədlidir.

Tərcümə və filologiya kafedrasının iclasında dissertant Aysel Məmməd qızı Həmidovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Robert Qreyvs yaradıcılığında mifologiyanın ədəbi-bədii təcəssüm xüsusiyyətləri" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Dissertantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Qorxmaz Quliyevdir.





Tərcümə və filologiya kafedrasının iclasında doktorant Məlakə Ağasəf qızı Rəcəbovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "İsa Hüseynov və Ramiz Rövşən nəsrində arzu və qorxu" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Doktorantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Rəhilə Qeybullayevadır.

Tərcümə və filologiya kafedrasının iclasında doktorant Günel Rzaqulu qızı Əhmədovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Azərbaycan dilində səbəb-nəticə konsepti" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Doktorantın elmi rəhbəri filologiya elmləri doktoru, professor İsmayıl Kazımovdur.





Tərcümə və filologiya kafedrasının iclasında dissertant Səbinə Elçin qızı Mehrəliyevanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Sosial-kulturoloji realilərin metaforik funksiyası" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Dissertantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Çingiz Qaraşarlıdır.

Tərcümə və filologiya kafedrasının iclasında dissertant Aygün Ramiz qızı Qasımovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Tərcümədə formal və dinamik ekvivalentlik problemi" (Azərbaycan və İngilis dillərinin materialları əsasında ) mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Dissertantın elmi rəhbəri filologiya elmləri doktoru, professor İsmayıl Məmmədlidir.





Tərcümə və filologiya kafedrasının iclasında doktorant Ofeliya Vaqif qızı Muradovanın filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün yerinə yetirdiyi "Natiq Rəsulzadənin yaradıcılığı" mövzusunda dissertasiya işinin ilkin müzakirəsi keçirilib. İclasda dissertasiya işinin filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün Ali Attestasiya Komissiyası tərəfindən dissertasiya işinə qoyulan tələblərə cavab verdiyi qeyd olunub və müdafiənin növbəti mərhələsinə tövsiyə olunması qərara alınıb. Doktorantın elmi rəhbəri filologiya elmləri doktoru, professor Asif Hacıyevdir.



*Tikdim ki, izim qala ...*

# ŞAHBULAQ QALASI



# ŞAHBULAQ QALASI

*Azərbaycanın maddi mədəniyyət abidələri sırasında Qarabağ xanı Pənahəli xan tərəfindən inşa etdirilən Şahbulaq qalasının özünəməxsus yeri var. Xanlığın əsas paytaxt qalalarından biri olan Şahbulağın memarlıq üslubu özündən sonrakı inzibati mərkəz Şuşa şəhərinin tikintisinə də böyük təsir göstərmişdir.*

*Qarabağ xanlığı 1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra tarixi Azərbaycan torpaqlarında yaranmışdır. Xanlığın banisi əslən Cavanşirlər tayfasının Sarıcalı oymağından olan Pənahəli xan Cavanşirdir. Kiçik Qafqaz dağlarının cənub-şərqində yerləşən və Azərbaycanın xeyli ərazisini əhatə edən xanlığın sərhədləri Araz çayından Göyçə gölünədək, Tərtər çayından bütün düzənlik və Yuxarı Qarabağ, Zəngəzur, Bərgüşadı əhatə etməklə yanaşı, Mehri və Qarakilsə şəhərinə (indiki Ermənistan ərazisi) qədər uzanırdı. Xanlıq Şəki, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ, Cavad və Şamaxı xanlıqları ilə həmsərhəd idi.*

*Xanlığın yarandığı ilk dövrlərdə Pənahəli xanın fəaliyyətinin mühüm istiqamətlərindən biri güclü müdafiə imkanları olan şəhər - qalanın yaradılması olmuşdur. Bu qala, eyni zamanda, Qarabağ xanlığının paytaxtı olmalı idi. 1748-ci ildə əsası qoyulmuş Bayat qalası və 1751-ci ildə inşasına başlanmış Şahbulaq qalası məhz bu məqsədə xidmət edirdi. Lakin Pənahəli xan bir müddət sonra hər iki qalanın əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq inzibati mərkəzi Şuşaya köçürmüşdür.*

*Bu yazımız Qarabağ xanlığının ərazisində tikilən ikinci paytaxt qala – Şahbulaq qalası haqqındadır. Erməni işğalı dövründə qalanın adı dəyişdirilərək “Surenavan”, ətraf əraziləri isə “Tiqranakert” adlandırılmışdır. Burada qanunsuz arxeoloji qazıntılar aparılmış, Azərbaycanın arxeoloji irsi məqsədyönlü və planlı şəkildə məhv edilmişdir.*

*İndi işğaldan azad edilən torpaqlarımızda infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, o cümlədən bərpası istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bütün dini və tarixi abidələrimiz kimi Şahbulaq qalası da indi ikinci baharını yaşayır.*

Qarabağ xanlığının inzibati mərkəzlərindən biri olan Şahbulaq qalası (və ya Tərnəküt qalası) Pənahəli xan tərəfindən 1751–1752-ci illərdə Ağdamın Şahbulaq adlı ərazisində inşa edilmişdir. Qalanın adının burada yerləşən gursulu bulağın adından – Şahbulağından götürüldüyü ehtimal edilir.

Şahbulaq qalası (qəsri) Qarabağ xanlığının ərazisində inşa edilən ikinci qaladır. Ağdam şəhərinin 10 kilometrliyində, Ağdərəyə gedən yolun üstündə, sol tərəfdə yerləşən, Böyük İpək Yolu üzərindəki strateji yerlərdən biri olan abidə müdafiə tipli tikilidir. Elmi ədəbiyyatda “Şahbulaq qəsri” adı ilə tanınır və əslində iri qəsr kompleksinin içqalasıdır.

Qarabağ xanlarının baş vəziri, tarixçi, bizim dövrümüzədək gəlib çatmış “Qarabağnamə”lərin müəlliflərindən Mirzə Camal bəy Cavanşir Qarabaği Pənahəli xanın öz iqamətgahını Bayat qalasından Şahbulaq qalasına 1752-ci ildə köçürdüyünü yazır. O, “Qarabağ tarixi” adlı əsərindəki “Rəhmətlik Pənah xan tərəfindən Qarabağda inşa edilmiş abidələr və binalar haqqında” adlı bölmədə belə qeyd edir: “Pənah xanın göstərişi ilə daşdan Şahbulaq qalası, bulaq yanında məscid, hamam, şəhər binaları və bazar inşa edilmişdir”.

Burada bir haşiyə çıxıb qeyd edək ki, Bayat qalası Qarabağ xanlığı ərazisində salınmış ilk qala, o cümlədən ilk inzibati mərkəz idi. Kəbirli mahalında - Ağcabədi yaxınlığında 1748-ci ildə əsası qoyulmuş və beş il ərzində Qarabağ xanlığının siyasi və iqtisadi mərkəzi olmuşdur. Şahbulaq qalası kimi o da müdafiə məqsədilə inşa edilmiş, tikintiyə şəxsən xan özü nəzarət etmişdir. Qala divarlarının ətrafında düşmən hücumları zamanı içərisi su ilə doldurulan dərin və enli xəndək qazılmışdı. Lakin strateji mövqeyi zəif, iqlimi isti olduğundan orada uzun müddət böyük hərbi qüvvə saxlamaq mümkün deyildi.

“Qarabağnamə”lərin müəlliflərindən, tarixçi Mir Mehdi Xəzani Pənahəli xanın ilk iqamətgahının köçürülməsinin səbəbini dəqiq izah edərək yazır ki, “Bayat qalası aranda yerləşdiyinə və yay fəslində elatlar o ətrafda dayanmayıb yaylağa köçdüyünə görə zərurət olanda onlara əl yetişmirdi”. Mirzə Camal bəy Cavanşir Qarabaği isə bu barədə yazır ki, mərkəz Şahbulağa köçürülən kimi Pənahəli xanın əmri ilə Bayat qalası dağıdıldı.

Əsas mövzuya qayıtsaq, şərq memarlıq üslubunda, orta əsr qalalarına məxsus əzəmətli görünüşdə məşhur Şahbulaq qalası yerli inşaat materialları olan əhəngdən və dağ daşlarından inşa olunmuşdur. Bundan əlavə, Mirzə Camal bəy Cavanşirin yuxarıda adı keçən əsərində qeyd edildiyi kimi, kompleks yaşayış evləri, bazar meydanı, hamam və məsciddən ibarət idi. İki il içində tamamlanan kompleksin mühafizə divarlarının yaxınlığında xanın iqamətgahı - Qarabağ xan sarayı yerləşirdi.

Yığcam quruluşlu bu qala plana əsasən düzbucaqlı formada tikilmiş, kompleksin ətrafı mühafizə divarları, dairəvi və yarımsilindirik formalı nəzarətçi qüllələri ilə əhatə olunmuşdur. Qala divarları və qüllələr yuxarıya doğru bir qədər incələşib müdafiə tikililəri üçün səciyyəvi olan mazğal sırası və dişlərlə tamamlanırdı. Divarlar 7 metr, bürclər 8,5 metr hündürlükdədir. Giriş



*Şahbulaq qalasının cənub tərəfindən görünüşü*
*Rusiya hərb tarixçisi Vasili Pottonun eskizi, 1901-ci il*

qapısı şərq divarının ortasında olub xaricdən ona bitişik ikimərtəbəli qüllləvari həcmlərlə qorunurdu. Bu qüllənin üst qatı, yəqin ki, xan otağı olmuşdur. Həmin otağa qəsr həyətindən daş pilləkən qalxır. Qalanın şimal-qərbində, bulağın yaxınlığında kiçik ibadət zalından və küləfrəngidən ibarət çox da böyük olmayan Şahbulaq məscidi inşa edilmişdir.
3 il Qarabağ xanlığının mərkəzi olan Şahbulaq qalası əlçatmaz və ağaclarla bağlı olan bir ərazidə yerləşirdi. Sıldırımlı qayalarla hərtərəfli örtülmüşdü və təhlükəsiz yerdə idi, amma zaman keçdikdə anlaşıldı ki, Şahbulaq qalası da hücumların qarşısında tab gətirə bilmir və gələcək tarixi sinaqlara dözə bilməyəcək. Daha etibarlı, əlverişli və düşmən hücumu üçün əlçatmaz olan yeni bir şəhər-qala tikməyə məcbur qalan Pənahəli xan bu məqsədlə toplanmış məşvərətdə əyanlara müraciətlə demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir".
Uzun axtarışlardan sonra dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası xanlığın yeni paytaxtı üçün əlverişli hesab edildi və 1753-1754-cü illərdə onun tikintisinə başlanıldı.
Mirzə Camal bəy Cavanşir Qarabaği bu barədə yazır: "Xanın göndərdiyi bələdçilər ətrafı hərtərəfli öyrəndikdən sonra şad xəbərlə qayıdıb ona bildirdilər ki, yeni tikiləcək qalanın içində iki-üç bulaqdan başqa axar su yoxdur. Güman olunan yerlərdə quyu qazdılar və bu quyulardan bol su çıxdı. Bu xəbər Pənah xana çatdırıldı. Xan yaxın adamları ilə buraya gəldi, yerlə tanış olub, əzmlə qalanın binasını qoydu".
1756-1757-ci illərdə xanlığın paytaxtı Şahbulaq qalasından buraya köçürüldü. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və xanlığın daimi paytaxtı oldu. Burada yenə bir haşiyə çıxaraq qeyd etmək yerinə düşər ki, Pənahəli xan Bayat, Şahbulaq və Şuşa qalalarından əlavə, Əsgəran qalası və Qarabağ xan sarayının da yaradıcısıdır.
Tədqiqatçıların fikirlərinə görə, Şahbulaq qalasının memarlıq üslubu Qarabağ xanlığında inşa edilən bir sıra tikililərin, o cümlədən Şuşa şəhərinin inşaat işlərinə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Şuşa qalası bütün qaladaxili qəsrlərinin memarlıq-planlaşdırma və strukturu baxımından, demək olar ki, Şahbulaq qalasının xüsusiyyətlərini təkrarlayır. Şuşa keçilməz, əlçatmaz bir yerdə inşa edilmişdi, hətta ən güclü düşmənin belə onu mühasirəyə almasına imkan vermirdi.
Xanlığın inzibati mərkəzi Şuşaya köçürüldükdən sonra Şahbulaq qalası xanlığın yay iqamətgahına çevrildi. Müəyyən bir dövr ərzində yaşayış yeri kimi istifadə olunsa da, sonradan yalnız gözətçi məntəqəsi kimi xidmət göstərdi.
Şahbulaq qalası 1990-cı illərə - Ermənistanın Azərbaycanın tarixi torpaqlarında etnik zəmində təxribatları və hərbi təcavüzü başlayana qədər mühafizə edilib saxlanmışdı. SSRİ dövründə Ağdam



*Şahbulaq qalası, Qarabağ zəfərindən sonra*

rayonuna gələn bütün əcnəbi qonaqlar bu abidəni ziyarət edirdilər. Abidə kompleksi həmişə diqqət mərkəzində olduğundan, bir növ, Ağdam rayonunun simvolu idi.

1993-cü ildə Ağdamın Ermənistan silahlı qüvvələri tərəfindən işğalından sonra Şahbulaq qalasının memarlıq quruluşu ermənilər tərəfindən dəyişdirilmiş, abidənin daxilində olan məscid, hamam və bulaqlar dağıdılmışdır. Qalanın divarları üzərindən ornamental oymalar və yazılar silinmiş, mühafizə divarlarının bayır hissəsi, eləcə də daxili interyerləri söküləręk mişar daşları və erməni xaçları ilə əvəz olunmuş, qalaya aid bəzi mədəniyyət nümunələri Ermənistana aparılmışdır. İşğal dövründə təkcə qalanın memarlıq quruluşu deyil, adı da dəyişdirilmiş, tarix saxtalaşdırılmışdır. Möcüzəvi şəkildə burada guya e.ə. I əsrdə "Böyük Ermənistan"ın çarı II Tiqran tərəfindən salınmış mifik "Tiqranakert" şəhəri tapılmış, Şahbulaq qalası "Surenavan", ətraf əraziləri isə "Tiqranakert"adlandırılmışdır.

Ermənilər işğal edilmiş ərazilərdə qalan tarixi abidələri dağıtmaq və saxtalaşdırmaqla kifayətlənməyib bu ərazilərdə qanunsuz arxeoloji qazıntılar da aparmışdır. Məqsəd ermənilərin Qarabağa XIX əsrin əvvəllərindən etibarən köçürüldüyünə dair təkzibolunmaz tarixi faktları ört-basdır etmək, ermənilərin guya min illər boyu bu torpaqlarda yaşadıqlarına dair saxta tarixi dəlillər ortaya çıxarmaq, Qarabağın dağlıq hissəsinin və ona bitişik ətraf ərazilərin erməni torpaqları olması barədə iddiaları əsaslandırmaq idi. Qanunsuz arxeoloji qazıntılar əsasən 2000-ci illərin əvvəllərindən başlamış və Ermənistan hökuməti tərəfindən, İrəvandakı ictimai təşkilatların birliyi statusunu daşıyan "Erkir" təşkilatının vasitəsi ilə 2005-ci ildən başlayaraq maliyyələşdirilmişdir.

2006-cı ilin avqust ayında Ermənistan Ekspedisiya, Arxeologiya və Etnoqrafiya İnstitutunun bir qrup əməkdaşı işğal altındakı Ağdam rayonu ərazisinə, Şahbulaq yaylağına ezam edilmişdir. Onların qarşısında mifik "Böyük Ermənistan" dövlətinin paytaxtı "Tiqranakert"in izlərini tapmaq vəzifəsi qoyulmuşdu.

Qanunsuz arxeoloji kəşfiyyat ekspedisiyası qısa müddətdən sonra işğal altında olan Azərbaycan torpaqlarında antik dövrdə əsası qoyulan uydurma "Tiqranakert" şəhərinin qalıqlarının aşkar edildiyini dünyaya elan etdi. Beləcə rahatca fırıldağa əl atan, yalançı "Tiqranakert"in Şahbulaq qalasının olduğu ərazidə aşkar edildiyi barədə xəbər yayan ermənilər əldə etdikləri qazıntı materialları ilə bağlı belə bir mülahizə verdilər ki, "Tiqranakert" şəhərinin əsası e.ə. I əsrdə II Tiqran tərəfindən qoyulmuş, antik dövrdə şəhər eramızın XIV əsrinə qədər inkişaf etmişdir. Maraqlısı odur ki, bu uydurma məlumata görə 1400 ildən çox yaşamış bir şəhərə yazılı mənbələrin heç birində rast gəlinmir.

Lakin çox keçmədən onların bu "kəşfi" biabırçı faktla üzləşdi. Məlum oldu ki, ekspedisiya üzvləri qazdıqları çalalara müasir texnikanın köməyi ilə yonulmuş mişar daşları düzərək onları "tarixi dəlillər" kimi təqdim edirlər. Qazıntılarda iştirak edən xarici ölkə arxeoloqları bu biabırçı faktdan sonra ekspedisiyanı tərk etdilər. Şahbulaq qalasında aparılan qanunsuz qazıntılar 2020-ci ilin iyuluna kimi, tam 14 il davam etmişdir. Qazıntıların illərlə aparılması dünya ictimaiyyətinin aldadılmasına xidmət edirdi.

Bu qanunsuz arxeoloji qazıntılar nəticəsində Ağdam rayonunun hektarlarla ərazisi qazılaraq torpaqlar yararsız hala salınmış, Xocalı Mədəniyyətinə aid



*Şahbulaq qalası, Qarabağ zəfərindən sonra*



*Şahbulaq qalası, Qarabağ zəfərindən sonra*

15-dən çox kurqan (torpaq qəbirlər) dağıdılaraq yerlə yeksan edilmiş, qazıntı nəticəsində əldə edilən maddi sübutlar, aşkar edilmiş bütün artefaktlar, tapıntılar, mədəni dəyərlər qarət edilərək Ermənistana aparılmışdır.
İşğal dövründə qalaya turistlərin qazanc məqsədilə qanunsuz səfərləri də təşkil olunmuşdur. Bunu qalada aşkarlanan giriş biletləri də təsdiqləyir. Bundan əlavə abidə nişangah kimi də istifadə olunmuş, ağır artilleriya və tank atəşlərinə məruz qalmışdır. Nəticədə abidənin mühafizə divarlarına ciddi zərər dəymişdir.
Ermənilərin işğal altında tutduqları torpaqlarda həyata keçirdiyi dağıntıların miqyası tam olaraq Qarabağ Zəfərindən sonra üzə çıxdı. Bir daha məlum oldu ki, otuz ilə yaxın davam edən işğal müddətində Azərbaycan ərazilərində, xüsusilə Ağdam nümunəsində böyük dağıntılar həyata keçirilmiş, mövcud olan infrastruktur demək olar ki, tamamən məhv edilmişdir. Ağdam şəhəri, onun qədim keçmişinin şahidi olan çox sayda tarixi abidə, mədəniyyət, memarlıq nümunələri, keçmiş SSRİ-də birinci, dünyada ikinci olan Çörək Muzeyi vəhşicəsinə dağıdılmış, bioloji müxtəlifliyə, flora və fauna növlərinə, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulmuşdur.
Qələbədən sonra Ağdama səfər edən xarici media nümayəndələri Ağdamı "Qafqazın Xirosiması" ya da "Ruhlar şəhəri" adlandırırlar. Erməni işğalı nəticəsində Ağdama dəyən ziyanın məbləği təxminən 13 milyard 135 milyon ABŞ dolları təşkil edir.
BMT-nin hesablamalarına görə işğal nəticəsində Azərbaycana dəymiş iqtisadi zərərin miqdarı 53.5 milyard ABŞ dolları həcmindədir. İşğal nəticəsində bütün istiqamətlər üzrə Azərbaycana dəymiş zərər isə daha böyük rəqəmlərlə ölçülür. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsasən işğal nəticəsində Azərbaycanın ekologiyasına və təbii sərvətlərinə ümumilikdə 265 milyard dollar ziyan dəyib. Hərbi Prokurorluq tərəfindən aparılmış kompleks məhkəmə ekspertizasının ilkin hesablamalarına görə isə bütün istiqamətlər üzrə dəymiş maddi ziyanın ümumi həcmi 819 milyard dollar təşkil edir.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən 10 noyabr 2020-ci il tarixində imzalanan və keçmiş Dağlıq Qarabağ münaqişəsi zonasında bütün hərbi əməliyyatları tam dayandıran atəşkəs bəyanatının şərtlərinə əsasən Azərbaycan Silahlı Qüvvələri 20 noyabr 2020-ci il tarixində Ağdam şəhərinə daxil olmuşdur. Bununla şəhərin 27 illik işğalına son qoyulmuş, Ağdamda Azərbaycan bayrağı ucaldılmışdır.
Azərbaycanın Vətən Müharibəsindəki hərbi-siyasi zəfərinin ardından Ermənistan işğalından azad olunan Şahbulaq qalasına da Azərbaycan bayrağı sancılmışdır. İndi, Ağdamda, o cümlədən Şahbulaq qalasında dövlət bayrağımız qürurla dalğalanır. Ağdamda bərpa-yenidənqurma işləri aparılır, yeni infrastruktur qurulur, şəhər dirçəldilir. Xalqımız bu görüntüləri fəxrlə və böyük sevinclə izləyir.
Azərbaycan ordusu Ağdama daxil olduqdan sonra erməni təbliğatı Azərbaycanın Ağdam yaxınlığındakı Şahbulaq kəndində yerləşən "antik erməni şəhəri Tiqranakert"i məhv edə biləcəyi barədə hay-küy qaldırdı. 2020-ci ilin dekabr ayında Azərbaycan Respublikasının Mədəniyyət və Müdafiə nazirliklərinin dəstəyi ilə bir qrup tədqiqatçı Ağdam rayonunun işğaldan azad edilmiş hissəsini ziyarət etdilər. Səfərin əsas məqsədi Şahbulaq kəndi və ətrafındakı abidələrlə bağlı vəziyyəti öyrənmək və qeyd etmək idi. Qazıntı ərazisində olan tədqiqatçılar qondarma "Tiqranakert"in Şahbulaq qala kompleksinin, daha doğrusu onun ictimai binalarının bir hissəsi olduğunu aydınlaşdırdı. Erməni arxeoloqları tikililərin qalıqlarına yeni arxeoloji formalar vermiş, bəzi memarlıq elementlərini ləğv edib yerinə yeni "antik" elementlər əlavə etmişdilər. Hətta burada yerləşən şərq hamamı və ovdan xarabalıqlarını V-VI əsrlərə aid xristian məbədinin qalıqları kimi təqdim etmiş və daha inandırıcı olması üçün yaxınlığına üzərində erməni xaçı olan "qədim" daş yerləşdirmişdilər.
Vətən Müharibəsinin zəfərlə başa çatmasından sonra Azərbaycan öz torpaqlarını azad etməklə dayanıqlı sülhə, tərəqqiyə əsaslanan, bir çox ölkələrə



*Şahbulaq qalası, 28 may 2021-ci il*

nümunə olan, irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən tarixi inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. 2030-cu ilədək Azərbaycanın beş Milli Prioritetindən biri işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın həyata keçirilməsidir. Bu ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün tapşırıqlar verilmiş, "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesi başlanmışdır.

Dağıntıların hərtərəfli və miqyasının böyük olması azad edilmiş ərazilərin bərpası prosesini mürəkkəb və zaman alan prosesə çevirir. Ona görə də bərpa prosesinin müxtəlif iqtisadi və sosial istiqamətlər üzrə həyata keçirilir.

Dövlət başçısı İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə davamlı xarakter alan səfərləri 30 ilin torpaq həsrətinin aydın ifadəsini yaradır. Cənab Prezident işğaldan azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına xüsusi diqqət yetirir, quruculuq və abadlıq işlərinə səfərləri zamanı start verir. İşğaldan azad olunmuş şəhər və kəndlərin baş planlarının hazırlanması da ölkə başçısının bu məsələləri daim diqqətdə saxladığının təzahürüdür.

Prezident İlham Əliyev Qarabağ zəfərindən bir neçə ay sonra, 2021-ci il mayın 28-də Şahbulaq qalasında olmuş, dövlət başçısına abidənin yenidənqurma planı təqdim edilmişdir. Cənab Prezident qalanı növbəti dəfə 2024-cü il aprelin 25-də Qırğızıstan Respublikasının Prezidenti Sadır Japarovla birlikdə ziyarət etmiş, dövlət başçılarına qalanın bərpası işləri barədə məlumat verilmişdir. Bildirildi ki, hazırda abidədə Azərbaycan dövləti tərəfindən bərpa işləri aparılır. Burada 12 hektar ərazi abadlaşdırılmış, inzibati bina, bilet satışı məntəqəsi, avtodayanacaq tikilmişdir. Şahbulaq iqamətgahı, Şah Abbas məscidi, restoran, otel kompleksi, söhbətgahlar, tədbir meydançası və anbar binası yaradılmışdır. Azərbaycan dövləti işğaldan azad edilmiş əraziləri bölgənin ən inkişaf etmiş ərazilərindən birinə çevirməyi qarşıya məqsəd kimi qoymuşdur. Azad edilmiş ərazilərin bərpasının əsas istiqamətlərindən biri də infrastruktur layihələri ilə yanaşı, tarixi və mədəniyyət abidələrinin inventarlaşdırılması, mühafizəsi, o cümlədən bərpası istiqamətində genişmiqyaslı işlər həyata keçirilməsidir. 10 min kvadratkilometr ərazidə aparılan böyük tikinti-quruculuq işlərinin sayəsində Qarabağ və Şərqi Zəngəzur başdan yaradılır, çoxsaylı yaşayış məntəqəsi yenidən qurulur. Bu yerlərdə böyük infrastruktur layihələri həyata keçirilir, avtomobil və dəmir yolları, uzunluğu kilometrlərlə ölçülən nəhəng tunellər çəkilir, su anbarları, məktəblər, xəstəxanalar, beynəlxalq hava limanları tikilib istifadəyə verilir. Həmçinin bu ərazilərdə nəinki Azərbaycanda, Cənubi Qafqazda ilk dəfə olaraq "ağıllı kənd və şəhərlər" salınır. Çox qısa zamanda Qarabağ və Şərqi Zəngəzurda iki beynəlxalq hava limanı - Füzuli və Zəngilan Hava limanları tikilərək istifadəyə verilib ki, bu da bölgənin hərtərəfli inkişafına mühüm töhfədir. Laçında isə daha bir beynəlxalq hava limanının tikintisi sürətlə həyata keçirilir.

İnfrastrukturun qurulması ilə yanaşı tarixi, dini, mədəni abidələrimiz bərpa olunur. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə edir. İşğaldan azad edilmiş ərazilərdəki bütün dini və tarixi abidələr kimi Şahbulaq qalası da indi ikinci baharını yaşayır.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Şahbulaq qalasında 25 aprel 2024-cü il**











# Azərbaycan Universiteti
# Bakalavriat ixtisasları

## I qrup

-İnformasiya təhlükəsizliyi, Azərbaycan bölməsi, Əyani
-İnformasiya təhlükəsizliyi, ingilis bölməsi, Əyani

-İnformasiya texnologiyaları, Azərbaycan bölməsi, Əyani
-İnformasiya texnologiyaları, Azərbaycan bölməsi, Qiyabi

-Kompüter mühəndisliyi*, Azərbaycan bölməsi, Əyani

*** Ukraynanın Xarkov Milli Radioelektronika Universiteti (XNURE) ilə birgə ikili diplom proqramı*

## I I qrup

-Beynəlxalq ticarət və logistika, Əyani

-Biznesin idarə edilməsi, Azərbaycan bölməsi, Əyani
-Biznesin idarə edilməsi, Azərbaycan bölməsi, Qiyabi
-Biznesin idarə edilməsi, ingilis bölməsi, Əyani

-İqtisadiyyat, Azərbaycan bölməsi, Əyani
-İqtisadiyyat, ingilis bölməsi, Əyani

-Maliyyə, Azərbaycan bölməsi, Əyani
-Maliyyə, ingilis bölməsi, Əyani

-Marketinq, Azərbaycan bölməsi, Əyani
-Marketinq, Azərbaycan bölməsi, Qiyabi
-Marketinq, ingilis bölməsi, Əyani

-Menecment, Azərbaycan bölməsi, Əyani

-Mühasibat, Azərbaycan bölməsi, Əyani
-Mühasibat, Azərbaycan bölməsi, Qiyabi
-Mühasibat, ingilis bölməsi, Əyani

-Turizm işinin təşkili, Azərbaycan bölməsi, Əyani
-Turizm işinin təşkili, ingilis bölməsi, Əyani
-Turizm işinin təşkili, Azərbaycan bölməsi, Qiyabi

## I I I qrup

-Korreksiyaedici təlim, Əyani
-Təhsildə sosial-psixoloji xidmət, Əyani
-Beynəlxalq münasibətlər, Əyani
-Dövlət və ictimai münasibətlər, Əyani
-Fəlsəfə, Əyani
-Filologiya (Azərbaycan dili və ədəbiyyatı), Əyani
-Filologiya (ingilis dili və ədəbiyyatı), Əyani
-Politologiya, Əyani
-Regionşünaslıq (Avropa ölkələri üzrə), Əyani
-Tarix, Əyani
-Tərcümə (ingilis dili), Əyani
-Muzey, arxiv işi və abidələrin qorunması, Əyani

-Sosial iş, Azərbaycan bölməsi, Əyani
-Sosial iş, Azərbaycan bölməsi, Qiyabi
-Sosial iş, ingilis bölməsi, Əyani

# Azərbaycan Universiteti
# Magistratura ixtisasları

-Ədəbiyyatşünaslıq (Amerika ədəbiyyatı)
-Ədəbiyyatşünaslıq (ingilis ədəbiyyatı)
-Azərbaycan dili
-Azərbaycan ədəbiyyatı
-Dilşünaslıq (ingilis dili)
-Tərcümə (ingilis dili)
-Azərbaycanın qədim və orta əsrlər tarixi
-Azərbaycanın yeni və ən yeni tarixi

-Bank işi
-Vergi və vergiqoyma
-İqtisadiyyatın hüquqi tənzimlənməsi
-Turizmin iqtisadiyyatı
-Heyətin idarə edilməsi, Azərbaycan bölməsi
-Heyətin idarə edilməsi, ingilis bölməsi
-Menecment (sahələr üzrə), Azərbaycan bölməsi
-Menecment (sahələr üzrə), ingilis bölməsi

-Kompüter mühəndisliyi
-Kibertəhlükəsizlik

-Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş
-Gənclərlə iş
-Təhsildə sosial-psixoloji xidmət

## MBA proqramı (Azərbaycan və ingilis bölmələri üzrə)

-Biznesin təşkili və idarə edilməsi (Maliyyə sahəsi üzrə), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (Maliyyə sahəsi üzrə), ingilis bölməsi

-Biznesin təşkili və idarə edilməsi (Vergi üzrə), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (Vergi üzrə), ingilis bölməsi

-Biznesin təşkili və idarə edilməsi (Mühasibat uçotu üzrə), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (Mühasibat uçotu üzrə), ingilis bölməsi

-Biznesin təşkili və idarə edilməsi (Menecment üzrə), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (Menecment üzrə), ingilis bölməsi

-Biznesin təşkili və idarə edilməsi (Marketinq üzrə), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (Marketinq üzrə)*, ingilis bölməsi

-Biznesin təşkili və idarə edilməsi (İnsan resurslarının idarə edilməsi), Azərbaycan bölməsi
-Biznesin təşkili və idarə edilməsi (İnsan resurslarının idarə edilməsi), ingilis bölməsi

** Bu ixtisasın tədrisi Azərbaycan Universiteti və İtaliyanın Tuscia Universiteti ilə birgə Beynəlxalq İkili Diplom Proqramı əsasında həyata keçirilir.*

# Azərbaycan Universiteti
# Fəlsəfə doktoru proqramı üzrə
# doktorantura və dissertantura ixtisasları

## Fəlsəfə doktoru proqramı üzrə doktorantura ixtisasları

**İqtisad elmləri**
-İqtisadi fəaliyyət növləri, qiyabi, ödənişli əsaslarla
-Ümumi iqtisadiyyat, qiyabi, ödənişli əsaslarla

**Tarix elmləri**
-Vətən tarixi, qiyabi, ödənişli əsaslarla

**Filologiya elmləri**
-German dilləri, qiyabi, ödənişli əsaslarla

**Siyasi elmlər**
-Beynəlxalq münasibətlər, qiyabi, ödənişli əsaslarla

## Fəlsəfə doktoru proqramı üzrə dissertantura ixtisasları

**Riyaziyyat elmləri**
-Diferensial tənliklər, qiyabi, ödənişli əsaslarla

**İqtisad elmləri**
-Sahə iqtisadiyyatı, qiyabi, ödənişli əsaslarla

**Filologiya elmləri**
-Dil nəzəriyyəsi, qiyabi, ödənişli əsaslarla
-Müqayisəli, qiyabi, ödənişli əsaslarla
-TAzərbaycan ədəbiyyatı, qiyabi, ödənişli əsaslarla














**Ali Təhsil Müəsisələrinin Sərgisi**
**31 iyul-2 avqust 2024-cü il**

Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda keçirilən sərgidə Azərbaycan Universitetinin stendinə müraciət edən abituriyent və valideynlərə universitet haqqında məlumat verilib, qəbul qaydaları, tədris olunan ixtisaslar, maddi-texniki baza, təhsil haqları, güzəştlər, təqaüd proqramları, beynəlxalq əlaqələr və digər məsələlərlə bağlı onları maraqlandıran suallar cavablandırılıb. Stendi ziyarət edənlər arasında universitetin məzunları, məktəb direktorları, müəllimlər, repititorlar, kurs rəhbərləri, sektorun mütəxəssisləri, abituriyentlər, valideynlər və şagirdlər olub.

Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbasova stendlərə baxış keçirib, o cümlədən Azərbaycan Universitetinin stendini ziyarət edərək sərginin gedişatı ilə tanış olub. Sərgidə ölkədə fəaliyyət göstərən 40-a yaxın dövlət və özəl ali təhsil müəssisəsi, Dövlət İmtahan Mərkəzi, Tələbə Təhsil Kredit Fondu, "Abituriyent" jurnalı redaksiyası, e-psixoloq.az platforması və otk.az onlayn sınaq imtahanı portalı da təmsil olunub.

## "Qarabağın dirçəlişi – ekolayihələr"
## Ən yaxşı tələbə elmi işi müsabiqəsi
## Aprel – iyun 2024-cü il

Azərbaycan Universitetinin işğaldan azad olunmuş torpaqlarda başlanan quruculuq işlərində gənclərin aktiv iştirakının təmin edilməsi məqsədilə keçirdiyi və iki turdan ibarət olan müsabiqəyə 50-yə yaxın layihə təqdim olunub. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində elan edilən müsabiqə iki turdan ibarət olub. Birinci turda layihələrin təqdimatları münsiflər heyəti tərəfindən əvvəldən müəyyənləşdirilən meyarlara uyğun olaraq qiymətləndirilib və layihələrdən 10-u II mərhələyə adlayıb.
Müsabiqə mükafatlandırma mərasimi ilə başa çatıb. Tədbirdə müsabiqənin qalibləri və xüsusi nominasiyalara layiq görülənlər elan olunub, onlara müvafiq sertifikat, pul mükafatı (I yer – 1000 manat; II yer – 800 manat; III yer – 600 manat) və müxtəlif hədiyyələr təqdim olunub. Münsiflər heyətinin qərarına əsasən I və II yerlərə Bakı Ali Neft Məktəbinin tələbələri layiq görülüb. Azərbaycan Universitetinin bir qrup tələbəsinin təqdim etdiyi "Smart Kənd" layihəsi isə III yeri tutub.


















**"Qarabağın dirçəlişi – ekolayihələr"**
**Ən yaxşı tələbə elmi işi müsabiqəsinin qalibləri**

**I yer:** Fərəcov Ruhan, Fərzalızadə Şamil (Bakı Ali Neft Məktəbi)
Qarabağın meşə massivinin bərpası üçün yerli xammal əsasında yeni boy stimullaşdırıcı reagentlərin hazırlanması

**II yer:** Murtuzov Ruslan (Bakı Ali Neft Məktəbi)
Piezoelektrik effektinin panel-döşəmə sxemində tətbiqi və alternativ enerji mənbəyinin yaradılaraq ağıllı şəhər konsepsiyasında istifadəsi

**III yer:** Bayramov Eyvaz, Mirzəyev Əlihüseyn, İsmayılov Sənan, Məmmədov Nadir, Qasımov Amil, Veyisova Ülkər (Azərbaycan Universiteti)
Smart Kənd

**Ən innovativ layihə: Emil Şükürov (Mingəçevir Universiteti) -** Ağıllı zibil qabı

**Ən interaktiv təqdimat:** Əhmədov Rəhman, Orucov Nazim (Azərbaycan Texniki Universiteti)
Azərbaycan Respublikasında aşağı temperaturlu geotermal sulardan elektrik və istilik enerjisi istehsalı

**"Nokia" şirkətinin xüsusi mükafatı:** Əbdüləzimova Aysel (Azərbaycan Dövlət İqtisad Universiteti), Bağırova Zeynəb (Azərbaycan Memarlıq və İnşaat Universiteti)
"Smart City" layihələrinin memarlıq üstünlükləri və onların Qarabağ İqtisadi Rayonunda tətbiqi








**VIII Karyera Günü**
**31 may 2024-cü il**

Karyera İnkişafı Departamenti tərəfindən bu il səkkizincisi təşkil olunan ənənəvi tədbirdə 40-a yaxın şirkət və təşkilat təmsil olunub.

Tədbir tələbələrə əmək bazarının müasir çağırış və tələbləri ilə yaxından tanış olmaq, işəgötürənlərlə birbaşa ünsiyyət qurmaq imkanı yaradıb. Tədbirdə müxtəlif profilli şirkət, idarə və müəssisələr, dövlət orqanları, təhsil müəssisələri və bu kimi qurumlar iştirakçılara vakansiyalarını, tələbələr üçün nəzərdə tutulan təcrübə və təqaüd proqramlarını təqdim ediblər.

Tədbirdə təmsil olunan şirkət və təşkilatların nümayəndələri, insan resursları üzrə menecerlər iştirakçıların işə müraciət və təcrübə keçmək üçün doldurduqları anketləri və hazırladıqları CV-ləri qəbul edib, onlara işə qəbul prosesinin qaydaları və mərhələləri, iş müsahibələrinə hazırlaşma haqqında məsləhət və tövsiyələrini verib, sualları cavablandırıblar.

Ənənəvi tədbirin məqsədi tələbə və məzunlara müvafiq platforma təqdim etməklə onların iş dünyasına çıxışının dəstəklənməsi, gənclərin istedad, bacarıq və imkanlarını qiymətləndirmələrinə kömək göstərilməsidir.









**AzEdu.az təhsil portalı "Brend tələbə"ləri təltif edib**

AzEdu.az təhsil portalı və ali məktəblərin birgə təşkilatçılığı ilə həyata keçirilən "Brend tələbə" layihəsi çərçivəsində Azərbaycan Universitetinin xüsusi meyarlara uyğun seçilən tələbələri mükafatlandırılıb.

Təltifetmə mərasimində AzEdu.az təhsil portalının təsisçisi, Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlı, portalın müxbiri Sifayə Abbaslı, Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov, rektorun müşaviri Nüşabə Quliyeva, İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin dekanı Asif Paşayev, Biznes və iqtisadiyyat fakültəsinin dekanı Xanım Quliyeva və bu statusa layiq görülmüş tələbələr iştirak ediblər.

Tədbirdə portalın təsisçisi Elşad Eyvazlı layihə haqqında məlumat verib, Azərbaycan Universitetinin "Brend tələbə" statusuna layiq görülmüş tələbələrini təqdim edib. Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru Yusif Qasımov layihənin tələbələr arasında rəqabət mühiti yaratmaq və motivasiya baxımından mühüm rol oynayacağını vurğulayıb, layihəyə Azərbaycan Universitetini də daxil etdikləri üçün portal rəhbərinə təşəkkür edib.

Sonda isə "Brend tələbə"lərə təltifnamələri təqdim olunub və xatirə şəkli çəkilib.

**Azərbaycan Universitetinin "Brend tələbə" statusuna layiq görülən tələbələri:**

Rəsul Dadaşov (TGT sədri, Dövlət və ictimai münasibətlər, III kurs)
Emil Muradlı (Tarix, III kurs)
Şirxan Aslanov (Dövlət və ictimai münasibətlər, III kurs)
Marina Nasibova (Maliyyə, tədris ingilis dilində, IV kurs)
Vaqif Qocayev (Marketinq, II kurs)
Aida Aslanova (Turizm işinin təşkili, IV kurs)
Sənan İsmayılov (Kompüter mühəndisliyi, III kurs)
Ülvi Sadıqzadə (İnformasiya texnologiyaları, II kurs)
Abdulvahab Poladzadə (İnformasiya texnologiyaları, II kurs)
Hacı Soduyev (Magistratura, Gənclərlə iş, I kurs)









**"Yaşıl turizm: yeni imkanlar, yeni trendlər"**
**Tələbə konfransı**
**19 aprel 2024-cü il**

Azərbaycanda yaşıl iqtisadiyyat və ekoloji turizmin inkişafı ilə bağlı aktual mövzuların müzakirə olunduğu konfransa turizm təhsili verən ali təhsil müəssisələri - Azərbaycan Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Xəzər Universiteti və Sumqayıt Dövlət Universitetindən 60-a yaxın tezis qəbul olunub.

Tədbirin açılış mərasimində Azərbaycan Universitetinin elmi işlər üzrə prorektoru, riyaziyyat elmləri doktoru Yusif Qasımov salamlama nitqi ilə çıxış edib. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi nəzdində Azərbaycan Turizm Bürosunun Sənayenin İnkişafı Departamentinin mütəxəssisi Günay Həsənovanın çıxışı ölkənin turizm sənayesinin uğurlarına həsr olunub.

Azərbaycan Turizm və Menecment Universitetinin Mehmanxana və restoran biznesi kafedrasının müdiri, professor Novruz Quliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin İctimai idarəetmə və sosial innovasiyalar kafedrasının müdiri, dosent Elşən Məmmədov, Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin dekanı, professor Ceyhun Məmmədov çıxışlarında konfransın olduqca aktual mövzunun müxtəlif sahələri üzrə müzakirələrin aparılacağı vacib platforma olduğunu diqqətə çatdırıblar.

Açılışın ardından başlayan bölmə iclaslarında konfransa təqdim olunan tezislərin təqdimatı olub, təqdimatlar ətrafında müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycan Universitetinin Tələbə Elmi Cəmiyyətinin təşəbbüsü ilə təşkil olunan konfransın məqsədi Azərbaycanın müxtəlif universitetlərində, bakalavriat və magistratura pillələrində təhsil alan tələbələrin elmi-tədqiqat fəaliyyətinə cəlb edilməsi, onlarda tədqiqatçılıq bacarıqlarının formalaşdırılması, peşə biliklərinin dərinləşdirilməsi və genişləndirilməsi, natiqlik bacarıqlarının inkişaf etdirilməsidir.













**Tələbələr arasında "Yaşıl dünya naminə" adlı bilik yarışı keçirilib**

Tələbələrin ekoloji savadlılığının artırılması, iqlim dəyişmələrinin ortaya çıxardığı fəsadlar və təhlükələr haqqında məlumat əldə etmələrini təmin etmək və onları bu sahədəki mövcud ədəbiyyatı mütaliəyə yönləndirmək məqsədilə təşkil olunan yarışda 8 komanda (Ekologiya, Green Guardians, Flora Force, Harmoniya, Yaşıl gələcək, Yaşıl planet, Xarıbülbül və Yaşıl dünyamız) iştirak edib. Hər komanda 1 nəfər kapitan olmaqla 5 üzvdən ibarət olub.

Bilik yarışında komandalar yaşıl enerji, COP və COP29, iqtisadiyyat, informasiya-kommunikasiya texnologiyaları, Qarabağa qayıdış mövzularında sualları cavablandırıblar. 3 turdan ibarət olan bilik yarışında komandaların hər doğru cavabı münsiflər heyəti tərəfindən 1 balla qiymətləndirilib.

Həyəcanlı və maraqlı keçən yarışın finalçıları "Ekologiya" və "Green Guardians" komandaları olub. Final görüşü "Green Guardians" komandasının üstünlüyü ilə başa çatıb və münsiflər heyəti "Green Guardians" komandasını bilik yarışının qalibi elan edib.



**COP29 simulyasiya layihəsi**
**Mart-may 2024-cü il**

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi və ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar olaraq Azərbaycan Universitetində "COP29 simulyasiya" layihəsi həyata keçirilib. Sosial Tədqiqatlar Mərkəzinin tərəfdaşlığı ilə həyata keçirilən və Azərbaycanda bir ilk olan layihədə 6 ali təhsil müəssisəsindən (Azərbaycan Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Mühəndislik Universiteti) 30 tələbə iştirak edib. Layihənin iştirakçısı olan tələbələr 3 ay davam edən təlimlərdə COP29 simulyasiyasının Zirvə Toplantısına hazırlaşıblar.

**COP29 simulyasiyasının Zirvə Toplantısı**
**1 iyun 2024-cü il**

COP29 simulyasiyasının Zirvə toplantısı rəsmi və sərbəst olmaqla iki sessiyadan ibarət olub. Tədbirdə konfransın əsas iştirakçısı 15 dövlət, müşahidəçi statusuna malik 13 beynəlxalq və yerli qeyri-hökumət təşkilatı, eləcə də 2 media qurumunu təmsil edən tələbələr tərəflərin adından məruzə ilə çıxış edib, ölkələr arasında ekoloji əməkdaşlıq, yaşıl enerjiyə və yaşıl iqtisadiyyata keçid, müharibələrin iqlim dəyişikliyinə təsiri kimi məsələləri müzakirə ediblər.

Sonda Yekun Bəyanat qəbul edilib.

Simulyasiyanın məqsədi dövlətlərin siyasi qərarlarının ətraf mühitə və planetə təsiri və nəticələri ilə bağlı biliklərin tələbələrə ötürülməsi, onlarda natiqlik, arqument formalaşdırmaq və debat aparmaq bacarıqlarının inkişaf etdirilməsi və qeyd olunan beynəlxalq tədbirlə bağlı tələbələrin maarifləndirilməsidir.















«АККРЕДИТТЕУ ЖӘНЕ РЕЙТИНГТІҢ ТӘУЕЛСІЗ АГЕНТТІГІ» КЕМ

НУ «НЕЗАВИСИМОЕ АГЕНТСТВО АККРЕДИТАЦИИ И РЕЙТИНГА»

INDEPENDENT AGENCY FOR ACCREDITATION AND RATING

INTERNATIONAL PROGRAM ACCREDITATION

# CERTIFICATE

This is to certify that

**the program**

**050807 Social Work**

**(Level: Bachelor's degree)**

**of**

## AZERBAIJAN UNIVERSITY

**has been accredited for 5 years**

(Minutes of the Accreditation Council of the IAAR No. 74 from 26/05/2023)

License: № №088836, 24.02.2016

Certificate validity period:
26.05.2023 - 25.05.2028

Date of issue: 26.05.2023

Registration №: AB 4687

General Director — A. Zhumagulova

Chair of the Accreditation Council — K. Bozymov

Recognised by the World Federation of Medical Education (WFME)

Registered on the European Quality Assurance Register in Higher Education (EQAR)

Member of the European Association for Quality Assurance in Higher Education (ENQA)

WORLD FEDERATION FOR MEDICAL EDUCATION

European Quality Assurance Register for Higher Education

## Şəhid Fəxrəddin Qurbanlı adına Təqaüd

“Şəhid Fəxrəddin Qurbanlı adına Təqaüd” Azərbaycan Universiteti tərəfindən 2016-cı ildə təsis olunub. Təqaüd 2016/2017-ci tədris ilindən başlayaraq birinci tədris ilinin birinci semestrində universitetə ən yüksək göstərici ilə qəbul olmuş tələbəyə verilir. Təqaüdün ümumi məbləği 500 manat təşkil edir.

## Şəhid Fəxrəddin Qurbanlı haqqında

Fəxrəddin Seyfəddin oğlu Qurbanlı 1994-cü ildə Bakı şəhərinin Binəqədi rayonunda anadan olub. Qorxmaz Baxşıyev adına 179 nömrəli tam orta məktəbi bitirib.
2011-ci ildə Azərbaycan Universitetinin Sosial iş ixtisasına qəbul olub. Əlaçı və nümunəvi tələbə olub. “Hüquq Dünyası” Hüquqi Təbliğat İctimai Birliyi, “SOS” Uşaq Kəndləri, UAFA (United Aid For Azerbaijan - Azərbaycana birgə yardım) kimi təşkilat və layihələrdə könüllü kimi işləyib.
2015-ci ildə Sosial iş fakültəsindən üçüncülüklə məzun olub. Həmin ilin iyul ayında hərbi xidmətə yollanıb. 2016-cı il aprel ayının ilk günlərində təmas xəttinin Tərtər istiqamətində erməni hərbi birləşmələrinin təxribatının qarşısını alarkən şəhid olub. Sabunçu rayon Pirşağı qəsəbəsindəki kənd qəbiristanlığında dəfn edilib. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif olunub.
Xatirəsini ehtiramla yad edirik!
Allah rəhmət eləsin!

## Şəhid Fəxrddin Qurbanlı təqaüdünə layiq görülən tələbələrimiz



2016/2017-ci tədris ili
**Ruzigar Asəf oğlu Şirinov**
Maliyyə (tədris ingilis dilində)



2017/2018-ci tədris ili
**Günay Əfqan qızı İbrahimli**
Sosial iş



2018/2019-cu tədris ili
**Sənan Nadir oğlu Fərmanlı**
Filologiya (Azərbaycan dili və ədəbiyyatı)



2019/2020-ci tədris ili
**Zivər Məzahir qızı Məmmədova**
Tərcümə (ingilis dili)



2020/2021-ci tədris ili
**Marina Teymuraz qızı Nasibova**
Maliyyə (tədris ingilis dilində)



2021/2022-ci tədris ili
**Murad İlham oğlu Tağıyev**
Sosial iş



2022/2023-cü tədris ili
**Səfəralı Səbuhi oğlu Qeybullayev**
Tərcümə (ingilis dili)



2023/2024-cü tədris ili
**Nəzrin Yalçın qızı Oruclu**
Tərcümə (ingilis dili)



2024/2025-cü tədris ili
**Səid Akşin oğlu Məhərrəmli**
Sosial iş (tədris ingilis dilində)

# ERASMUS TƏLƏBƏLƏRİNİN TƏƏSSÜRATLARI

*Tələbələrimiz Cevdet Deniz Zafer və Məleykə Süleymanova 2023/2024-cü tədris ilinin payız semestrində, Nurlan Mədətxanov və Natəvan Pirili isə yaz semestrində "Erasmus+" tələbə mübadilə proqramı çərçivəsində xaricdə oxuyub.*
*Kompüter mühəndisliyi ixtisası üzrə II kurs tələbəsi Cevdet Deniz Zafer İtaliyanın Sapienza Universitetində, MBA proqramının (Maliyyə, ingilis dilində) II kurs tələbəsi Məleykə Süleymanova Rumıniyanın Qərbi Timişoara Universitetində, İqtisadiyyat ixtisası üzrə II kurs tələbəsi Nurlan Mədətxanov Türkiyənin Anadolu Universitetində, Marketinq (ingilis bölməsi) ixtisası üzrə II kurs tələbəsi Natəvan Pirili isə Almaniyanın Koblenz Universitetində təhsil alıb.*
*Vətənə qayıdaraq təhsillərini Azərbaycan Universitetində davam etdirən Erasmus tələbələrimiz xaricdə təhsil haqqında təəssüratlarını oxucularımız ilə bölüşürlər.*



**Cevdet Deniz Zafer:**
"Sapienza Universitetinin qədimliyi və müasirliyi özündə birləşdirən Romada yerləşməsi ona əlavə üstünlüklər qazandırır. Deyə bilərəm ki, burada özümü heç yad hiss etmədim, uyğunlaşma prosesi tez və asan oldu. Həm yeni biliklər əldə etdim, həm də yeni insanlar və yeni mədəniyyətlər tanıdım. Romada təməli qoyulan dostluqlar Azərbaycana qayıtdıqdan sonra da davam edir".




**Məleykə Süleymanova:**
"Xaricdə təhsil mədəni mübadilə üçün əvəzolunmaz platformadır. Təkcə akademik təkmilləşməyə deyil, həm də şəxsi inkişafa və mədəniyyətlərarası dialoqa kömək edir. Burada həm beynəlxalq tələbələr, həm də yerli icma üzvləri ilə ünsiyyət, birgə tədbirlərdə iştirak etmək perspektivlərimi genişləndirdi, Rumıniyanı yaxından tanımağıma, bu ölkənin mədəniyyətini daha yaxşı başa düşməyimə kömək etdi. Mənə Qərbi Timişoara Universitetinin icmasının üzvü olmaq fürsəti yaratdığına görə Azərbaycan Universitetinin rəhbərliyinə və Beynəlxalq Əlaqələr Şöbəsinin əməkdaşlarına təşəkkür edirəm".



**Nurlan Mədətxanov:**
"Erasmus bir gəncin həyatda maraqlı, rəngarəng və həyəcanlı təcrübələr yaşaya biləcəyi əvəzolunmaz platformadır. Erasmus tələbəsi olmaqla siz bilik və bacarıqlarınızı artıra, dil biliklərinizi inkişaf etdirə, fərqli mədəniyyətlərdən insanlarla tanış olub yeni dostluqlar qazana bilərsiniz. Bu proqram mənə tam da bunları yaşatdı. Həmçinin Türkiyəni daha yaxından tanımaq və kəşf etmək imkanı yaratdı".



**Natəvan Pirili:**
"Almaniyada təhsil almaq mənim üçün çox səmərəli və maraqlı bir təcrübə oldu, həmçinin universitetin təhsil prosesi, tələbələr üçün yaradılan mühit məni həqiqətən məmnun etdi. Burada təhsil almağın ən yaxşı tərəfi praktikaya üstünlük verilməsidir. Beynəlxalq tələbələrlə birlikdə təhsil almaq isə mənə dünyanın hər yerindən insanlarla tanış olmaq, mədəniyyətləri kəşf etmək və öyrənmək imkanı verdi. Bu əvəzedilməz, möhtəşəm təcrübəni yaşadığım üçün çox şanslıyam".

## Danışıq klubu tələbələrin ingilis dili biliklərini təkmilləşdirir



Xarici Dillər kafedrasının təşəbbüsü və təşkilatçılığı ilə yaradılmış "Conversation Club" fəaliyyətini 2023/2024-cü tədris ilində davam etdirib. Tədris ilinin "Mədəniyyət" (Culture) mövzusunda təşkil olunan ilk klubuna Mərakeşdən olan tələbəmiz Lahgazi Cherif moderatorluq edib. Lahgazi Cherif marketinq ixtisası üzrə I kurs tələbəsidir.
Əsas məqsədi praktiki danışıq məşğələləri vasitəsilə tələbələrin ingilis dili biliklərinin möhkəmləndirilməsi, ingilis dilində ünsiyyət vərdişlərinin təkmilləşdirilməsi olan danışıq klubu il ərzində tələbələrin dərs qrafikinə uyğun olaraq təşkil olunub.

## Tələbələrə Beynəlxalq Ahıllar Günü haqqında məlumat verilib



Sosial işin təşkili kafedrası tərəfindən təşkil olunan və "1 oktyabr - Beynəlxalq Ahıllar Günü"nə həsr olunmuş tədbirdə ahıl şəxslərlə sosial işin əhəmiyyətindən bəhs edilib. Qeyd edilib ki, Ahıllar günü yaşlılar arasında zorakılıq və onların digər problemləri ilə bağlı informasiyanın artırılması, ictimaiyyətin diqqətini bu məsələlərin həllinə yönəltmək və yaşlı insanların cəmiyyətə verdiyi töhfələri qiymətləndirmək məqsədilə qeyd olunur.
Bildirilib ki, Ahıllar Günü dünyada 1992-ci ildən, Azərbaycanda isə 1993-cü ildən başlayaraq qeyd olunur. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, 70 yaşına çatmış Azərbaycan vətəndaşları, habelə Azərbaycanda daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunurlar.

## Turizmçi tələbələr Balaxanıda ekskursiyada olublar




Turizm işinin təşkili və Turizm bələdçiliyi ixtisasları üzrə təhsil alan tələbələrin Balaxanı qəsəbəsinə ekskursiyası "29 sentyabr - Turizm işçiləri günü" münasibətilə təşkil olunub. Tələbələr ilk olaraq turizm informasiya mərkəzini ziyarət edib, ardınca isə qəsəbənin ərazisi ilə tanış olublar. Burada yerli bələdçilər tərəfindən tələbələrə Balaxanı qəsəbəsi, qəsəbədə aparılan təmir-bərpa işləri, infotur mərkəzinin fəaliyyəti, orta əsrlərdən qalma su ovdanı və hamam barədə məlumat verilib.
Ekskursiya zamanı hər tələbə Balaxanı qəsəbəsinə aid və əvvəldən müəyyənləşdirilmiş mətni səsləndirib. Mətnlər qəsəbənin tarixi, mədəniyyəti, yerli mətbəxi, neft sənayesinin inkişafı, burada mövcud olmuş bəhai dini təriqəti, vaxtilə qəsəbə məktəbində işləyən satirik şair Mirzə Ələkbər Sabirin və xeyriyyəçi tanınmış şəxslərin həyat və fəaliyyəti haqqında olub.

## Politologiya tələbələrinin Avropa İttifaqı ilə bağlı məlumatlılıq səviyyəsi artırılır




Siyasi və ictimai elmlər kafedrasının müəllimi Bəxtiyar Bədəlovun koordinatorluğunda həyata keçirilən "Erasmus+ Jean Monnet Module" layihəsinin əsas məqsədi akademik heyətin və tələbələrin Avropa İttifaqı ilə bağlı məlumatlılıq səviyyəsinin artırılması üçün kurs və təlimlərin hazırlanıb tədris edilməsidir. Layihə çərçivəsində formalaşdırılmış modul politologiya ixtisasında təhsil alan 3-cü kurs tələbələrinə tədris olunur. "The European Union: Its Institutions Values and Potential Opportunities" (Avropa İttifaqının institutlarının dəyərləri və potensial imkanları ) adlı layihənin müddəti 36 aydır.

## "English Summer Course Program" dərslərinin fəal iştirakçıları sertifikatla təltif olunublar



"English Summer Course Program 1" dərsləri Xarici dillər kafedrasının təşəbbüsü ilə təşkil olunub. Dərslərdə müxtəlif ixtisaslarda təhsil alan II kurs tələbələri iştirak edib. Dərslərin məqsədi tələbələrin əldə etdikləri ingilis dili biliklərinin möhkəmləndirilməsi və ingilis dilində ünsiyyət vərdişlərinin təkmilləşdirilməsidir. Dərslərdə ingilis dili səviyyəsini artırmaq, tərcümə metodlarından düzgün istifadəni təmin etmək üçün ingilis dilində filmlər izlənilib və tərcümə edilib, müxtəlif oyunlar təşkil olunub. 2 ay davam edən dərslərin sonunda imtahan keçirilib və 5 fəal tələbə - Zeynəb Əhmədova, Fatma Rüstəmova, Ceyran Sarıyeva, Aytən Şirməmmədli, Aytən Xancanova sertifikatla təltif olunub.

## "Voice of books" qiraət klubunda məşhur yazıçıların əsərləri müzakirə olunur



Tərcümə və filologiya kafedrasının nəzdində fəaliyyət göstərən "Voice of books" (Kitabların səsi) qiraət klubunda həm Azərbaycanın, həm də dünyanın məşhur yazıçılarının yaradıcılıqları və əsərləri Azərbaycan və ingilis dillərində müzakirə olunur.

Klubun birinci görüşündə ingilis yazıçısı Şarlotta Brontenin "Jane Eyre" əsəri, ikinci görüşündə isə XX əsr ədəbiyyatının görkəmli nümayəndələrindən, yəhudi əsilli yazıçı Franz Kafkanın "Çevrilmə" (Metamorfoz) və fransız yazıçı Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" əsərləri müzakirə olunub.

Tədbirlərdə Şarlotta Bronte, Franz Kafka və Antuan de Sent-Ekzüperinin həyat və yaradıcılığı barədə də Azərbaycan və ingilis dillərində məlumat verilib.

## Millət vəkili Sadiq Qurbanovun tələbələr ilə görüşü təşkil olunub



Millət vəkili, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov ilə tələbələrin görüşü Tələbə Gənclər Təşkilatı və Siyasi elmlər kafedrasının nəzdində fəaliyyət göstərən Gənc Diplomatlar Klubunun birgə təşkilatçılığı ilə həyata keçirilən "Diplomatiya Gənclərin Gözü ilə" layihəsi çərçivəsində təşkil olunub.

Millət vəkili tədbirdə məruzə ilə çıxış edib. Sadiq Qurbanovun çıxışı "Heydər Əliyevin gənclər siyasəti", "Heydər Əliyevin siyasi baxışları", "Azərbaycançılıq ideologiyası", "Azərbaycanın diplomatiya uğurları" kimi mövzulara həsr olunub. Qonaq çıxışın ardından görüş iştirakçılarının Qarabağ zəfərinin bölgədə yaratdığı yeni reallıqlar, Qarabağ bölgəsində lokal xarakterli anti-terror əməliyyatı, reinteqrasiya proqramı kimi aktual mövzularda suallarını cavablandırıb.

## Tələbələrin Hərbi Qənimətlər Parkına ekskursiyası təşkil olunub




Ekskursiyada Turizm işinin təşkili ixtisası üzrə təhsil alan I kurs tələbələri iştirak edib. Tələbələr Hərbi Qənimətlər Parkında zəfərlə başa çatan Vətən müharibəsində işğalçı Ermənistan ordusundan qənimət götürülən hərbi texnika və sursatlar, Azərbaycan əsgəri tərəfindən darmadağın edilən istehkamların maketləri, yeraltı yol və səngərlər, həmçinin müxtəlif mövzularda təşkil olunan guşələrlə tanış olublar.

Qeyd edək ki, 5 hektar ərazini əhatə edən Hərbi Qənimətlər Parkı 2021-ci il aprelin 12-də açılıb. Parkın açılış mərasimində prezident İlham Əliyev iştirak edib. Burada sərgilənən və Vətən müharibəsinin gedişatını əks etdirən eksponatlar Azərbaycana zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan yaradır.

## Mediasiya Şurasının nümayəndəsi Sosial iş tələbələri ilə görüşüb



Tədbirdə Mediasiya Şurasını Bakı şəhəri üzrə 15 saylı mediasiya təşkilatı təmsil edib. Təşkilatın təsisçisi və direktoru Qasım Şaliyev Sosial iş tələbələri qarşısında "İşgüzar mühitdə konfliktlər: alternativ metodlar və modellər" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə mübahisə anlayışı, işgüzar mühitdə konflikt yaradan və artıran amillər, mübahisələrin həlli yollarının alternativliyi barədə ətraflı məlumat verilib, mediatorun vəzifələri və mediasiyanın əhəmiyyəti tələbələrin diqqətinə çatdırılıb. Tədbir tələbələrin mövzuya dair suallarının cavablandırılması ilə başa çatıb.

## Tələbələr üçün "Xaricdə könüllülük" mövzusunda infosessiya keçirilib



"Xaricdə könüllülük və qeyri-formal təhsil imkanları: təlim kursları, gənclər üçün mübadilə proqramları" mövzusunda infosessiya "Sağlam Düşüncə Gənclər Təşkilatı" tərəfindən təşkil olunub. Tələbələr tədbirdə birliyin həmtəsisçisi və "Erasmus+ Youth&European Solidarity Corps" üzrə Azərbaycanda Məlumat Mərkəzinin koordinatoru Ramiz Əliyevin məruzəsini dinləyiblər.

Ramiz Əliyev çıxışında iştirakçılara "Erasmus+" Gənclik və Avropa Həmrəylik proqramları, azərbaycanlı gənclər üçün imkanlar və müraciət qaydaları haqqında məlumat verib, tələbələrin suallarını cavablandırıb.

## Tələbələr üçün "Həyatına dəyər ver" sosial çarxının təqdimatı keçirilib



Təqdimatı keçirilən "Həyatına dəyər ver" sosial çarxı "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyi tərəfindən hazırlanıb. Təqdimat mərasimində birliyin sədri Büllur Məmmədova çıxış edərək bildirib ki, çarxın hazırlanmasında məqsəd cəmiyyətdə, xüsusilə gənc nəslin nümayəndələri arasında narkomaniya və narkomanlığa qarşı təbliğat işlərini gücləndirmək, gənclərin qarşılaşa biləcəkləri risklər barədə onları məlumatlandırmaq, onları bu bəladan müdafiə etmək və sağlam həyata motivasiyalarını daha da gücləndirməkdir. Tədbirdə Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin baş əməliyyat müvəkkili Kamran Mailov və Dövlət Gömrük Komitəsinin əməliyyat müvəkkili Zaur Səfərov da iştirak edib.

Layihənin məqsədi narkomaniya əleyhinə təbliğat işləri aparmaqla mənfi təsirlərə məruz qalan gənclərin sayının azalmasına nail olmaqdır.

## Tələbələrimiz "Heydər Əliyev və Azərbaycan tarixi" ənənəvi bilik yarışında iştirak edib




Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin dəstəyi ilə 18 Oktyabr – Müstəqilliyin Bərpası Günündə keçirilən "Heydər Əliyev və Azərbaycan tarixi" IX ümumrespublika bilik yarışını Əlağa Əzizli, Fidan Sarayeva, Emil Muradlı, Səid Məmmədov, Şövkət Əliyeva, Selcan Məmmədovadan ibarət komandamız yüksək nəticə ilə başa vuraraq ilk onluqda – 8-ci yerdə qərarlaşıb.

2014-cü ildən başlayaraq hər il keçirilən layihənin məqsədi Azərbaycan tarixi və ümummilli lider Heydər Əliyevin həyatı, çoxşaxəli fəaliyyəti, irsinin tədqiqi, öyrənilməsi və təbliğidir. 50 ali təhsil müəssisəsinin təmsil olunduğu yarışda iştirakçılar "Heydər Əliyevin uşaqlıq və gənclik illəri", "Heydər Əliyev və Azərbaycanın müstəqillik illəri", "Heydər Əliyev və Qarabağ həqiqətləri" və bu kimi mövzularda biliklərini sınayıblar.

## Proqramlaşdırma olimpiadasının qalibləri sertifikatla təltif olunublar



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin tələbələri arasında keçirilən "Proqramlaşdırma üzrə olimpiada"nın qalibləri sertifikatla təltif olunublar. Olimpiada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.
Tələbələr 3 saat ərzində Phyton, C++, Java dillərindən olan 10 alqoritmik tapşırıq həll ediblər. Beynəlxalq yarışların formatına uyğun olaraq eolymp.com saytında keçirilən olimpiadada qiymətləndirmə onlayn şəkildə aparılıb. Olimpiadanın nəticəsinə əsasən I yeri Ülvi Ramil oğlu Sadıqzadə (İnformasiya texnologiyaları, II kurs), II yeri Yunis Tofiq oğlu Bədəlov (İnformasiya təhlükəsizliyi, II kurs), III yeri isə Eyvaz Əşrəf oğlu Bayramov (Kompüter mühəndisliyi, III kurs) tutub.

## Hakatonda iştirak edən İKT tələbələri sertifikatla təltif olunublar



Universitetlərarası "Heydər Əliyev – 100 : Mühəndislik Hakatonu" yarışmasında iştirak edən komandamızın üzvləri - İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin tələbələri Sənan İsmayılov (Kompüter mühəndisliyi), Flora Kərimova (Kompüter mühəndisliyi) və Amil Qasımov (Kompüter mühəndisliyi) sertifikatla təltif olunublar. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş hakatona 21 ali təhsil müəssisəsini təmsil edən 30 komanda qoşulub. İştirakçılar 3 mövzu üzrə biliklərini sınayıb, "Ekologiya və ətraf mühit", "Nəqliyyat və logistika", "Texnologiya və innovasiya" istiqamətləri üzrə verilən tapşırıqlara maraqlı həllər təklif ediblər. Hakaton Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin birgə təşkilatçılığı ilə keçirilib.

## Polşalı müəllimin tələbələr üçün ustad dərsi təşkil olunub



Polşanın Krakov İqtisadiyyat Universitetinin müəllimi Tomasz Boberin Biznes və iqtisadiyyat fakültəsinin ingilisdilli ixtisaslarında təhsil alan sonuncu kurs tələbələri üçün "Elektron kommersiya biznesində qiymətləndirmə strategiyaları" (Pricing strategies for ecommerce businesses) mövzusunda ustad dərsi təşkil olunub. Dərsdə tələbələrə innovativ məhsullar, qiymətləndirmə strategiyaları kimi mövzularda məlumat verilib. Marketinq tədqiqatları zamanı 4P, 7Ps, 7Cs kimi məqamların təhlilinə əsaslanmağın vacibliyi vurğulanıb və real nümunələr təqdim olunub.

## Təhsil Tələbə Krediti Fondu tələbələr üçün infosessiya keçirib



Ödənişli əsaslarla təhsil alan tələbələr üçün təşkil olunan infosessiyada fondun nümayəndəsi Aysel Hacıyeva fondun fəaliyyət istiqamətləri, tələbə kreditinə müraciət qaydaları, tələbə kreditinin növləri və verilməsinin meyarları haqqında geniş təqdimatla çıxış edib.
Aysel Hacıyeva çıxışında kreditin verilməsinə dair tələblər haqqında tələbələri maraqlandıran məsələlərə aydınlıq gətirib, həmçinin onları maraqlandıran sualları cavablandırıb.
Qeyd edək ki, Təhsil Tələbə Krediti Fondu prezident İlham Əliyevin fərmanı ilə Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılıb. Fondun missiyası təhsilin əhatə dairəsini genişləndirmək, əlçatanlığını təmin etmək və təhsil almaqda bərabər imkanlar yaratmaqdır. Tələbə kreditlərinin verilməsinə 2021-ci ilin noyabr ayından başlanıb. 2023/2024-cü tədris ilinin payız semestri üzrə 8 min 319 tələbə kredit üçün müraciət edib, onlardan 5 min 582 nəfərin müraciəti rəsmiləşdirilib.

## İKT tələbələri ICPC beynəlxalq müsabiqəsinin dörddəbir final mərhələsinə vəsiqə qazanıb



İnformasiya – kommunikasiya texnologiyaları fakültəsinin tələbələri Ülvi Sadıqzadə (İnformasiya texnologiyaları, II kurs), Yunis Bədəlov (İnformasiya təhlükəsizliyi, II kurs) və Eyvaz Bayramovdan (Kompüter mühəndisliyi, III kurs) ibarət komandamız "48-ci ICPC - Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin Azərbaycan üzrə dörddəbir final mərhələsinə vəsiqə qazanıb.
Universitetimiz müsabiqənin təsnifat mərhələsində 7 komanda ilə təmsil olunub. Müsabiqənin Azərbaycan üzrə təsnifat mərhələsində (kvalifikasiya turu) isə 23 ali təhsil müəssisəsindən 167 komanda iştirak edib. Hər komanda üç tələbə və komanda rəhbərindən ibarət olub.

## "Milli peyk" layihəsinin müəllifi tələbələrə ustad dərsi keçib



Azərbaycanın ilk milli peykinin layihəsinin müəllifi, texnika elmləri üzrə fəlsəfə doktoru, dosent Məzahim Quliyev Azərbaycan Universitetinin tələbələrinə ustad dərsi keçib. Ustad dərsi "Rəqəmsal iqtisadiyyata keçidlə bağlı əmək bazarında tələb olunan İT yönümlü peşələr" mövzusuna həsr olunub.
Məzahim Quliyev tələbələrə rəqəmsal iqtisadiyyat sahəsində karyera qurmaq istəyən tələbələrə robototexnika və avtomatlaşdırma, süni intellekt, ux/ui dizayn, AR (artırılmış reallıq) və VR (virtual reallıq), blokçeyn təhlili və inkişafı, rəqəmsal marketinq və media planlama, big data, əşyaların interneti (iot), bulud texnologiyaları kimi İT yönümlü peşələr haqqında məlumat verib, karyera planlaması, CV hazırlanması, iş axtarışı kimi istiqamətlərdə tövsiyələrini çatdırıb.

## Tələbələr üçün karyera planlaması mövzusunda təlim keçirilib



Biznes və iqtisadiyyat fakültəsində təhsil alan tələbələr üçün təşkil olunan təlimi İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi Tərlan Rəsulov aparıb.
Tədbiri kafedranın müdiri Tural Qocayev açaraq təlimin mövzusu haqqında məlumat verib və karyera planlamasının tələbələr üçün vacibliyini vurğulayıb.
Təlimdə iştirakçılara özünü tanıma, iş dünyasının araşdırılması, ilkin iş təcrübəsi, qərar vermə prosesi, iş axtarma prosesi, karyeranın idarə edilməsi kimi mövzular haqqında məlumat verilib.
İnteraktiv müzakirələrlə davam edən təlimdə tələbələrə peşəkar inkişaf üçün atılmalı olan addımlar və əmək bazarına çıxışın yolları da izah olunub.

## Beynəxalq Əlaqələr Şöbəsi xaricdə təhsil imkanları haqqında infosessiya keçirib



"Erasmus+ KA1" tələbə-müəllim mübadilə layihəsinə həsr olunan tədbirdə Beynəxalq Əlaqələr Şöbəsinin müdiri Elmira İsmayılova və Biznes və İqtisadiyyat fakültəsinin dekanı Xanım Quliyeva iştirakçılara Azərbaycan Universitetinin layihə çərçivəsində tərəfdaş olduğu universitetlər, layihəyə müraciət şərtləri, tələb olunan sənədlər və müraciət tarixləri haqqında məlumat veriblər.
Daha sonra universitetin Biznes və iqtisadiyyat fakültəsinin tələbələri və "Erasmus+ KA1" layihəsinin iştirakçıları Marina Nəsibova (Maliyyə, IV kurs) və Egemen Zafer (Biznesin idarə edəlməsi, II kurs) təqdimatla çıxış edərək təcrübə və təəssüratlarını tələbələrlə bölüşüblər.













## "Diplomatik Masa"
## simulyasiya layihəsi
## Oktyabr – Dekabr 2023-cü il

Siyasi və ictimai elmlər kafedrasının təşəbbüsü və təşkilatçılığı ilə həyata keçirilən "Diplomatik Masa" simulyasiya layihəsinin məqsədi tələbələrdə müstəqil araşdırma, natiqlik və debat bacarıqlarının inkişaf etdirilməsinə nail olmaqdır. Simulyasiyalarda Beynəlxalq münasibətlər, Politologiya, Dövlət və ictimai münasibətlər, Tarix ixtisaslarında təhsil olan 48 tələbə (8 komanda və hər komandada 6 nəfər olmaqla) iştirak edib. Layihənin iştirakçıları müxtəlif mövzular üzrə dövlətlərin mövqeləri ilə bağlı debat və diskussiyalara cəlb olunublar.

Layihə çərçivəsində ilk diplomatik masa Azərbaycan-Rusiya münasibətlərinə, ikinci görüş isə Azərbaycan – Fransa münasibətlərinə həsr olunub. Üçüncü görüşdə tələbələr Rusiya-Ukrayna münaqişəsinin siyasi həlli üzrə sülh paketi ətrafında müzakirələr aparıblar. Sonuncu diplomatik masada isə Azərbaycan - ABŞ münasibətlərinin gərginləşməsinin səbəbləri müzakirə olunub. Layihə millət vəkilləri Hikmət Məmmədov və Jalə Əhmədovanın da iştirak etdiyi yekun hesabat tədbiri ilə başa çatıb.

## Əcnəbi tələbələr ASAN Xidmət mərkəzini ziyarət edib



Azərbaycan Universitetinin əcnəbi tələbələri ASAN Xidmət mərkəzində könüllülüklə bağlı infosessiyada iştirak ediblər. Tədbirdə Dövlət və ictimai münasibətlər ixtisası üzrə təhsil alan III kurs tələbəmiz Şirxan Aslanov könüllülər proqramı barədə təqdimatla çıxış edib. Təqdimatda iştirakçılara "ASAN Könüllüləri" Təşkilatının yaranması, müraciət qaydaları və bu kimi məsələlər haqqında ətraflı məlumat verilib.
Beynəlxalq Əlaqələr Şöbəsinin təşkilatçılığı ilə keçirilən görüşdə əcnəbi tələbələrdən Noman Anwar (Biznesin idarə edilməsi), Cherif Lahgazi (Marketinq), Marina Nasibova (Maliyyə), Abdul Malik Majid Mohammed Aljaefari (Biznesin idarə edilməsi), şöbənin müdiri Elmira İsmayılova və şöbənin mütəxəssisi Sevlan Qurbanova iştirak edib.

## Hindistanlı mütəxəssis Shashidhar Channappa Sosial iş tələbələri ilə görüşüb



"Social Work & Social Research" beynəlxalq konfransının məruzəçisi və Hindistanın Oksford Kollecinin Sosial iş kafedrasının müdiri Shashidhar Channappa Sosial iş ixtisası üzrə bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələrimiz ilə görüşüb. Qonaq Sosial iş ixtisası üzrə bakalavriat tələbələrinə "Domestic Workers", Həyat fəaliyyətinin müxtəlif sahələrində Sosial iş ixtisası üzrə magistratura tələbələrinə isə "Urban Homeless" mövzusunda mühazirə oxuyub. Mühazirələrdə Hindistandakı sosial problemlər, sosial problemlərin həllində sosial iş və sosial işçinin rolu, Azərbaycan və Hindistanın oxşar sosial problemlərinin həlli yollarından bəhs olunub.

## Pakistanlı professor Shahid Nadeem tələbələrə ustad dərsi keçib



"Social Work & Social Research" beynəlxalq konfransının iştirakçısı və Pakistanın Punjab Universitetinin professoru Shahid Nadeem tələbələrimizə ustad dərsi keçib. Dərsdə Biznes və iqtisadiyyat fakültəsinin ingilisdilli ixtisaslarında təhsil alan tələbələr iştirak edib. Qonaq professorun məruzəsi "Business Strategy" mövzusunda olub. Məruzədə tələbələrə biznes strategiyası və mahiyyəti, biznesin inkişaf strategiyasının hazırlanması, strategiyanın üstünlüklərinə dair nəzəri və praktiki məlumatlar verilib. Qeyd edək ki, "Social Work & Social Research" beynəlxalq konfransı 24-25 noyabr 2023-cü il tarixlərində Azərbaycan Universitetinin evsahibliyində Bakıda keçirilib. Hibrid formada təşkil olunan ikigünlük beynəlxalq elmi konfransda dünyanın 32 ölkəsindən 156 məruzə dinlənilib. Konfransın təşkilatçıları Azərbaycan Universiteti, Türkiyənin Sakarya Universiteti, ABŞ-ın Sent Louis Vaşinqton Universiteti və Sosial Tədqiqatlar Mərkəzidir.

## Tələbələrin SPECA sərgisinə ziyarəti təşkil olunub



Turizm işinin təşkili və Turizm bələdçiliyi ixtisasları üzrə təhsil alan tələbələrimiz Bakı Ekspo Mərkəzində keçirilən Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı - SPECA həftəsi çərçivəsində "SPECA Ölkələrinin Sərgisi: Dayanıqlı inkişaf üçün regional əməkdaşlıq" sərgisini ziyarət ediblər. Tələbələr sərgidə nümayiş etdirilən stendlərlə tanış olub, məhsullar və avadanlıqlar barədə məlumat alıblar. Qeyd edək ki, Azərbaycanın təşəbbüsü ilə keçirilən sərgi SPECA-nın yaradılmasının 25 illiyi münasibətilə təşkil olunub. Sərgidə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan təmsil olunub.

## Tələbələrimiz Bakı Metropolitenində təşkil olunan təlimdə iştirak ediblər



İnsan Resursları Departamenti və Karyera Mərkəzinin təşəbbüsü ilə Biznes və iqtisadiyyat fakültəsinin tələbələri üçün Bakı Metropoliteninin Təlim-Tədris Mərkəzində "Karyera planlaması və inkişaf" mövzusunda təlim təşkil olunub.
Təlimi mərkəzin rəisi Rüfət Qədəşov aparıb. Rüfət Qədəşov tələbələrə karyera anlayışı, karyera məqsədi, karyera planlaması, karyera yol xəritəsinin tərtibi, iş axtarma strategiyaları kimi mövzularda məlumat verib.
Bakı Metropoliteni ilə "Legalize Academy"nin əməkdaşlığı çərçivəsində keçirilən təlimin məqsədi tələbələrin potensialını artırmağa, bilik və praktiki vərdişlərini zənginləşdirməyə dəstək olmaq, onları müxtəlif sahələrə stimullaşdırmaq, dünyagörüşünü zənginləşdirməkdir.

## "The Ritz-Carlton Baku" hotelinin meneceri ilə tələbələrin görüşü təşkil olunub



İnsan Resursları Departamenti və Karyera Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə Biznes və İqtisadiyyat fakültəsinin IV kurs tələbələri "The Ritz-Carlton Baku" hotelinin təlim üzrə meneceri Camal Şərifovun "Karyera və inkişaf" mövzusunda məruzəsini dinləyiblər.
Camal Şərifovun məruzəsi CV-nin strukturu, tərtib edilməsinin prinsipləri, xronoloji ardıcıllığı, üslubu, hədəflərin müəyyənləşdirilməsi, iş görüşməsinə hazırlıq, davranış qaydaları, müəssisə haqqında məlumat əldə etmənin əhəmiyyəti, iş fəaliyyətinin təkmilləşməsi prosesi, karyera bilik və bacarıqlarının təkmilləşdirilməsi, fərdi fəaliyyət planı, idarəetmə səriştələrinə yiyələnmək kimi mövzuları əhatə edib.

## Təhsildə sosial-psixoloji xidmət ixtisasının tələbələri "Story Time" uşaq bağçasında olublar



Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə IV kurs tələbələri auditoriyadankənar dərslər qrafikinə uyğun olaraq "Story Time" uşaq bağçasında olublar. Sosial işin təşkili kafedrasının baş müəllimi Lalə Babayeva burada tələbələrə "Uşaq psixologiyası" və "Psixodiaqnostika və psixokonsultasiya" fənlərinin növbəti mühazirəsini keçib. Tələbələr əvvəlcə bağça ilə tanış olublar. Ardınca uşaqları yaş qruplarına bölərək müxtəlif oyunlar oynayıb, psixoloji dəyərləndirmə aparıblar.

## Birinci kurs tələbələri üçün "Bir könüllü" təşkilatının təqdimatı keçirilib



Tədbirdə "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin nümayəndələri tərəfindən tələbələrə könüllülük fəaliyyətinin üstünlükləri, təşkilata üzv olma prosesi, gələcək layihələr barədə məlumat verilib.
Qeyd olunub ki, təşkilat "Bir" tələbə-könüllü proqramı kimi 2015-ci ildə Elm və Təhsil Nazirliyi tərəfindən tələbə-könüllülərlə işin sistemləşdirilməsi, könüllülük fəaliyyətinin stimullaşdırılması, tələbələrin dərsdənkənar asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün yaradılıb. 2019-cu il 2 avqust tarixindən etibarən isə "Bir könüllü" Tələbələrin Əməkdaşlığı İctimai Birliyi kimi dövlət qeydiyyatına alınıb. Proqramın tələbə-könüllülərin vahid məlumat bazasının inkişaf etdirilməsi, təlim-tədris proqramları və kurslarının təşkil olunması, tələbə-könüllülərin intellekt səviyyəsinin yüksəldilməsi və dünyagörüşünün genişləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi kimi məqsədləri var.

## Tələbələr arasında X Daxili Şahmat Turniri keçirilib



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş X Daxili Şahmat Turnirində 30 tələbə fərdi şəkildə mübarizə aparıb.
Turnirin qalibi Biznes və iqtisadiyyat fakültəsinin Marketinq ixtisası üzrə təhsil alan V kurs tələbəsi Mirhüseyn Ağayev olub. İkinci yeri qeyd olunan fakültənin Maliyyə ixtisası üzrə təhsil alan IV kurs tələbəsi Rəsul Quliyev, üçüncü yeri isə Humanitar fənlər fakültəsinin Sosial iş ixtisası üzrə təhsil alan I kurs tələbəsi Gülüstan Quluyeva tutub.
Qaliblər kubok və sertifikatla mükafatlandırılıb.
Müsabiqə tələbələrin asudə vaxtlarının səmərəli təşkili və şahmatın kütləviliyinin artırılması məqsədilə təşkil olunur.

## Sosial iş tələbələrinin ikinci dostluq debatı keçirilib



Azərbaycan Universitetinin və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Sosial iş ixtisası üzrə təhsil alan tələbələri arasında ikinci dostluq debatı təşkil olunub. Debatda iştirakçılar "Ailə daxilində zorakılıq görmüş və dövlət müəssisəsinə yerləşdirilmiş uşaq övladlığa götürülməlidirmi?" sualı ətrafında çəkişiblər. Azərbaycan Universitetinin tədris binasında keçirilən debatda hər iki universitetdən 6 debatçı və 3 spiker iştirak edib. Birinci spikerlər uşaqlara yönəlmiş zorakılıq halları və zorakılığa məruz qalmış uşaqların üzləşdiyi problemlər haqqında danışıb. İkinci spikerlər arqumentlərlə rəqiblərin fikirlərini təkzib etməyə çalışıblar. Üçüncü spikerlər isə problemlə bağlı həll yolları təklif ediblər.
Münsiflər heyəti spikerlərin çıxışını müsbət qiymətləndirib, bu istiqamətdə debatların davam edəcəyini bildirib.

## Tələbələrimiz "Gənc vikipediyaçıların qış düşərgəsi"ndə iştirak edib



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi, "Azərbaycan Vikimediaçıları" istifadəçi qrupunun təşəbbüsü ilə Göygöl Olimpiya İdman Kompleksində təşkil olunan düşərgədə tələbələrimiz Fatimə Manafzadə (Politologiya, IV kurs), Marina Nasibova (Maliyyə, II kurs), Bənövşə Muradova, Aşiq Məsimov, Tural Əsədov, Yağmur Muxtarova, Fidan Şıxəliyeva, Səadət Məmmədli, Nurlan Nəcəfov (Turizm işinin təşkili, II kurs), Mühasibat uçotu və audit ixtisasının məzunu Nuray Tanrıverdiyeva iştirak edib.
Düşərgədə tələbəmiz və təcrübəli vikipediyaçı Aida Aslanova tərəfindən yeni istifadəçilərə vikipediya haqqında məlumat verilib, bu onlayn resursda məqalə yaratma və redaktə etmə, şablonlardan istifadə, kateqoriya açma, istinadların qoyulması və bu kimi mövzular izah olunub. İştirakçılar düşərgə müddətində gənclər və idman mövzularında, o cümlədən Göygöl şəhəri haqqında məqalələr hazırlayıb, müxtəlif əsaslı redaktələr edərək vikipediyaya öz töhfələrini veriblər.

## Tələbəmiz Səadət Tarverdiyeva "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb



Sosial iş ixtisası üzrə III kurs tələbəmiz Səadət Tarverdiyeva "Heydər Əliyev adına təqaüd"ə layiq görülüb. Təqaüd dövlət büdcəsinin vəsaiti hesabına 3000 manat məbləğində birdəfəlik ödənilir.
"Heydər Əliyev adına təqaüd" Prezident İlham Əliyevin 2023-cü il 24 iyun tarixli Sərəncamına əsasən, bakalavriat səviyyəsində əyani formada təhsil alan və təhsildə yüksək nailiyyətləri olan 100 nəfər tələbə üçün təsis edilib.

## "Dilimiz mənəviyyatımızdır" mövzusunda musiqili tədbir keçirilib



Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş musiqili ədəbi-bədii tədbirdə Azərbaycan dilinin keçdiyi uzun və şərəfli yol tarixi-xronoloji ardıcıllıqla təqdim olunub. Tələbələrin ifasında Azərbaycan dilinin gözəlliyini tərənnüm edən şeir və mahnılar, şifahi xalq ədəbiyyatından nümunələr səsləndirilib. Şeirlərdə Azərbaycan dilinin zərifliyi, incəliyi, ecazkarlığı və dözümlülüyü Nizami Gəncəvi, Məmmədhüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Məmməd Araz kimi klassik və müasir ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərindən, o cümlədən şifahi xalq yaradıcılığından götürülmüş nümunələrdə öz əksini tapıb. Böyük tarixi şəxsiyyətlərin Azərbaycan dili haqqında dedikləri kəlamlar iştirakçılar tərəfindən maraqla qarşılanıb.

## "Kapital Bank"ın əməkdaşı tələbələrə "Data analitikası" mövzusunda ustad dərsi keçib



Biznes və iqtisadiyyat fakültəsinin tələbələri üçün təşkil olunan ustad dərsində iştirakçılar biznes analitikası üzrə mütəxəssis, bu sahədə 20 ildən çox təcrübəyə malik, "Kapital Bank"ın data analitika üzrə funksional sahə rəhbəri Alper Tıraşın məruzəsini dinləyiblər.
Alper Tıraş məruzədə tələbələrə biznes analitikası anlayışı (Business Intelligence, BI), bank məhsulları və bank işində biznes analitikası, müştərilərlə əlaqələrin idarə edilməsi sistemləri (CRM/Customer Relationship Management) kimi mövzularda məlumat verib, real keyslər təqdim edib.
Dərsin sonunda tələbələrin məruzəyə dair sualları cavablandırılıb.

## Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan esse müsabiqəsi keçirilib



"Azərbaycan Heydər Əliyevin şah əsəridir" mövzusunda esse müsabiqəsində 20 tələbə iştirak edib. Esselərin qiymətləndirilməsi Tərcümə və filologiya kafedrasının müəllimlərindən ibarət münsiflər heyəti tərəfindən aparılıb.
Münsiflər heyətinin qərarına əsasən Sevinc Türbəndəyeva I yerə (Filologiya, ingilis dili və ədəbiyyatı, IV kurs), Nuranə Məmmədova II yerə (Dövlət və ictimai münasibətlər, II kurs), Fəzilə Aydəmirova III yerə (Filologiya, Azərbaycan dili və ədəbiyyatı, II kurs) layiq görülüb.
Müsabiqənin yekun tədbirində qaliblər sertifikat və hədiyyə ilə təltif olunub. Müsabiqəyə esse təqdim edən digər tələbələrə isə iştirakçı sertifikatı təqdim olunub.

## Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan futbol turniri keçirilib




16 komandanın (Qartal, Tiqres, Red Devils, NewCastle, Fury, Alqoritim, Sierra, Knight, Team 807, Wolves, Qarabağ, Siberteam, Turan, Dinamo 807, Hellboys, Dortmund) iştirak etdiyi mini futbol turnirinin final oyununda "Sierra" və "Team 807" komandaları mübarizə aparıb. Turnirin qalibi Sosial iş tələbələrindən ibarət "Team 807" komandası olub.
Sosial iş ixtisası üzrə IV kurs tələbəsi Namiq Abdullayev turnirin ən yaxşı futbolçusu adına layiq görülüb, Tarix ixtisası üzrə III kurs tələbəsi Rəvan Məmmədov turnirin ən yaxşı qapıçısı seçilib. Ən çox qol vuran oyunçu isə Sosial iş ixtisası üzrə IV kurs tələbəsi Süleyman Mirzəyev olub.

## Tələbələr üçün rəqəmsal marketinq mövzusunda seminar təşkil olunub



Seminarın məruzəçisi İctimai Televiziyanın sosial media direktoru Emin Məmmədzadə olub. Biznes və iqtisadiyyat fakültəsinin Marketinq ixtisası üzrə təhsil alan tələbələrinin iştirak etdiyi seminarda qonaq mütəxəssis "Rəqəmsal marketinqin praktikada tətbiqi" mövzusunda məruzə ilə çıxış edib.
Emin Məmmədzadə çıxışında rəqəmsal marketinq anlayışı, sosial mediada yeni trendlər, sosial medianın dominantlığı, ənənəvi marketinq kanalları, rəqəmsal marketinqin imkanları və üstünlükləri, rəqəmsal marketinqin kiçik və orta biznesin inkişafına töhfələri, rəqəmsal marketinq alətləri, rəqəmsal marketinq mütəxəssisinin günlük işləri kimi mövzular haqqında məlumat verib, həmçinin tələbələrin suallarını cavablandırıb .

## Tələbəmiz Ülvi Sadıqzadə yüksək nailiyyət sertfikatına layiq görülüb



İKT tələbələrimiz "48-ci ICPC NERC - Tələbələrin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi"nin yarımfinal mərhələsi və "Cənubi Qafqaz Açıq Çempionatı"nda iştirak edib. Beynəlxalq müsabiqələrdə universitetimizi İnformasiya-kommunikasiya texnologiyaları fakültəsinin tələbələri Ülvi Sadıqzadə (İnformasiya texnologiyaları), Yunis Bədəlov (İnformasiya təhlükəsizliyi) və Eyvaz Bayramovdan (Kompüter mühəndisliyi) ibarət komanda təmsil edib. Komandanın rəhbəri fakültənin dekanı Asif Paşayevdir. Fərdi yarışda Ülvi Sadıqzadə yüksək nailiyyət sertifikatına, Eyvaz Bayramov fərqlənmə sertifikatına, komandamız isə fərqlənmə sertifikatına layiq görülüb. Kutaisi şəhərində dekabrın 11-dən 16-dək keçirilən tədbirlərdə Azərbaycanın 15 ali təhsil müəssisəsindən 20 komanda (hər komandada 3 tələbə və komanda rəhbəri olmaqla) iştirak edib.

## Poliqlot Aslan Məmmədzadənin tələbələr ilə görüşü təşkil olunub




Polyglotcenter.az saytının təsisçisi, təlimçi və mentor Aslan Məmmədzadənin tələbələr ilə görüşünü Tərcümə və filologiya kafedrası təşkil edib. Aslan Məmmədzadə tədbirdə iştirakçılara dil öyrənmə üsulları və yeni texnologiyalar haqqında məlumat verib, dil öyrənmə prosesində qarşılaşdığı maraqlı məqamları onlarla bölüşüb.
Qonaq qeyd edib ki, şəxsi və işgüzar həyatında 9 müxtəlif dildən istifadə edir, rus, türk, ingilis, fransız, ispan, italyan, alman, polyak dillərini akademik səviyyədə öyrənib. Dil öyrənmək mürəkkəb prosesdir, burada iradə və motivasiya böyük rol oynayır. Dinləmək və oxumaq vasitəsilə bütün dilləri ana dili kimi mənimsəmək mümkündür. Elektron resurslardan istifadə etmək yoluyla da xarici dilləri öyrənmək olar.

## "Holiday Inn Baku" tələbələr üçün "Karyera Günü" keçirib



"Holiday Inn Baku" Hotel və Azərbaycan Universitetinin Karyera Mərkəzinin birgə təşkilatçılığı ilə turizm ixtisaslarında təhsil alan tələbələr üçün "Karyera Günü" keçirilib. Tədbirdə hotelin İnsan resursları üzrə meneceri Yeganə Baxşiyeva, İnsan resursları üzrə mütəxəssis Nabat Əsədova və İnsan resursları üzrə koordinator Murad Sultanov tərəfindən iştirakçılara "Holiday Inn" brendinin tarixi və dəyərləri haqqında məlumat verilib, işə qəbulla bağlı tələbələrin sualları cavablandırılıb.
Tədbirin ikinci hissəsində isə tələbələrin təlim və təcrübə proqramlarına cəlb olunması məqsədilə təkbətək görüş əsasında CV-ləri qəbul olunub, onlara karyera məsləhəti verilib.

## Tərcümə ixtisası üzrə təhsil alan tələbələr üçün ustad dərsi təşkil olunub



Tərcümə (ingilis dili) ixtisası üzrə təhsil alan I və II kurs tələbələrinin iştirak etdiyi və "Tərcümə peşəsinin incəlikləri" mövzusuna həsr olunan ustad dərsinin məruzəçisi ABŞ-nin Azərbaycandakı səfirliyinin protokol mütəxəssisi və tərcüməçisi Xaqani Əliyev olub.
Xaqani Əliyev tələbələrə tərcümə anlayışı, tərcümənin növləri, şifahi tərcümə, yazılı tərcümə, sinxron tərcümə, ardıcıl tərcümə, tərcümənin növləri arasında oxşar və fərqli cəhətlər, tərcümə zamanı yol verilən səhvlər, tərcümə prosesində tələb olunan bacarıqlar, tərcümə vərdişlərinin yaradılması və inkişaf etdirilməsi, tərcümə bazarı haqqında məlumat verib və çoxsaylı sualları cavablandırıb.

## Tələbələrin ifasında Həmrəylik Gününə həsr olunan bədii proqram təqdim edilib



Biznes və iqtisadiyyat fakültəsinin ingilis dili üzrə hazırlıq qruplarında oxuyan tələbələrinin ifasında təqdim olunan ədəbi-bədii proqram "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü"nə həsr olunub. Xarici dillər kafedrasının təşəbbüsü ilə təşkil olunan tədbirdə əvvəlcə iştirakçılara dünyanın 70-dən artıq ölkəsində yaşayan soydaşlarımızın azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşdirən 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü haqqında məlumat verilib, ardınca isə tələbələrin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunub. Aytən Aslanova, Xəyyam Əsədov, Gülsüm Əhmədova, Arzu Hacızadə, Narmina Kalabalıyeva, Tacəddin İsazadə, Nigar Məhərrəmova, Aytac Quliyeva, Fatimə Zeynalabdiyeva Azərbaycan, ingilis, rus və alman dillərində təqdimatla çıxış edib, şeir və mahnılar səsləndiriblər.

## Sonuncu kurs tələbələri üçün "Şəxsi inkişaf və karyerada inkişaf" mövzusunda təlim təşkil olunub



Biznes və iqtisadiyyat fakültəsinin Beynəlxalq ticarət və logistika, Biznesin idarə edilməsi ixtisasları üzrə təhsil alan IV kurs tələbələrinə "Şəxsi inkişaf və karyerada inkişaf" mövzusunda təlim təşkil olunub. Təlimi Layihələrin idarə edilməsi üzrə PMP (Project Management Professional) sertifikatlı təlimçi Ayan Etibar aparıb.
Qonaq əvvəlcə tələbələrə karyera planlaşdırılması və peşəkar inkişaf planının hazırlanması haqqında ətraflı məlumat verib, tövsiyələrini çatdırıb. Ardınca isə iştirakçılara real keyslər təqdim olunub. Tələbələr qruplara bölünərək keyslər üzərində çalışıb, müzakirə aparıblar.

## Tələbələr üçün COP29 mühazirələri təşkil olunub



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyası və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının noyabr ayında Bakının evsahibliyində keçirilməsi ilə bağlı Azərbaycan Universitetinin Tədbirlər Planına uyğun olaraq maarifləndirmə işləri aparılır. Bu çərçivədə may ayının son ongünlüyündə "COP29 mühazirələri"ndə qeyd olunan mötəbər tədbir müxtəlif prizmalardan ələ alınıb.
Dərslərdə tələbələrə Azərbaycanın enerji strategiyası, yaşıl enerji siyasəti və yaşıl enerji hədəfləri, tədbirin Azərbaycanda keçirilməsinin əhəmiyyəti kimi mövzularda məlumat verilib. Bildirilib ki, dünyanın ən aktual problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platforma olan COP29 ölkənin siyasi həyatında böyük hadisədir.

## Azərbaycan Universitetində ilk dəfə səs verəcək tələbələrlə görüş keçirilib



2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk dəfə səs verəcək tələbələrin iştirak etdiyi maarifləndirici görüş Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) təşkilatçılığı və Mərkəzi Seçki Komissiyasının (MSK) dəstəyi ilə keçirilib.
Tədbirdə MSK-nın üzvü Şahiddin Əliyev növbədənkənar prezident seçkisinin keçirilmə səbəblərini izah edib, iştirakçılara seçki sistemi, mövcud qanunvericilik, səsvermə proseduru, seçicinin hüquq və vəzifələri, seçkilərdə kütləvi informasiya vasitələrinin iştirakı, müşahidəçilərin iş rejimi haqqında məlumat verib.

## Məhəmməd Füzulinin yubileyinə həsr olunan bədii qiraət müsabiqəsi keçirilib



Gənc İstedadlar Klubunun təşəbbüsü ilə təşkil olunan və dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illik yubileyinə həsr olunan müsabiqədə tələbələr şairin qəzəllərini ifa ediblər.
İştirakçıların ifası Tərcümə və filologiya kafedrasının müəllimləri Solmaz Süleymanova, Hüseyn Hüseynli, Oqtay İsmayıl və Elzadə Sadiqovadan ibarət Münsiflər Heyəti tərəfindən 10 ballıq sistem üzrə qiymətləndirilib. Münsiflər heyətinin qərarına əsasən Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə magistratura I kurs tələbəsi Elnurə Cavadova müsabiqənin qalibi elan olunub. Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə bakalavriat III kurs tələbəsi Solmaz İsgəndərli II yerə layiq görülüb. Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə II kurs tələbəsi Fəzilə Aydəmirova və Filologiya (ingilis dili və ədəbiyyatı) ixtisası üzrə IV kurs tələbəsi Sevinc Türbəndəyeva isə III yeri tutublar.
Həm qaliblər, həm də iştirakçılar sertifikatla təltif olunublar.

## İKT tələbələri yaşıl texnologiyalar müsabiqəsində iştirak edib




İnformasiya-kommunikasiya texnologiyaları (İKT) fakültəsinin tələbələri Eyvaz Bayramov, Yunis Bədəlov, Ramal Mirzəyevdən ibarət komandamız Gəncə şəhərində keçirilən "GreenTech Startap və Yaşıl Texnologiyalar" müsabiqəsinin final mərhələsində iştirak edib. Komanda yarışda "Süni intellekt əsaslı Smart Kənd" layihəsini nümayiş etdirib. "Süni intellekt əsaslı Smart Kənd" layihəsinin məqsədi əkin sahələrində, istixanalarda yetişdiriləcək bitkilərin datalarını süni intellekt sistemi vasitəsi ilə toplayaraq münbit mikroklimat mühitinin yaradılmasıdır. Tələbələr sözügedən layihəni İKT fakültəsinin dekanı Asif Paşayev, Riyaziyyat və informatika kafedrasının müəllimləri Kamil Cəbiyev və Bəhrəm Əzizovun rəhbərliyi ilə hazırlayıblar. Layihənin hazırlanmasında İKT fakültəsinin tələbələri Əlihüseyn Mirzəyev, Nadir Məmmədov və Amil Qasımov da iştirak edib.

## Tələbələr üçün "ANTEC Academy"də "Excel" təlimi təşkil olunub



Biznes və iqtisadiyyat fakültəsinin II kurs tələbələri "ANTEC Academy"də təşkil olunan "Excel" adlı təlimdə iştirak ediblər. Təlimdə əvvəlcə "ANTEC Academy"nin rəhbəri, İT və proqramlaşdırma üzrə mütəxəssis Günay Hüseynli şirkətin yaranması və fəaliyyət istiqamətləri haqqında məlumat verib. Ardınca tələbələrə "Excel"də diaqramların qurulması, hesablamaların aparılması, vikipedia məlumatlarının "Excel"ə köçürülməsi, statistikaların hazırlanması və bu kimi mövzularda təqdimat edilib. Bir neçə ay əvvəl isə "ANTEC Academy"nin nümayəndələri tələbələr ilə universitetin tədris binasında görüşüblər. Görüş "Karyeramızdakı buglar" mövzusuna həsr olunub.

## Tələbələr üçün "Erasmus+" proqramı haqqında infosessiya təşkil edilib



"Erasmus+" KA1 tələbə və müəllim mübadilə layihəsi haqqında infosessiya Beynəlxalq Əlaqələr şöbəsi ilə Təlim və Tədris Mərkəzi (TLC) tərəfindən birgə təşkil olunub.
Tədbirdə tələbələrə Azərbaycan Universitetinin layihə çərçivəsində tərəfdaş olduğu universitetlər, layihəyə müraciət şərtləri, tələb olunan sənədlər və müraciət tarixləri haqqında ətraflı məlumat verilib. Qeyd olunub ki, 2023/2024-cü tədris ilinin yaz semestrində Azərbaycan Universitetinin iki tələbəsi "Erasmus+" mübadilə proqramı çərçivəsində xaricdə təhsil alır.

## "İnnab Business School" tələbələr üçün təlim keçirib



"İnnab Business School" komandası Biznes və iqtisadiyyat fakültəsinin tələbələri üçün "İşəgötürənlər kimi axtarır?" və "Rəqəmsal əsrdə mühasib olmaq" mövzularında "təlim - workshop" keçirib. İnteraktiv formatda həyata keçirilən tədbirdə iştirakçılara karyera perspektivlərini artıra biləcəkləri praktiki biliklər təqdim olunub.
"İnnab Business School" komandası Mühasibat uçotu, Maliyyə, Data analitika, İnsan resursları, Menecment, Satış və marketinq kimi sahələr ilə bağlı video dərslərin hazırlanması, məqalələrin yazılması və təlimlərin təşkili kimi sahələrdə fəaliyyət göstərir.

## Beynəlxalq MOSE sertifikatını almaq istəyən tələbələr üçün təqdimat keçirilib




"İnnab Business School" şirkəti tərəfindən təşkil olunan təqdimatda tələbələrə data analitika, MOSE sertifikatının (Beynəlxalq Excel ekspert sertifikatı) əldə olunmasının tələbləri, sertifikatın tələbələrə qazandıracağı üstünlüklər haqqında məlumat verilib. Bildirilib ki, MOSE sertifikatını əldə edən tələbələr Excel üzrə biliklərini beynəlxalq səviyyədə təsdiq etmiş olacaqlar.
Qeyd edilib ki, əmək bazarında günü-gündən artan rəqabət yüksək səriştələr tələb edir. Tələbələr Excel biliklərini Microsoft tərəfindən təsdiqlədərək CV-lərinin güclənməsi üçün zəmin yarada bilərlər.
Azərbaycan Universitetinin tədris binasında təşkil olunan təqdimatda iştirakçılara "İnnab" şirkətinin fəaliyyəti, həyata keçirdiyi layihə və təlimlərin istiqaməti haqqında da məlumat verilib. Qeyd olunub ki, "İnnab Business School" komandası Mühasibat uçotu, Maliyyə, Data analitika, Menecment, İnsan resursları, Satış və marketinq kimi sahələrdə təlimlər təşkil edir.

## Biznes və iqtisadiyyat fakültəsində "Yaşıl iqtisadiyyat və kreativlik" mövzusunda seminar keçirilib



Biznes və iqtisadiyyat fakültəsinin Tələbə Elmi Cəmiyyətinin sədri Vaqif Qocayevin təşəbbüsü ilə təşkil olunan "Yaşıl iqtisadiyyat və kreativlik" seminarında tələbələr marketinq üzrə mütəxəssis, "Sabah.Hub" İnnovasiya Mərkəzinin İcma və ölkədaxili tədbirlər üzrə rəhbəri Göktuğ Sarının məruzəsini dinləyiblər.
Göktuğ Sarı çıxışında "yaşıl iqtisadiyyat" anlayışına aydınlıq gətirib, iştirakçılara dünyanın yaşıl iqtisadiyyata keçidi, yaşıl iqtisadiyyatın prioritetləri, Apple, McDonald's, Coca-Cola kimi brendlərin yaşıl iqtisadiyyata keçidlə bağlı həyata keçirdikləri kreativ aksiya və kampaniyalar haqqında məlumat verib. Bildirib ki, "yaşıl iqtisadiyyat" termini qlobal səviyyədə bəşəriyyətin inkişafının ana xətlərindən birini ifadə edir.
İnteraktiv formada keçən tədbirdə təcrübəli mütəxəssis tələbələrlə müzakirələr aparıb, onların mövzu haqqında fikirlərini öyrənib və suallarını cavablandırıb.

## Tələbəmiz Xəyyam Əsədov II Ardıcıl Tərcümə Müsabiqəsinin final turunda iştirak edib



Biznes və İqtisadiyyat fakültəsinin Biznesin idarə edilməsi (tədris ingilis dilində) ixtisası üzrə 2-ci kurs tələbəsi Xəyyam Əsədov Xəzər Universitetində keçirilən 2-ci Milli Ardıcıl Tərcümə Müsabiqəsinin final mərhələsində Azərbaycan Universitetini təmsil edib. Müsabiqədə respublikanın 4 universitetini təmsil edən 8 finalçı iştirak edib.

Müsabiqənin final turunda iştirakçılar, o cümlədən Xəyyam Əsədov ingilis, Azərbaycan və rus dillərində olan canlı çıxışları tərcümə ediblər. Çıxışçılar Beynəlxalq biznes məsləhətçisi, ingilis dilinin tədrisi üzrə mütəxəssis, filologiya üzrə fəlsəfə doktoru Vahid Əsgəri və Xəzər Universitetinin müəllimləri Gülafət Şəfiyeva və Qriqorii Penkov olub.

Finalçıları 7 nəfərdən ibarət Münsiflər Heyəti əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirib. Xəyyam Əsədov final mərhələsində iştirak etdiyi üçün sertifikatla təltif olunub.

## Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi tələbələrlə görüş təşkil edib



Magistratura səviyyəsi üzrə II kurs tələbələrinin iştirak etdiyi görüşdə mərkəzin tyutoru Afiq Nadirov magistrantları elmi-pedaqoji və elmi tədqiqat təcrübələrinin yekunları ilə tanış edib, eləcə də təcrübə sənədlərinin doldurulması; magistrantların dissertasiya işlərinin hazırlanması, təqdim olunması və müdafiə olunması qaydaları; ilkin müzakirəyə hazırlıq; Yekun Dövlət Attestasiyasına hazırlıq haqqında məlumat verib.

## Tələbələr üçün gələcəyin enerjilərinə həsr olunmuş vebinar keçirilib



"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Türkiyə Respublikasının İstanbul Universitetində "İqtisadiyyat və idarəetmə" ixtisas istiqaməti üzrə doktorantura təhsili alan Şəmsi Əfəndizadənin Azərbaycan Universitetinin tələbələri üçün vebinarı təşkil olunub.

"Alternativ enerjilərin iqtisadiyyatı: gələcəyin enerjilərinə necə hazır olmalıyıq?" mövzusuna həsr olunan vebinarda iştirakçılara iqtisadiyyatın inkişafında enerjinin rolu, enerji və dünyanın enerji istehlakı, fosil və alternativ enerjilər, alternativ enerji mənbələri, alternativ enerjilərdə əsas tendensiyalar, enerji mənbələrinin maliyyətləri, iqlim böhranı və təbii resurslar kimi mövzular haqqında məlumat verilib.

## Biznes və iqtisadiyyat fakültəsinin tələbələri üçün ustad dərsi təşkil olunub



"Azconstruction" şirkətinin insan resursları üzrə mütəxəssisi Elnarə Cabbarova İqtisadiyyat, Maliyyə, Marketinq, Menecment, Mühasibat ixtisasları üzrə təhsil alan IV kurs tələbələrinə "Karyera inkişafı" mövzusunda ustad dərsi keçib.

Dərsdə tələbələrə karyera inkişafı anlayışı, məqsədin aydınlaşdırılması, karyera hədəfi, strukturlaşdırılmış karyera inkişafı planı, karyera inkişafının mərhələləri kimi mövzular haqqında məlumat verilib. Həmçinin karyera hədəfinə çatmaq üçün lazım olan təcrübə, səriştə və əlaqələrin xəritəsinin tərtib olunmasının əhəmiyyəti vurğulanıb.

Sonda mövzu ətrafında müzakirə aparılıb, tələbələrin sualları cavablandırılıb.

## Stolüstü tennis və dama yarışının qalibləri mükafatlandırılıb



Tələbələrimiz arasında keçirilən stolüstü tennis yarışının nəticəsinə əsasən I yeri Nicat Talıbov (Biznes və iqtisadiyyat fakültəsi, IV kurs), II yeri Ravan Nağdalıev (Biznes və iqtisadiyyat fakültəsi, IV kurs), III yeri Namət Nağıyev (İnformasiya-kommunikasiya texnologiyaları fakültəsi, I kurs) tutub.
Dama yarışının nəticəsinə əsasən I yerə İbrahim Məmmədli (Humanitar fənlər fakültəsi, IV kurs), II yerə Soltan Məmmədov (Biznes və iqtisadiyyat fakültəsi, IV kurs), III yerə isə Ömər Allahverdiyev (Biznes və iqtisadiyyat fakültəsi, II kurs) çıxıb.
Sayca ikinci olan turnirdə tələbələr fərdi qaydada mübarizə aparıblar.
Qaliblərə sertifikatları universitetin məşqçisi Nazim Mehralıyev və İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi Ülvi Süleymani təqdim edib.

## "Gənc İqtisadçılar Klubu"nda yaşıl iqtisadiyyata keçid müzakirə olunb



İqtisadiyyat və idarəetmə kafedrasının nəzdində fəaliyyət göstərən "Gənc İqtisadçılar Klubu"nun ilk tədbiri keçirilib. Tədbirdə klubun sədri, Marketinq (tədris ingilis dilində) ixtisası üzrə II kurs tələbəsi Lamiyə Məmmədzadə klubun məqsədi, fəaliyyət istiqamətləri, tələbələrin inkişafında oynayacağı rol ilə bağlı təqdimatla çıxış edib.
Tədbirin ikinci hissəsində isə iştirakçılar təsadüfi qruplara bölünərək "Azərbaycan yaşıl iqtisadiyyata keçidə nə dərəcədə hazırdır?" sualı ətrafında simulyasiya xarakterli müzakirə aparıblar. Simulyasiya kafedranın müəllimi Ziynət Mehtiyevanın moderatorluğu ilə baş tutub.

## İKT tələbələrinin hazırladığı "TEC APP" mobil tətbiqinin təqdimatı təşkil olunub



İnformasiya-kommunikasiya texnologiyaları fakültəsində təhsil alan tələbələrin hazırladığı "TEC APP" mobil tətbiqinin təqdimatı keçirilib. Təqdimatda tələbələrdən ibarət işçi qrupla yanaşı, rektor Səadət Əliyeva, fakültənin dekanı Asif Paşayev, fakültənin akademik məsləhətçisi Elzadə Sadiqova, Riyaziyyat və informatika kafedrasının müdiri Rəşad Məstəliyev də iştirak edib.
Tədbirdə "TEC APP" mobil tətbiqinin əsas məqsədi, interfeysi, funksional imkanları, istifadə qaydaları haqqında məlumat verilib, mobil tətbiqin real istifadəsi nümayiş etdirilib. Bildirilib ki, tətbiq universitetin üç fakültəsinin tələbə elmi cəmiyyətlərinin koordinasiyalı fəaliyyətinin təmin edilməsi məqsədilə hazırlanıb.

## İSİM tələbələr üçün maarifləndirici tədbir keçirib



Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən tələbələr üçün sağlam həyat tərzinin təbliğinə həsr olunmuş maarifləndirmə tədbiri keçirilib. Maarifləndirmə tədbirində İSİM-in səhiyyə kommunikasiyası şöbəsinin müdiri Laura Quliyeva ilk olaraq mərkəzin fəaliyyət istiqamətləri haqqında məlumat verib. Qonaq daha sonra "Sağlam həyat tərzinin təbliği və maarifləndirmə tədbirləri" mövzusunda geniş təqdimatla çıxış edib.
Laura Quliyeva tütün məhsulları, alkoqollu içkilər, narkotik maddələr kimi zərərli vərdişlərin insan orqanizminə mənfi təsirləri haqqında danışıb, Ümumdünya Səhiyyə Təşkilatının zərərli vərdişlərlə bağlı statistikasını diqqətə çatdırıb.

## Mentorlar Klubu "Psixoloji immunitet və emosional zəka" mövzusunda təlim təşkil edib



Tədbiri klubun sədri, Gənclərlə iş ixtisası üzrə magistratura I kurs tələbəsi Hacı Soduyev açaraq rəhbərlik etdiyi klubun fəaliyyəti haqqında məlumat verib. Klubun layihə rəhbəri, Maliyyə ixtisası üzrə sonuncu kurs tələbəsi Hüseyn Əsgərzadə iştirakçıları həyata keçiriləcək layihələr ilə tanış edib.
Ardınca psixoloq Qərib Xıdırov "Psixoloji immunitet və emosional zəka" mövzusunda təqdimatla çıxış edib. Təqdimat psixoloji immunitet, psixi sağlamlıq və kriteriyaları, psixosomatika, ABC modeli, emosional intellekt, özünüinkişaf barədə psevdo təbliğat kimi mövzuları əhatə edib.

## Tələbələrimiz "Parlaq zəka" yarışında I yerə layiq görülüblər



Tələbələrimiz Rəsul Dadaşov (TGT sədri, Dövlət və ictimai münasibətlər, III kurs), Əlağa Əzizli (Dövlət və ictimai münasibətlər, III kurs), Fidan Sarayeva (Dövlət və ictimai münasibətlər, III kurs), Səid Məmmədli (Dövlət və ictimai münasibətlər, III kurs), Xalid Qafarov (Dövlət və ictimai münasibətlər, III kurs),  Eltun Xudiyev (İnformasiya təhlükəsizliyi, tədris ingilis dilində, I kurs), Firuzə Abdullayeva (İqtisadiyyat, I kurs) ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Parlaq zəka" adlı universitetlərarası intellektual yarışda I yerə layiq görülüblər.
Yarışda Azərbaycan Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Avrasiya Universiteti, Azərbaycan Dövlət Neft və Sənayə Universitetinin komandaları iştirak edib.

## Tələbələr üçün tammetrajlı "Mübariz" bədii filmi nümayiş olunub



Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr olunan tammetrajlı "Mübariz" bədii filminin nümayişində filmin prodüseri Abbas Əli də iştirak edib. Nümayişdən əvvəl açılış nitqi ilə çıxış edən prodüser qeyd edib ki, film Mübariz İbrahimovun beş yaşından şəhidlik zirvəsinə qədər ucalan şərəfli həyat yolundan bəhs edir. 90 dəqiqəlik film 2 ilə ərsəyə başa gəlib. Çəkilişlər ölkəmizin müxtəlif bölgələrində, o cümlədən qəhrəmanımızın anadan olduğu Biləsuvar rayonunda və döyüşüb şəhadətə yüksəldiyi Tərtər rayonunda yerləşən hərbi mövqedə aparılıb.
Qeyd edək ki, "Mübariz" tammetrajlı bədii filmi "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, NN film və "Munis Production"ın istehsalıdır. Filmin baş prodüseri və ssenaristi Nicat Mənalı, quruluşçu rejissoru isə Natiq Novruzovdur.

## "Mercure Hotel Baku City" tələbələr üçün təlim keçirib



Karyera Mərkəzinin təşəbbüsü ilə təşkil olunan təlimi "Mercure Hotel Baku City"nin İstedad və mədəniyyət üzrə direktoru Fuad Mürsəlov aparıb.
Fuad Mürsəlov tədbirdə CV hazırlama üsulları, iş axtarışı prosesi, müsahibəyə hazırlıq, müsahibədə davranış qaydaları, uyğunlaşma - sınaq müddəti və sonrakı mərhələlər kimi mövzuları əhatə edən təqdimatla çıxış edib.
Karyera Mərkəzinin tələbələrin iş həyatına hazırlanması məqsədilə təşkil etdiyi təlimlər 2 gün davam edib. İnteraktiv formada keçirilən təlimlərin sonunda fəal iştirak edən tələbələr iştirakçı sertifikatı ilə təmin olunublar.

## Bakı Apellyasiya Məhkəməsinin hakimi Sosial iş tələbələri ilə görüşüb



Sosial iş ixtisası üzrə təhsil alan tələbələr üçün "Psixi sağlamlığın pozulmasının cinayətkar meyillərə təsiri" mövzusunda açıq dərs təşkil edilib. Sosial işin təşkili kafedrasının müəllimi Firuzə Hüseynovanın təşkilatçılığı ilə keçirilən açıq dərsin qonağı Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının hakimi Cavid Hüseyn olub.

Cavid Hüseyn çıxışında tələbələrə psixi sağlamlıq və hüquqi sistem arasında olan əlaqələrə dair vacib məlumatlar təqdim edib. Həmçinin psixi sağlamlıq pozuntularının müxtəlif növlərinin insan davranışlarına və xüsusilə cinayətkar meyillərə necə təsir etdiyini izah edib.

## Sosial-Psixoloji Tədqiqat və Məsləhət Mərkəzi tələbələr üçün ilk təlimini təşkil edib



Sosial-Psixoloji Tədqiqat və Məsləhət Mərkəzi tərəfindən tələbələr üçün "İmtahan dövründə sakitlik və özünəinam" mövzusunda təlim təşkil olunub. Təlimdə iştirakçılar "Asterias" Təlim və İnkişaf Mərkəzinin təsisçisi və professional koç Nərgiz Çalbay, mərkəzin psixoloqları Həmidə Əliyeva və Mətanət İsmayıllının çıxışlarını dinləyiblər.

Təlimdə tələbələrə imtahan stresinin səbəbləri və təsirləri, streslə mübarizə yolları, stresin azaldılması üçün praktik üsullar, psixoloji hazırlıq və pozitiv düşüncə texnikaları haqqında məlumat verilib, suallar cavablandırılıb.

Sonda iştirakçılarla P4C metodologiyası üzrə praktiki məşğələ keçirilib.

## Sonuncu kurs tələbələri üçün "Karyera quruculuğu" mövzusunda mühazirə təşkil olunub



"Sky Lion" şirkətinin administrativ ofis rəhbəri, Ekoloji maarifləndirmə üzrə ştatdankənar ekspert, beynəlxalq lektor Gülnar Hüseynovanın Biznes və iqtisadiyyat fakültəsinin IV kurs tələbələri üçün oxuduğu mühazirə karyera planlaması və inkişafı, karyera quruculuğunun elementləri, məqsədin düzgün müəyyənləşdirilməsi, hədəfin seçilməsi, uğurlu karyeraya nail olmağın yolları kimi mövzuları əhatə edib. Mühazirədə ekoloji maarifləndirmənin, ətraf mühitin qorunmasının, təbiətə humanist münasibətin əhəmiyyəti də vurğulanıb.

Gülnar Hüseynova çıxışında öz təcrübəsini tələbələrlə bölüşüb, həmçinin onlara peşəkar məsləhətlər verib.

Mütəxəssis tələbələrlə görüşə İqtisadiyyat və idarəetmə kafedrasının müəllimi, iqtisad üzrə fəlsəfə doktoru İntizar Qurbanovanın tədris etdiyi "Karyera planlaması" fənni çərçivəsində dəvət olunub.

Görüşdə kafedranın pedaqoji heyəti də iştirak edib.

## Tələbələr üçün "Qanun" nəşriyyatının kitab satış - sərgisi təşkil olunub



"Qanun" nəşriyyatının təşəbbüsü ilə təşkil olunan və üç gün davam edən sərgidə tələbələrin maraq dairəsinə uyğun Azərbaycan və dünya ədəbiyyatından kitablar, dünya klassikləri seriyasından kitablar, elmi-populyar yönlü, həm tərcümə ədəbiyyatı, həm də yerli müəlliflərin kitabları, şəxsi inkişaf yönümlü kitablar, qeyri-bədii ədəbiyyat 20, 30 və 50 faiz endirimlərlə təklif olunub.

Sərginin məqsədi kitaba maraq oyatmaq və kitabı populyarlaşdırmaqdır.

## TEC sədri Vaqif Qocayevin layihəsi əsasında marketinq forumu keçirilib




Biznes və iqtisadiyyat fakültəsinin Marketinq ixtisası üzrə II kurs tələbəsi və fakültə Tələbə Elmi Cəmiyyətinin sədri Vaqif Qocayevin müəllifi olduğu layihə əsasında "MarketinqdəSƏN" adlı forum keçirilib. Forumun işi 4 paneldə təşkil olunub.

Birinci paneldə spikerlər Göktuğ Sarı (Trilogy News) və Günel Mavliyarova (Kapital Bank) rəqəmsal marketinq, üstünlükləri və ənənəvi marketinqdən fərqləri; ikinci paneldə isə spikerlər Saday Alverdiyev (AGA Group, Bravo Technologies) və Şərifə Həsənova (Pasha Malls) ənənəvi marketinq haqqında iştirakçılara məlumat veriblər. Üçüncü paneldə spikerlərin debatı təşkil olunub, onlar öz sahələri barədə mövqelərini verilən vaxt ərzində əsaslandırmağa çalışıblar. Dördüncü paneldə isə iştirakçıların sualları cavablandırılıb.

"Yarat IQ Academy" tərəfindən təşkil olunan forumda tələbələrlə yanaşı millət vəkili Ceyhun Məmmədov, Azərbaycan Universitetinin və Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rəsmiləri iştirak edib.

## TGT sədri Rəsul Dadaşov "İlin Tələbə Gənclər Təşkilatı sədri" seçilib



Azərbaycan Universitetinin Tələbə Gənclər Təşkilatının (TGT) sədri Rəsul Dadaşov Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı (ATGTİ) tərəfindən "İlin Tələbə Gənclər Təşkilatı sədri" seçilib. TGT sədri 2023-cü il "Heydər Əliyev İli" ərzində ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və həyata keçirilməsində nümunəvi iştirakına görə bu ada layiq görülüb. Təşkilatın sədr müavini Xalid Qafarov isə tədbirlərin təşkilində fəal iştirakı və ümumi fəaliyyəti üzrə ATGTİ tərəfindən "İlin TGT nümayəndəsi" nominasiyası üzrə təltif olunub.

## Tələbələr "İstiqlaliyyət" küçəsinin abidələri ilə tanış olublar



Ekskursiyada iştirak edən tələbələrə İstiqlaliyyət küçəsində yerləşən tikililər, inzibati və tarixi binalar - İsmailliyə sarayı, Azərbaycan Dövlət Akademik Filarmoniyası, Filarmoniya bağı, AMEA Əlyazmalar İnstitutu, Hüseyn Cavidin ev-muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, İçərişəhərin qala divarları, Akademik Yusif Məmmədəliyevin, Mirzə Ələkbər Sabirin və Nizami Gəncəvinin heykəlləri, "İstiqlal bəyannaməsi" abidəsi haqqında məlumat verilib, küçənin yaxın və uzaq tarixinə dair maraqlı faktlar təqdim edilib. Tələbələrin diqqətinə çatdırılıb ki, "İstiqlaliyyət" küçəsi 100 ildən çoxdur ki, paytaxtın ən gözəl və ən əhəmiyyətli küçəsi olma özəlliyini qoruyub saxlayır. Küçə bir çox ilklərə şahidlik edib. Bakıda ilk çoxmərtəbəli bina burada tikilib, ilk park burada salınıb və ilk heykəl burada ucaldılıb, ilk hərbi parad bu küçədə keçirilib.

Tələbələr daha sonra Tahir Salahovun ev muzeyi və Dəmiryol muzeyini də ziyarət ediblər.

## Tələbə Gənclər Təşkilatının fəal üzvləri təltif olunub



Tələbə Gənclər Təşkilatının fəal üzvləri ilə yanaşı rektorun müşaviri Nüşabə Quliyeva, elmi işlər üzrə prorektor Yusif Qasımov, Siyasi və ictimai elmlər kafedrasının müdiri Elvin Talışınskinin də iştirak etdiyi təltifetmə mərasimində TGT sədri Rəsul Dadaşov fəaliyyəti dövründə görülən işlərin hesabatını təqdim edib. Hesabatın ardından fakültələr üzrə fəal tələbələr təşkilatın "Təşəkkürnamə"si ilə təltif olunublar.

Tədbirdə həmçinin Azərbaycan Universitetinin Tələbə Gənclər Təşkilatının sədri Rəsul Dadaşova "İlin Tələbə Gənclər Təşkilatı sədri", sədr müavini Xalid Qafarova isə "İlin TGT nümayəndəsi" seçilmələri münasibətilə rektor Səadət Əliyevanın "Fəxri fərmanı"ı təqdim olunub.

## Turizmçi tələbələr üçün “Sığorta və sığorta mədəniyyəti” mövzusunda təlim keçirilib



Biznes və iqtisadiyyat fakültəsinin Turizm işinin təşkili ixtisası üzrə təhsil alan II kurs tələbələrinə “Sığorta və sığorta mədəniyyəti” mövzusunda təlim təşkil olunub. Təlimi “Azərbaycan Sığortaçılar Assosiasiyası” (ASA) İctimai Birliyinin Tədris Mərkəzinin direktoru Pərviz Quliyev aparıb. Təlimdə tələbələrə sığorta, sığortalı, sığortaçı kimi anlayışlar, sığorta fəaliyyətinin yaranması və inkişafı, sığortanın iqtisadi mahiyyəti və funksiyaları, üstünlükləri, sığorta növləri, tanınmış sığorta məhsulları, sığortaya müraciət, sığorta şirkətinin seçilməsi, sığorta hadisəsi, sığortalının öhdəliyi və hüquqları, sığortaçının öhdəlikləri və hüquqları haqqında məlumat verilib, suallar cavablandırılıb.
Təlimdə iştirak edən tələbələr sertifikat ilə təmin olunublar.

## Tələbələr üçün “Yumşaq bacarıqlar” fənni üzrə ustad dərsi təşkil olunub



Beynəlxalq ticarət və logistika, Biznesin idarə edilməsi ixtisasları üzrə təhsil alan IV kurs tələbələri üçün təşkil olunan ustad dərsində iştirakçılar yumşaq bacarıqlar (Soft skills) sahəsində təcrübəli mütəxəssislər Tamilla Süleymanova və Mirşahin Əlizadənin məruzələrini dinləyiblər.
Dərsdə tələbələrə yumşaq bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi, həmçinin uğurlu karyera qurmaqda yumşaq bacarıqların rolu ilə bağlı məlumat və tövsiyələr verilib.
Qeyd olunub ki, iş dünyasında yumşaq bacarıqlara tələb sürətlə artır. Təhsil aldıqları sahə üzrə əldə etdikləri fundamental biliklərlə yanaşı, yumşaq bacarıqlar da tələbələrin gələcək inkişafında xüsusi əhəmiyyətə malikdir.

## Yuxarı kurs tələbələri üçün dövlət proqramının təqdimatı olub



“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı”nın təqdimatında  Elm və Təhsil Nazirliyinin nümayəndələri Gülnarə Məmmədova və Paşa Paşayev iştirakçılara proqramın məqsədləri, prioritet istiqamətləri, mərhələləri, proqram çərçivəsində qarşılanan xərclər, müraciət qaydaları və tələb olunan sənədlər, seçim meyarları və prosedurları, proqramın icrasına nəzarət, məzunların məşğulluğunun təmin edilməsi haqqında məlumat verib, sualları cavablandırıblar. Tədbirdə qeyd olunub ki, xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edir.

## “Zərərli Vərdişlərə Qarşı” İctimai Birliyi tələbələr üçün maarifləndirici tədbir keçirib



Sosial iş tələbələrinin iştirak etdiyi tədbirdə klinik psixoloq Aydan Məlikova “Asılılıq” mövzusunda təqdimatla çıxış edib. Psixoloq tələbələrə asılılıq, növləri, asılılıq yaradan maddələr, asılılıqdan xilas olmağın yolları və bu kimi mövzular haqqında məlumat verib.
Ardınca "Zərərli Vərdişlərə Qarşı" İctimai Birliyinin sədri Zaur Orucov zərərli vərdişlərin geniş yayılmış formaları və ağır fəsadlarından danışıb, Ümumdünya Səhiyyə Təşkilatının statistikasını tələbələrin diqqətinə çatdırıb. Tədbirdə zərərli vərdişlərin insana mənfi təsirlərini əks etdirən şəkillərdən ibarət karikatura sərgisi də nümayiş olunub, həmçinin maarifləndirmə tədbirlərinin əhəmiyyəti qeyd olunub.

DÖVLƏT
İMTAHAN
MƏRKƏZİ



# ABİTURİYENT MƏSLƏHƏT MƏRKƏZİ

# ÖDƏNİŞSİZ ƏSASLARLA

- **Tələbə qəbulu qaydaları**
- **Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu**
- **Abituriyentin elektron ərizəsinin doldurulması və təsdiq edilməsi qaydası**
- **Texniki problemlərin həlli**
- **Müsabiqə şərtləri**
- **İxtisas seçimi zamanı diqqət yetirilməli olan məsələlər**

**Məsləhət xidməti**
**Texniki dəstək**

Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71
Tel.: (+994 12) 431 41 17
office@au.edu.az
www.au.edu.az

## *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyində işləyən Sosial iş məzunlarımız*



**Kənan Oktay oğlu Əliyev**
**Sosial iş, 2018, Bakalavriat**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), 4 saylı Bakı DOST Mərkəzi
Səyyar xidmətlərin təşkili şöbəsinin müdiri



**Əsli Ələddin qızı Xəlilova**
**Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, 2020, Magistratura**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Strateji planlaşdırma, məlumatların idarə edilməsi və təhlil departamenti
Təhlil şöbəsi, Mütəxəssis



**Orxan Məzahir oğlu Hüseynov**
**Sosial iş, 2017, Bakalavriat**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), DOST Xidmətləri departamenti
Səyyar və sosial xidmətlər şöbəsinin aparıcı mütəxəssisi
Vətən Müharibəsi iştirakçısı



**Elşən Elxan oğlu Abdullayev**
**Sosial iş, 2016, Bakalavriat**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Qarabağ Regional DOST Mərkəzi
Mütəxəssis (Sosial xidmət məsələləri üzrə sosial agent)



**Arzu Nurəddin oğlu Məsimov**
**Sosial iş 2017, Bakalavriat**
Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), 2 saylı Bakı DOST Mərkəzi
Mütəxəssis (Məşğulluq üzrə sosial agent)



**Tahir İsmayıl oğlu Abışov**
**Sosial iş, 2017, Bakalavriat**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Qarabağ Regional DOST Mərkəzi
Mütəxəssis (Sosial xidmət məsələləri üzrə sosial agent)

**Nicad Cəlil oğlu Hüseynov**
**Sosial iş, 2018, Bakalavriat**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), "DOST Çağrı Mərkəzi 142" MMC
Operator

---

**Əlisahib Təvəkgül oğlu Məhəmmədov**
**Sosial iş, 2019, Bakalavriat**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Qarabağ Regional DOST Mərkəzi
Mütəxəssis (Övladlığagötürmə məsələləri üzrə sosial agent)

---

**Günəş Şirvanəli qızı Şirvanzadə**
**Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, 2021, Magistratura**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, 2 saylı Bakı DOST Mərkəzi
Xidmətlər şöbəsinin aparıcı mütəxəxsisi
(Əlillik məsələləri üzrə sosial agent)

---

**Aysel İrşad qızı İsmayılova**
**Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, 2021, Magistratura**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi, "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" MMC
Sosial pedaqoji inkişaf və psixoloji dəstək departamenti
Sosial pedaqoji inkişaf şöbəsi, Sosial iş üzrə mütəxəssis

---

**Gülşən Mövlud qızı Mikayılova**
**Sosial iş, 2022, Bakalavriat**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), "DOST Çağrı Mərkəzi 142" MMC
Operator

---

**Aydan Seymur qızı Üzeyirli**
**Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş, 2023, Magistratura**



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Qarabağ Regional DOST Mərkəzi
Mütəxəssis (Məşğulluq məsələləri üzrə sosial agent)

---

# COP 29

## Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası

11-22 noyabr 2024, Bakı, Azərbaycan

*"COP29-a ev sahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən yaşıl enerji sahəsindəki fəaliyyətimizə hörmətinin əlaməti hesab edirik".*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

*COP (Conference of the Parties - Tərəflərin Konfransı) iqlim dəyişmələri ilə mübarizədə dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir və bu tədbirlərin sayca 29-cusu bu il noyabrın 11-dən 22-dək Azərbaycanda, Bakıda keçiriləcək. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının yaxud daha çox COP29 kimi tanınan tədbirin ölkəmizdə keçirilməsi ilə bağlı qərar COP28-in ötən ilin dekabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən plenar iclasında verilib.*
*Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC / United Nations Framework Convention on Climate Change) ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır.*
*COP29-un bir sıra iqlim dəyişmələri məsələlərini müzakirə etmək və danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, QHT-ləri və digər maraqlı tərəfləri bir araya gətirən böyük tədbir olacağı gözlənilir. Ehtimallara görə, təqribən 70-80 min xarici qonaq iki həftə ərzində Azərbaycanda olacaq.*

COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflərin Konfransı deməkdir. Tərəflərin Konfransı, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası və Paris Sazişi üzrə irəliləyişə nail olmaq, ən son elmi tədqiqat və məlumatlara əsasən qlobal istiləşməni 1,5 dərəcə Selsiyə qədər məhdudlaşdırmaq üçün Konvensiyaya tərəf olan dövlətlərin rəsmilərinin beynəlxalq səyləri qiymətləndirdiyi tədbirlərdir. Dünyanın ən aktual problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platforma olan COP tədbirləri zamanı dünya liderləri iqlim dəyişmələri ilə mübarizədə ən yaxşı həll yolları barədə müzakirələr aparmaq və irəliləyişləri qiymətləndirmək məqsədilə bir araya gəlirlər. BMT tərəfindən təşkil olunan və hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi COP tədbirlərinin 29-cusu bu il noyabrın 11-dən 22-dək Azərbaycanda, Bakıda keçiriləcək və dünyada gedən proseslərə, o cümlədən iqlim, yaşıl ideyalar, yaşıl proqramlarla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaq.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (Framework Convention on Climate Change, UNFCCC) insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ildə Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. Haqqında danışdığımız Tərəflər Konfransı bu sazişi imzalayan və "iqlimə təhlükəli müdaxilə" ilə mübarizə aparmağı vəd edən ölkələri özündə birləşdirir. Hazırda Konvensiya 198 tərəfdən (197 ölkə və Avropa İttifaqı) ibarətdir. Azərbaycan Konvensiyanı 1995-ci ildə təsdiqləyib.

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına uyğun hər il keçirilən konfranslar Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Konfransları adlanır. BMT-nin ilk İqlim dəyişmələri konfransı 1995-ci il martın 28-dən aprelin 7-dək Berlində keçirilib. Həmin tarixdə 160 dövlətin nümayəndəsi istixana effekti verən qazların emissiyalarının azaldılmasını müzakirə etmək məqsədilə Tərəflərin Birinci Konfransı üçün Berlində bir araya gəliblər. Beləliklə, COP tədbirlərinin təşkili ənənə halını alıb.

Sonuncu COP tədbiri 2023-cü il dekabrın əvvəlində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. 100 minə yaxın nümayəndəni bir araya gətirən COP28 BMT-nin tarixində ən genişmiqyaslı tədbir kimi yadda qalıb. Konfrans çərçivəsində təşkil edilmiş Zirvə toplantısına 120-dən artıq dövlət və hökumət başçısı qatılıb. Sözügedən tədbirdə ilk dəfə olaraq Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. Növbəti, 29-cu sessiyanın ölkəmizdə keçirilməsi ilə bağlı qərar COP28-in plenar iclasında verilib.

COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. Azərbaycanın təşkilata sədrliyinə dair qərar Şərqi Avropa Qrupu ölkələrinin yekdil rəyi əsasında verilib. Qeyd etmək yerinə düşər ki, COP29-a ev sahibliyi üçün Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini irəli sürmüşdülər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqlar nəticəsində ötən il dekabrın 7-də verilmiş birgə bəyanatda elan olunub ki, Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri götürüb. Bundan sonra Bolqarıstan da öz namizədliyi ilə bağlı eyni addımı atıb.

Növbəti COP sessiyasının beynəlxalq səviyyəli tədbirlərin təşkilində kifayət qədər təcrübəsi olan ölkəmizdə keçirilməsinin siyasi əhəmiyyəti olduqca böyükdür. Tədbirin Bakıda keçirilməsi ilə bağlı qərarın Qarabağda 19 sentyabrda başladılan və 24 saatdan da az davam edən lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilməsi bütün dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir.

2023-cü il dekabrın 15-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ölkəmizin evsahibliyi etməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə Prezident çıxış edərək bildirib: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Prezident İlham Əliyev 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi geniş müsahibədə isə ölkəmizin COP29-a evsahibliyi hüququ qazanmasından məmnunluğunu ifadə edərək bildirib: "COP29-la bağlı hadisələrin gedişatını indi hər kəs bilir və yenə də deyə bilərəm, tam səmimiyyətlə deyə bilərəm ki, bizim çox dəqiq və düşünülmüş diplomatik addımlarımız nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün imkan əldə etdik. Bilirsiniz ki, COP30-un ev sahibi bəlli olsa da (Braziliya), COP29-un ev sahibi son günlərə qədər bəlli deyildi. Xüsusilə son həftələr ərzində, hətta COP konfransı Dubayda başlayandan sonra da hələ aktiv diplomatik təmaslar davam edirdi və biz burada da istədiyimizə nail olduq".

COP29 ölkə tarixində keçiriləcək olan ən böyük tədbir hesab olunur və dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80–100 min nəfərə qədər nümayəndənin Bakıya gəlməsi gözlənilir. Tədbirin keçiriləcəyi məkan olaraq Bakı Olimpiya Stadionu seçilib.

COP adətən regional qruplara aid olan böyük, inkişaf etmiş və nüfuzlu dövlətlər tərəfindən təşkil edilir. Ona görə də, tədbirin Bakıda keçirilməsi BMT Təhlükəsizlik Şurasına üzvlük və Qoşulmama Hərəkatına sədrlikdən sonra Azərbaycan xarici siyasətinin ən böyük uğuru hesab edilir. Qeyd edək ki, Azərbaycan Respublikası ilk dəfə 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının iki illiyə (2012–2013) qeyri-daimi üzvü seçilib.  BMT Baş Assambleyasından sonra dünyada ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına isə 2019-2023-cü illər ərzində sədrlik edib. Təşkilat, Azərbaycanın dördillik sədrliyi dövründə sönük və zəif bir qurumdan dünyada alternativ güc mərkəzinə çevrilib.

Kioto Protokolu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına əlavədir  və  1997-ci il dekabrın 11-də Yaponiyanın Kioto şəhərində qəbul edilib. 2005-2020-ci illəri əhatə edən Protokol UNFCCC çərçivəsində tədbirlərin ilk icrası olub. 2005-ci il fevralın 16-da qüvvəyə minən Kioto Protokolu qlobal istiləşməyə səbəb olan istixana effekti yaradan qazların atmosferə tullantılarını məhdudlaşdırır. Azərbaycan Milli Məclisin 18 iyul 2000-ci il tarixli Qərarı ilə bu Protokola qoşulub.

Kioto Protokolu üzrə öhdəliklərin yerinə yetirilməsinin birinci mərhələsi (2008-2012-ci illər) başa çatdıqdan sonra 2012-ci ildə Doha şəhərində 18-ci Tərəflər Konfransında Protokolun ikinci mərhələsi üzrə (2013-2020-ci illər) Doha əlavəsi qəbul edilib. Bununla əlaqədar ölkələrin bu sahədə verə biləcəyi töhfələrin artırılması və potensialın gücləndirilməsi üçün BMT Baş Katibinin çağırışı ilə 23 sentyabr 2014-cü il tarixində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində Yüksək Səviyyəli İqlim Sammiti keçirilib. Adı çəkilən Sammitdə Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə yanaşı, İqtisadiyyat və Energetika Nazirliklərinin nümayəndələri də iştirak edib.

Paris Sazişi isə 2015-ci ilin dekabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına üzv ölkələrin 21-ci konfransında Kioto Protokolunun əvəzinə qəbul edilib və 2016-cı ildə qüvvəyə minib.

2016-cı il aprelin 22-də Nyu-Yorkda, Birləşmiş Millətlər Təşkilatının Mənzil Qərargahında BMT-nin iqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişinin imzalanma mərasimi keçirilib və bu sənədi 171 ölkənin hökumətləri adından dövlət və hökumət rəhbərləri, xarici işlər, ətraf mühit nazirləri imzalayıb. Sazişi Azərbaycan Respublikası Hökuməti adından keçmiş Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov imzalayıb.

Sazişin məqsədi (2-ci maddəyə görə) Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri Çərçivə Konvensiyasının tətbiqini artırmaq, xüsusən qlobal orta temperatur artımını 2 dərəcə Selsidən "çox aşağıda" saxlamaq və məhdudlaşdırmaq üçün səy göstərməkdir. BMT-nin iqlim orqanı İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel (Intergovernmental Panel on Climate Change - IPCC) temperaturun 2 dərəcə Selsi deyil, hətta 1.5 dərəcədə qalmasının müsbət nəticələrini göstərib: dəniz səviyyəsinin yüksəlməsinə görə daha 10 milyon az insan evini itirəcək, su çatışmazlığı yaşayan insanların sayı 50 faiz azalacaq və mərcan rifi itkisi 99 faizdən 70 faizə düşəcək.

Paris Sazişində dövlətlərin üç kateqoriyası üçün müxtəlif məsuliyyətlər müəyyən edilib. Bu kateqoriyalar inkişaf etmiş ölkələr, xüsusi maliyyə öhdəlikləri olan inkişaf etmiş ölkələr və inkişaf etməkdə olan ölkələrdir.

İştirakçı ölkələr elan olunmuş ümumi hədəfə çatmaq üçün verdikləri töhfələri fərdi qaydada müəyyənləşdirir və hər beş ildən bir yenidən nəzərdən keçirirlər. İstər milli hədəflərin elan edilməsi ilə əlaqədar, istərsə də onlara çatmaq öhdəliyini təmin etmək üçün heç bir icra mexanizmi nəzərdə tutulmayıb.

Konvensiyanın 12-ci maddəsinin 5-ci bəndinə uyğun olaraq tərəf ölkələr iqlim dəyişmələri sahəsində hazırkı milli şərait ilə bağlı müntəzəm olaraq Konvensiyanın katibliyinə atmosferə atılan istixana effekti yaradan qazların emissiya mənbələri, səviyyəsi və onların azaldılması istiqamətində görülən işlər barədə həm ölkə, həm də sektorlar üzrə hesabatlar təqdim edir. Azərbaycan da Konvensiya üzrə hesabat öhdəliklərinin bir hissəsi kimi mütəmadi olaraq iqlim dəyişmələri ilə bağlı əsas məsələlər və həll yollarını tərtib etməklə Milli Məlumat hazırlayır.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub və 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payını 30 faizə çatdırmağı qarşısına məqsəd qoyub. Həmçinin 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana effekti verən qazların miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana effekti verən qazların miqdarının 40 faiz azaldılmasından ibarətdir. Bu rəqəm beynəlxalq istiləşmənin təhlükəli nəticələrindən qorunmaq üçün dünya alimləri tərəfindən müəyyən edilən səviyyədir.

Azərbaycan bütün bunlarla yanaşı, bərpa olunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlmək əzmindədir və bu məqsədlə zəngin külək və günəş potensialından istifadə edir. Bu, həmçinin ölkənin 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40 faiz azaltmaq planının mühüm tərkib hissəsidir. Ölkə 2030-cu ilə qədər elektrik enerjisində bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını 30 faizə çatdırmaq və yaşıl enerji sahəsində lider olmaq üçün mövcud enerji sistemini şaxələndirir. Azərbaycan bu sahədə nümunəvi ölkə olaraq 1,5 dərəcə Selsi hədəfinə uyğun olaraq növbəti "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr" sənədi çərçivəsində öz milli hədəflərini yeniləyəcək.

COP29-un Bakıda keçirilməsi qərarı həm də Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir. Tədbir ölkəmizin bu istiqamətdə daha da tanınmasına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə böyük töhfə verəcək. Tədbir çərçivəsində Azərbaycanın bərpaolunan enerji mənbələrinin inkişafı, "yaşıl enerji"yə keçid və iqlim dəyişmələri ilə mübarizədə qarşısına qoyduğu məqsədlər və bu istiqamətdə gördüyü tədbirlər daha böyük auditoriyanın diqqətinə çatdırılacaq.

Belə bir məsələni də xatırlatmaq yerinə düşər ki, cənab Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Azərbaycan "yaşıl enerji" təchizatçısına çevrilməyi də qarşısına məqsəd qoyub. Artıq Azərbaycan Gürcüstan, Macarıstan və Rumıniya ilə Qara dənizin dibi ilə sualtı kabel vasitəsilə "yaşıl enerji"nin Avropaya ixracı layihəsini icra etməkdədir. Bu layihə işə düşdükdən sonra Azərbaycan Avropanın əsas "yaşıl enerji" təchizatçılarından birinə çevriləcək. Beləliklə, böyük neft və qaz sərvətləri olan bir ölkə öz külək və günəş potensialından səmərəli istifadə edərək yaşıl enerjisini meqalayihə çərçivəsində Avropaya ixrac etməklə alternativ və bərpaolunan enerji sahəsində də öncül mövqedə ola biləcəyini sübut edəcək.

# AZƏRBAYCAN UNİVERSİTETİ

## Gələcəyini bu gün seç!




## 6 AYLIQ İCMAL JURNALI

Ünvan: AZ1007, Azərbaycan Respublikası
Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Hacıbəyli küçəsi, 71

Tel.: (+994 12) 431 41 12/13/16
office@au.edu.az
www.au.edu.az